www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 10 sentyabr 2015-ci il Cümə axşamı № 200 (6228) Qiyməti 40 qəpik

Xəbər

## Bərdədə toyda qız və oğlan evi arasında dava - 6 yaralı

yazısı səh.14-də

Gündəm

### Prezidentdən yeni hökumət anonsu -kimlər yola salınır...



**Zahid Oruc:** "Məmurlarla yeni formatda müzakirə prezidentin parlament seçkilərindən sonra həyata keçirəcəyi daha böyük struktur dəyişikliklərinin anonsu kimi qəbul olundu"

yazısı səh.7-də

### Azərbaycan qaziləri Türkiyə hökumətinə müraciət etdi

yazısı səh.3-də

*Razi Nurullayev:*

### "Əli Kərimlini iqtidar içərisində gözəgörünməz bir əl qoruyur"

yazısı səh.4-də

### Dövlətin borclanması yaxşı haldırmı...

yazısı səh.6-da

### Media orqanları seçkidən pul qazana biləcəkmi...

yazısı səh.4-də

### Şəhid oğlunun faciəli ölümü - sözün bitdiyi yer...

yazısı səh.10-da

### Türkiyəyə qarşı savaşan PKK-nı kimlər yaradıb...

yazısı səh.7-də

### "Azərbaycanın bank sektoru 40 faizlik devalvasiyaya tab gətirə bilər"

yazısı səh.6-da

### Voleybol Federasiyasının işçiləri 4 aydır maaş ala bilmir

yazısı səh.14-də

### Son bir ayda ərzaq 30 faizədək bahalaşıb

yazısı səh.11-də

### Moskvadan Qarabağla bağlı çoxgedişli kombinasıya

yazısı səh.13-də

## İki erməni nazirdən bir şok etiraf

# QARABAĞDA 11 MİN SURİYALI ERMƏNİ YERLƏŞDİRİLİB - BÖYÜK TƏHLÜKƏ

Azərbaycan ərazilərində etnik təmizləmə aparmış işğalçı Ermənistan bölgədə demoqrafik situasiyanı öz xeyrinə dəyişməkdə davam edir; Bakı və həmsədr ölkələr hərəkətə keçəcəkmi?..



yazısı səh.8-də

## Məşhur naxçıvanlı iş adamı müflis oldu - şok

"Xalqlar Dostluğu" ticarət mərkəzinin sahibi, tikinti maqnatı İman Quliyev bütün projelərini dondurub; naxçıvanlı biznesmeni ikiqat böhran "vurub"

yazısı səh.2-də



### Habil Əliyev Fəxri Xiyabanda dəfn edildi

yazısı səh.3-də



*Fəzail Ağamalı:*

### "Xaricdəki diplomatlarımıza da qarmaq atılıb"

yazısı səh.12-də



*Məlahət İbrahimqızı:*

### "Siyahının açıqlanmasından da vacib işlər var"

yazısı səh.4-də



## “Qaçqın” statusu dəyişdi - prezident fərman imzaladı

**Prezident İlham Əliyev “Qaçqın” statusu verilməsi haqqında vəsatətə baxılması Qaydası"nda dəyişikliklər edilməsi barədə fərman imzalayıb. Fərmana əsasən Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 13 noyabr tarixli 419 nömrəli fərmanı ilə təsdiq edilmiş “Qaçqın” statusu verilməsi haqqında vəsatətə baxılması Qaydası"nın 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilir:**

- ikinci abzasın birinci cümləsindən “daxili işlər orqanları tərəfindən”, “zərurət yarandıqda” və “və onun verdiyi məlumatların düzgünlüyü yoxlanılanadək müvəqqəti yerləşdirmə mərkəzində qalır” sözləri çıxarılsın;

- aşağıdakı məzmunda yeddinci abzas əlavə edilsin:

“Şəxs (onunla birlikdə gələn ailə üzvləri) qaçqın statusu verilməsi barədə vəsatətlə müraciət etdikdə, o, "qaçqın" statusu verilməsi məsələsi həll edilənə qədər, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi ilə müəyyən edilmiş qaydada Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin qanunsuz miqrantların saxlanılması mərkəzlərində könüllü yerləşdirilir və saxlanılır".

## Məmurun xanımını qətlə yetirən şəxs həbsxanada öldü

**Azərbaycanda qətldə təqsirləndirilərək azadlıqdan məhrum edilən şəxs ölüb. Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin Tibb Baş İdarəsinin rəis müavini İftixar Qurbanovun APA-ya verdiyi məlumata görə, nazirliyin Müalicə Müəssisəsində müalicə olunan məhbus Əlaqif Abbasov qəflətən dünyasını dəyişib: “Palata yoldaşları bildirdilər ki, qəflətən təngnəfəs olub və ölüb. Meyit ekspertizaya göndərilib. Hansı səbəbdən öldüyü ekspertizanın rəyindən sonra məlum olacaq”.**

Qeyd edək ki, 2013-cü il avqustun 14-də Hökməli qəsəbəsində Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) sədr müavini Aqil Dadaşovun 1955-ci il təvəllüdlü həyat yoldaşı Elmira Xalid qızı Dadaşova Əlaqif Abbasov tərəfindən bıçaqlanaraq qətlə yetirib.

Ə. Abbasov ilkin ifadəsində evə oğurluq məqsədi ilə girdiyini bildirib.

İstintaq zamanı Əlaqif Abbasovun daha bir neçə evdən oğurluq etməsi müəyyən edilib. Məlumata görə, Daxili İşlər Nazirliyinin Baş Cinayətkarlıqla Axtarış İdarəsi və Abşeron Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən avqustun 16-da qəsdən adam öldürdüyünə görə tutulmuş Əlaqif Abbasovun ətrafında aparılmış əməliyyat tədbirləri nəticəsində onun avqustun 11-də İbrahim Hüseynovun evindən 860 manat pul və qızıl əşyalarını oğurlaması, avqustun 14-də Kənan Hüseynquliyevin evindən oğurluğa cəhd göstərməsi, habelə cari ilin aprel-iyun ayları ərzində Çiçək qəsəbə sakini Elşən Cəlilovun, Hökməli qəsəbə sakini Mirxas Ağayevin və Kənan Məmmədovun evlərindən pul, qızıl və məişət əşyalarını oğurlaması da müəyyən edilib.

Bundan əlavə, onun "Bərəkət-98" firmasının ofisindən içərisində 100 manat və möhür olan seyfi, Reyhan Müzəffərovanın evindən 2850 manat pul oğurlaması da müəyyən edilib.

Ə. Abbasov Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə ömürlük azadlıqdan məhrum edilib. Hökmdən verilən apelyasiya şikayəti isə təmin edilməyib. Onu da qeyd edək ki, Ə. Abbasov cəzasını Qobustan həbsxanasında çəkirdi. O, bir müddət əvvəl Ədliyyə Nazirliyinin Müalicə Müəssisəsinə köçürülüb.

“Elm” tədris mərkəzi

MAGIC LANGUAGES

➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)

**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012)421-10-46; (012)323-55-21; (055)660-60-95;
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74; (055) 660-07-05

# Məşhur naxçıvanlı iş adamı müflis oldu - şok

## “Xalqlar Dostluğu” ticarət mərkəzinin sahibi, tikinti maqnatı İman Quliyev bütün projelərini dondurub; naxçıvanlı biznesmeni ikiqat böhran “vurub”



**Tanınmış iş adamı İman Quliyev haqda sensasion məlumat yayılıb. Musavat.com-a özəl mənbələrdən daxil olan məlumata görə, tikinti maqnatı kimi ad çıxarmış, iri layihələr həyata keçirən biznesmen İ.Quliyev müflis olub.**

Xəbəri aldıqdan sonra bəzi dəqiqləşdirmələr apardıq. Əksər mənbələr xəbərin doğru olduğunu bildirdi. İman Quliyev əslən Naxçıvandandır. “Xalqlar Dostluğu” ticarət mərkəzinin sahibidir.

İ.Quliyev Azərbaycan müstəqillik qazandıqdan sonra uldu-zu parlayan iş adamlarındadır. O, 90-cı illərdən öz biznes şəbəkəsini qururaq ciddi maliyyə uğuru əldə etmişdi. Əsasən 1993-cü ildən başlayaraq uğur onun üzünə gülməyə başlayıb. Bu da səbəbsiz deyildi. Hazırkı hakimiyyət iş başına keçdikdən sonra İ.Quliyev yeni situasiyadan məharətlə yararlanmağı bacardı.

Bakıda “tolkuçka” biznesi çiçəklənən vaxtlarda Nizami rayonu ərazisində “Xalqlar Dostluğu” ticarət mərkəzini tikdirdi. Bir vaxtlar ölkənin ən iri və dövriyyəsi yüksək olan ticarət mərkəzlərindən biri də yuxarıda adını çəkdiyimiz məkan idi.

Son illər onun sahibi olduğu “tolkuçka” sürətlə boşaldı. Bunun bir səbəbi rəqabət mühitinin güclənməsi idisə, digər səbəb dünyada baş verən iqtisadi tənəzzül idi.

İman Quliyev tikinti sahəsində də qabaqcıllardan olub. Onun şirkətləri Bakıda xeyli yaşayış binaları tikib. Hazırda da iş adamı Nizami rayonu ərazisində çoxmərtəbəli yaşayış binası inşa etdirir.

Lakin gələn xəbərlərdə bildirilir ki, İ.Quliyevin əksər projeləri dayanıb. İşçilərinin belə maaşını vaxtında verə bilmir. Onun çöküşünün əsas səbəbi iqtisadi tənəzzül göstərilir. Bir başqa səbəb kimi isə iş adamını himayə edən yüksək rütbəli məmurların iqtidardakı mövqelərinin zəifləməsi göstərilir.

İ.Quliyev daim reklamdan qaçıb. O, özünü, necə deyərlər, gözə soxmağa həvəsli olmayıb. Buna baxmayaraq, ara-sıra onun adı mediada müxtəlif məsələlərdə hallanıb. Bu da epizodik olub.

İş adamı haqda dolaşan xəbərlərdə bildirilir ki, o, əmlakını satışa çıxarmağa başlayıb. İ.Quliyevin Bakıda xeyli daşınmaz əmlakının, gəlirlə işləyən obyektlərinin olduğu deyilir.

Beləliklə, son aylar müflis olan iş adamlarının sırasına daha biri əlavə olundu. Bu adamların ətrafında yüzlərlə, hətta minlərlə işçi olur. Bu üzdən də onların müflis olması xeyli vətəndaşın işsiz qalmasına, ailələrin ruzisinin kəsilməsinə gətirib çıxarır. Sırada daha bir neçə biznesmenin də olduğu haqda xəbərlər var.

Bir vaxtlar sürətlə yüksələn və varlanan iş adamlarının yarpaq tökümü başlayıb. Prosesin hara qədər davam edəcəyi isə bilinmir. Sırada kimlər var?

**Mövzunu davam etdirəcəyik.**

**❑ İqtisadiyyat şöbəsi**

## Natiq Əliyev: “Neftin qiymətinin azalması müəyyən siyasi maraqlarla bağlıdır”

**Qazaxıstanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Beybit İsabayev Energetika Nazirliyində olub.**

«Trend»in nazirliyə istinadən verdiyi məlumata görə, energetika naziri, Azərbaycan-Qazaxıstan Hökumətlərarası İqtisadi Komissiyanın həmsədri Natiq Əliyevlə keçirilən görüşdə iki ölkə arasındakı dərin tarixi köklərə və dostluğa əsaslanan münasibətlərin inkişafından məmnunluq ifadə edilib.

Bildirilib ki, siyasi-iqtisadi əlaqələrin möhkəmliyi enerji sektorunda da uğurlu əməkdaşlığı təmin edib və birgə layihələrin həyata keçirilməsini mümkünləşdirib. Azərbaycan-Qazaxıstan Hökumətlərarası İqtisadi Komissiyanın fəaliyyəti də təqdirəlayiq hesab edilərək, əməkdaşlığın gələcək istiqamətləri və dünyada cərəyan edən iqtisadi və maliyyə böhranı ətrafında fikir mübadiləsi aparılıb.

Neftin qiymətinin iki dəfədən çox düşməsi ilə müşayiət olunan bu böhranın təsirlərindən danışan N.Əliyev deyib ki, bu prosesin əsas səbəbləri siyasi amillər və maraqlarla bağlıdır: “Ölkənin yüksək iqtisadi göstəriciləri isə belə qənaəti formalaşdırır ki, Azərbaycan düşünülmüş iqtisadi siyasət əsasında bu mərhələni də geridə qoyacaq. Bütün ölkələr, o cümlədən Qazaxıstan da mövcud vəziyyətdən ancaq öz praqmatizmi ilə çıxa bilər.”

B.İsabayev isə bildirib ki, bütün sahələrdə ikitərəfli əlaqələrin inkişafının davam etdirilməsi onun diplomatik fəaliyyətində də prioritet təşkil edəcək. İkitərəfli münasibətlərin inkişafında isə qarşılıqlı səfərlərin və görüşlərin mühüm əhəmiyyət daşıdığı qeyd edilərək, Astanada keçiriləcək EKSPO-2017 Beynəlxalq sərgisinin təşkili ilə əlaqədar məsələlər ətrafında müzakirələr aparılıb.

## Elman Rüstəmov: “Ümid edirik ki...”

***“Azərbaycan Şahmat Federasiyası Dünya Şahmat Kubokunun Bakıda ən yüksək səviyyədə keçirilməsi üçün hər şeyi edib”.***

Bunu Azərbaycan Şahmat Federasiyasının prezidenti Elman Rüstəmov Bakıda keçiriləcək Dünya Şahmat Kubokuna həsr olunmuş mətbuat konfransında deyib.

E.Rüstəmov bildirib ki, turnirdə çox gərgin yarışmanın keçməsi gözlənilir: “İdmançılarımız bu yarışmaya yaxşı hazırlaşıblar və ümid edirik ki, uğurla çıxış edəcəklər. İdmançılarımızdan gözləntilərimiz böyükdür”.

O qeyd edib ki, son illərdə Azərbaycan şahmatçılarının beynəlxalq turnirlərdə qazandığı uğurlar hamıya məlumdur: “Bu gün güclü komandamız, güclü oyunçularımız var. Burada əsl idman mübarizəsinin baş tutmasını gözləyik”.

E.Rüstəmov əlavə edib ki, turnirdə dünyanın ən yüksək reytinqli şahmatçıları iştirak edir.

Tədbirdə çıxış edən gənclər və idman naziri Azad Rəhimov da Azərbaycanda güclü şahmatçıların yetişdiyini bildirib və idmançılarımızdan yarışmalarda yüksək nəticələr gözlədiyini diqqətə çatdırıb.

## Zakir Həsənov ordunun planlarını açıqladı



**Silahlı Qüvvələrin bütün qoşun növləri üzrə keçirilən təlimlərinin ikinci mərhələsinə start verilir. Müdafiə naziri Zakir Həsənov ANS-ə açıqlamasında bildirib ki, bu mərhələdə qoşun növlərinin praktiki tətbiqi həyata keçiriləcək. Təlim atışları Silahlı Qüvvələrin müharibə vaxtı tətbiqi tam şəkildə icra olunacaq:**

“HHQ -lər taktiki manevrlər edəcək və raket buraxılışları yerinə yetirəcəklər. Artilleriya zərbələri və havadan zərbələr olacaq. Bizim helikopter və təyyarələrimiz atışlar edəcək. Mühəndis istehkamçıları, kəşfiyyatçılar, xüsusi təyinatlılar qarşısında böyük vəzifələr qoyulub. Tam şəkildə biz Silahlı Qüvvələrin müharibə vaxtında tətbiqini bu təlimlərdə sınaqdan keçiririk”.

## Valideynləri azərbaycanlı siyasi məhbusdan imtina etdi



**Hazırda mühacirətdə yaşayan keçmiş siyasi məhbus Rəsul Mürsəlovun valideynləri ondan imtina ediblər. Virtualaz.org saytının əldə etdiyi xəbərə görə, öz oğlundan imtina bəyanatını R.Mürsəlovun atası Maarif Mürsəlov yazıb və həmin müraciətini Prezident Administrasiyasına, Baş Prokurorluğa, Daxili İşlər Nazirliyinə, Milli Təhlükəsizlik Nazirliyinə və Ombudsman Aparatına göndərib.**

“Biz oğlumuz Rəsulun siyasi fəaliyyətini dəstəkləmir və ondan imtina etdiyimizi bəyan edirik. Bunu nəzərə almağınızı və Rəsul Mürsəlovu bundan sonra bizim ailə ilə əlaqələndirməməyinizi xahiş edirik” - deyə Mürsəlovlar ailəsinin imzaladığı bəyanatda deyilir.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

YENİ MÜSAVAT
N 200 (6228) 10 sentyabr 2015

**Sentyabrın 9-da Azərbaycan Dövlət Filarmoniyasında xalq artisti Habil Əliyevlə vida mərasimi keçirildi. Tədbirdə sənətkarın ailəsi, yaxın dostları, tanınmış mədəniyyət və incəsənət xadimləri, baş nazirin müavini, xalq yazıçısı Elçin Əfəndiyev, Milli Məclisin sədr müavini Ziyafət Əsgərov, mədəniyyət və turizm naziri Əbülfəs Qarayev, nazir müavini Ədalət Vəliyev, müxtəlif KİV nümayəndələri iştirak ediblər.**



# Kaman ustası son mənzilə yola salındı

## Habil Əliyev Fəxri Xiyabanda dəfn edildi

Mərhum sənətkarın oğlu **Rəvan Habiloğlu** atasının ölümü ilə bağlı "Yeni Müsavat"ın əməkdaşına öz kədərini bölüşüb: "Habil Əliyev öz yaşıdları arasında son mənzilə yola salınan son korifey sənətçidir. Onun ölümü Azərbaycan mədəniyyəti, xalqı üçün böyük itkidir... Allahdan bir arzum var, gənc nəsil Habil Əliyevi yaxşı tanıya, yaxşı yaddaşlarında saxlaya bilsinlər. Çünki Habil Əliyev fenomeni təkcə musiqiçi deyil, həm də gözəl yumorları, deyimləri olan gözəl şəxsiyyətdir. Allah qəni-qəni rəhmət eləsin..."

**Xalq artisti, muğam ustası Əlibaba Məmmədov da mərhum sənətkarın Azərbaycan mədəniyyəti üçün gördüyü dəyərli işlər barəsində "Yeni Müsavat"a danışıb:** "Habil Əliyev çox istəyirdi ki, kaman sənəti daha da inkişaf etsin. Nəhayət ki, onun sayəsində və onun istedadı ilə kamançada böyük inkişaf getdi. Azərbaycan xalqı nə qədər yaşayacaqsa Habil də yaşayacaq. Allah rəhmət eləsin".

**Xalq artisti, muğam ustası Arif Babayev isə bu sözləri deyib:**

"O, böyük sənətkar kimi həmişə qəlblərdə yaşayacaq, xalq həmişə onu sevəcək. Hər adama belə şərəfli ölüm qismət deyil. Allah rəhmət eləsin".







**Xalq artisti Gülyaz Məmmədova mərhum sənətkarla bağlı xatirələrini bölüşüb:** "Bu gün hər kəs Habil müəllim üçün kədərlənir. Lakin kədərlə yanaşı, onun yumorlu deyimləri yada düşəndə insan gülümsəməyə bilmir...Habil müəllimə "kamanın atası" deyərdilər. Yadımdadı, gözəl sənətkar Ədalət Vəzirov dünyasını dəyişəndə Habil Əliyev böyük kədərlə "kamanımız ağlar qaldı" demişdi. Yəni özündən kiçik olan həmkarlarına belə dəyər verməyi bacarırdı. Gözəl sənətkar olmaqla yanaşı, həm də çox gözəl yol yoldaşı idi. Həmişə deyib-gülən, şən, insana öz dəyərli məsləhətlərini verən şəxsiyyət idi... Çox heyif, xalqımız böyük sənətkarını itirdi. Özü aramızdan getdi, ancaq kamanının səsi bizə əmanət qaldı. Allah rəhmət eləsin".



**Xalq artisti Zöhrə Abdullayeva da mərhum sənətkarın ölümünün Azərbaycan xalqı üçün böyük itki olduğunu deyib:**

"Habil müəllim dahi sənətkar, böyük insan, mədəni şəxsiyyət idi. Onun kamanının səsi heç bir kamanda yoxdur. Kamanı özünəməxsus necə kökləyirdisə, alətdən təkrarolunmaz ifalar səslənirdi... Habil müəllim çox hazırcavab, şən idi. Eyni zamanda gözəl də ailə başçısı, yol yoldaşı idi. Yadımdadır, 90-cı illərdə məni özü ilə Almaniyaya qastrol səfərinə aparmışdı... Millətimizin başı sağ olsun".

**Xalq artisti, gülüş ustası İlham Namiq Kamal:** "Habil müəllim bir əsrə qədər yaşadı. Lakin yaşayıb-yaratmaq üçün istedadlı, görkəmli şəxsiyyətlər üçün bir əsr, iki əsr yetmir. Habil müəllim bir kamançası ilə Azərbaycanı dünyada tanıtdı, tərənnüm etdi. Buna görə də Azərbaycan xalqı bu böyük sənətkarı dünən də, bu gün də alqışlayıb, bundan sonra da alqışlayacaq. Qəbri nurla dolsun..."

Xalq artisti Aybəniz Haşımova isə göz yaşları içində "Allah rəhmət eləsin, başqa heç nə deyə bilmirəm, mənim üçün çox çətindir", - deyib.

**Mərasimi giriş sözü ilə mədəniyyət və turizm naziri Əbülfəz Qarayev açıb. Nazir Habil Əliyevin özünəməxsus ifaları ilə Azərbaycan musiqisində yeni səhifə açdığını deyib:** "Habil müəllim öz ifaları ilə Azərbaycan musiqisini zənginləşdirib. O, öz peşəsinə fədakarcasına bağlı olan böyük sənətkar idi. Dahi sənətkar Azərbaycan musiqisini dünyanın müxtəlif ölkələrində təbliğ edib. Ölkə başçısı Habil Əliyevin vida mərasiminin ən yüksək səviyyədə keçirilməsi üçün xüsusi tapşırıq verib. Habil Əliyevin xatirəsi onu tanıyanların, Azərbaycan xalqının yaddaşında əbədi yaşayacaq. Allah rəhmət eləsin".

Bəstəkar Firəngiz Əlizadə Habil Əliyevin Azərbaycan ifaçılıq sənətinə gətirdiyi yeniliklərdən danışıb, onu böyük sənətkar kimi dəyərləndirib.

Mərasimdə xalq artistləri Siyavuş Kərimi, Canəli Əkbərov, Arif Babayev və başqaları da Habil Əliyev haqqında xatirələrini danışıb, onun Azərbaycan musiqisinin inkişafındakı xidmətlərini qeyd ediblər.

Ailəsi adından çıxış edən nəvəsi Əli Əmirəliyev vida mərasimində iştirak edənlərə təşəkkürünü bildirib.

Daha sonra mərasim iştirakçıları xalq artisti, kaman ustası Habil Əliyevlə son mənzilə yola salmaq üçün vidalaşıb, ruhuna fatihə oxuyub, dualar səsləndiriblər.

Qeyd edək ki, mərhum sənətkar I Fəxri Xiyabanda dəfn olunub.

Xatırladaq ki, xalq artisti Habil Əliyev sentyabrın 8-də, axşam saatlarında dünyasını dəyişib. Kaman ustası Habil Əliyev səhhətində yaranan problemlərə görə avqust ayının 15-də ürək və tənəffüs çatışmazlığı diaqnozu ilə xəstəxanaya yerləşdirilib. Xalq artistinin səhhəti bir qədər yaxşılaşdıqdan sonra müayinəsini evdə davam etdirilib. Buna baxmayaraq kaman ustası bir neçə gün əvvəl yenidən komaya düşüb.

Habil Əliyev 28 may 1927-ci ildə Ağdaş rayonunun Üçqovaq kəndində anadan olub. 1952-ci ildə Bakıya gəlib, Asəf Zeynallı adına orta ixtisas musiqi məktəbinin kamança şöbəsinə daxil olub. Görkəmli tarzən Qurban Pirimovdan və məşhur müğənni Xan Şuşinskidən muğam sənətinin sirlərini öyrənib.

H. Əliyev "Segah", "Bayatı-Qacar", "Bəstənigar", "Bayatı-Şiraz", "Rahab", "Bayatı-Kürd", "Cahargah", "Rast", "Zabul" muğamlarına yeni kamança həyatı verib. Kaman ustası keçmiş SSRİ respublikalarında və eləcə də dünyanın bir çox ölkələrində Türkiyə, Amerika, Almaniya, İngiltərə, Fransa, Hindistan, Pakistan, İran, Misir, İsveçrə, Hollandiya, Tunis, Yaponiya, Suriya, Mozambik və s. qastrol səfərlərində olub, ABŞ, Fransa, Yaponiya, İtaliya və Yunanıstanda Azərbaycan muğamlarından və xalq mahnılarından ibarət kompakt diskləri də buraxılıb.

Kaman ustası 1978-ci ildə Azərbaycan SSR xalq artisti fəxri adına layiq görülüb. Bundan başqa, dəfələrlə müxtəlif orden və medallarla, döş nişanları və fəxri fərmanlarla təltif olunub.

❑ **Xalidə GƏRAY**

# "Bizi də qatıldığınız müharibəyə aparın"

## Azərbaycan qaziləri Türkiyə hökumətinə müraciət etdi



Vaqif Əlisoy

**Bir qrup Qarabağ qazisi Türkiyə hökumətinə müraciət edib. Müraciətdə bildirilir ki, son günlər qardaş ölkədə baş verənlər azərbaycanlı qaziləri də ağrıdıb və onlar bu mübarizə yolunda Türkiyəyə dəstək olmağa hazırdılar: "Böyük türk milləti, sizə müraciət edirik. Bizi qatıldığınız müharibəyə aparın. Türkiyəyə uzanan əllər Azərbaycana uzanan əllərdir. Bu əlləri kəsmək üçün sizin yanınızda, sizinlə birlikdə olaq. Bu müharibədə şəhid olmaq, qanımızı dost və qardaş millət yolunda axıtmağa hazırıq. Az deyilik. Keçmişdə savaşmış heyətlər, OMON-çular, boz qurdçular və digərləri ilə birlikdə, sizinlə çiyin-çiyinə, mənfur düşməyə qarşı vuruşmaq arzusundayıq".**

Azərbaycan qaziləri adından olunan bu müraciəti Vaqif Əlisoy və Əbuzər Əbilov imzalayıb.

Bundan başqa, Azərbaycan vətəndaşı Əmrah Qəribov Türkiyə Genelkurmay Başqanı Hulusi Akara müraciət edib. Ə.Qəribov müraciətində bildirib ki, Türkiyə ordusunda PKK-ya qarşı mübarizə aparmaq istəyir və Türk Silahlı Qüvvələrinə əsgər olaraq qəbul edilməsini arzulayır. Müraciətdə bildirilir: "Mən Azərbaycan vətəndaşıyam. 1994-95-ci illərdə Bakıda türk subayları tərəfindən həyata keçirilən təlimlərdə iştirak etmişəm. Əsgəri hazırlığım yüksək səviyyədədir. Son günlərdəki terror hadisələrinin artmasına və şəhid xəbərlərinin gəlməsinə dözə bilmirəm. Sizdən xahiş edirəm ki, məni orduya çağırın. Qanunlar icazə verməsə də, bir neçə günlüyünə əsgər olmaq istəyirəm. Düşmənlərimiz görsünlər ki, Türkiyə tək deyil. Həm də bütün dünya bunu hiss etməlidir. Azərbaycan xalqı bunu hiss etməlidir. Hər kəs xainləri lənətləyir. Hər evdə bu hadisələr müzakirə olunub. Lütfən, müraciətimi qəbul edin və məni Türk ordusuna çağırın".

**"Yeni Müsavat"a açıqlamasında V.Əlisoy bildirdi ki, sözügedən müraciəti iki gün bundan qabaq hazırlayıblar. Qarabağ qaziləri adından hazırlanan müraciət Türkiyənin son günlərdə uğradığı hücumlara cavab və qardaş ölkəyə dəstək xarakteri daşıyır:** "Bu müraciət sosial şəbəkədə yayılandan sonra Türkiyənin köşə yazarlarından olan Cahid Kılıc mənimlə əlaqə saxladı və bu müraciəti yaymaq üçün icazə istədi. Biz də icazə verdik və müraciət Türkiyədə də yayıldı".

**V.Əlisoy dedi ki, Türkiyə hər zaman Azərbaycana arxa olub. Onun sözlərinə görə, qardaş ölkənin zəifləədilməsi hər bir azərbaycanlının qəlbini sıxır:** "Müraciəti döyüşçülər arasında yaydıq. Qaziləri məlumatlandırdıq ki, belə müraciət hazırlanıb. Müraciət yayılandan sonrakı iki gün ərzində də Qarabağ veteran və əlillərindən bizə çoxsaylı müraciətlər daxil olur. Onlar da bu prosesdə iştirak etmək üçün sıralarımıza qoşulmaq istəyirlər".

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 200 (6228) 10 sentyabr 2015

# Media orqanları seçkidən pul qazana biləcəkmi…



**Ələsgər Süleymanov:** "Faktiki müraciətlər var, amma gözlənilən səviyyədə yox"



**Aynur Camalqızı:** "Bütün potensial namizədlər Yeni Azərbaycan Partiyasının məlum siyahısını gözləməkdədir"

**Parlament seçkilərinə rəsmən start verilib. Bir qədər sonra namizədlərin təbliğat-təşviqat, reklam kampaniyası dönəmləri üçün hazırlıqlar başlayacaq. Dünyanın inkişaf etmiş ölkələrində seçki həm də media üçün çox gəlirli dönəm hesab olunur. Namizədlərin təbliğat materialları, fotoları, müsahibələri.... ödənişli əsaslarla media orqanlarına təqdim olunur, nəticədə mətbuat orqanları xeyli qazanc əldə edir.**

Azərbaycanda isə media orqanları üçün vəziyyət tamamilə fərqlidir. Xüsusən çap mediası 2010-cu ildən etibarən seçkilərdən maddi baxımdan xüsusi gəlir əldə etmir. Namizədlər daha çox üzünü elektron KİV-lərə, xüsusən də telekanallara tutur. Tirajına, oxunma faizinə və oxucular arasında populyarlığına görə seçilən çap mediası isə ölkə miqyasındakı bu mühüm siyasi hadisədən sanki qəsdən uzaqlaşdırılır.

Bununla belə, ümumi vəziyyət maraqlıdır. Saytlar və qəzetlər seçki kampaniyasında pul qazana biləcəklərmi? Qiymət prayzı çıxarılıbmı? İqtidar-müxalifət fərqi qoyulacaqmı? Məsələn, daha öncə bəzi media orqanlarında pulsuz təbliğat materialı yerləşdirən müxalifətçilər üçün indi eyni şanslar qüvvədə olacaqmı?

**"Yen Müsavat" qəzetinin baş direktoru Ələsgər Süleymanov** bildirdi ki, seçki dönəminin girməsinə baxmayaraq, sönüklük hiss olunur. Onun sözlərinə görə, namizədlər gözləmə mövqeyindədir. Müsahibimizin fikrincə, bu, yaxın günlərdə açıqlanacaq YAP siyahısı ilə bağlıdır: "Həmin vaxt artıq hər kəs öz dairəsini müəyyənləşdirəcək. Faktiki müraciətlər var. Amma gözlənilən səviyyədə deyil".

Müsahibimiz bildirdi ki, ötən seçkilərlə müqayisədə reklam şərtlərində və tariflərdə ciddi dəyişiklik yoxdur. Ə.Süleymanov qəzetə, sayta müraciət edən hər bir namizədə qapıların açıq olduğunu bildirdi.

**"Gündəlik Teleqraf" MMC-nin rəhbəri Aynur Camalqızı isə "Yeni Müsavat"a açıqlamasında vəziyyətin ürəkaçan olmadığını bildirdi. Dedi ki, seçki əhval-ruhiyyəsi bizim istədiyimiz və yaxud bizə xeyir verə biləcək səviyyədə deyil:** "Bunun da səbəbləri var. Müxalifət partiyaları seçkini demək olar hazırlıqsız və həvəssiz qarşıladı. Bütün potensial namizədlər Yeni Azərbaycan Partiyasının məlum siyahısını gözləməkdədir ki, özü ilə bağlı konkret qərar verə bilsin. Bu səbəblərdən də medianın parlament seçkiləri ilə bağlı reklam bazarından yüksək gəlir əldə edəcəyini güman eləmirəm. Hələ ki 1-2 nəfəri çıxmaq şərtilə, bizə reklamla bağlı müraciət edilməyib. Ola bilsin, YAP-ın seçki siyahısı açıqlanandan sonra belə müraciətlər çoxalsın".

**A.Camalqızı dedi ki, iqtidar-müxalifət bölgüsü ilə bağlı onların mövqeyi ortadadır. Konkret hədəfləri olduğunu deyən müsahibimiz radikal çıxışları ilə tanınan müxalifətçilərə tribuna verməyəcəklərini vurğuladı:** "Amma normal, konstruktiv müxalifətçilik edən hər kəslə - reklam şərtlərimizi qəbul etdiyi halda - əməkdaşlığımız mümkündür. Mən həmişə bu fikirdə olmuşam ki, müxalifətçilik - düşmənçilik deyil, bir dünyagörüşüdür. Ölkəsinin uğurlarına sevinən və bu uğurlarda az və ya çox dərəcədə qatqısı olan hər hansı bir müxalifətçi ölkəsinə heç bir xeyir verməyən "dekorativ" iqtidaryönlüdən daha lazımlıdır".

A.Camalqızı reklam qiymətlərinin həmişəki kimi olduğunu və dəyişmədiyini də bildirdi. Onun sözlərinə görə, qiymətlər mövcud reklam tariflərinə uyğun tərtib olunub və seçki ilə bağlı heç bir artım nəzərdə tutulmayıb.

❑ **Sevinc TELMANQIZI**

# YAP seçki siyahısını bu gün açıqlayacaq?

## Məlahət İbrahimqızı: "Siyahının açıqlanmasından da vacib işlər var"

**Yeni Azərbaycan Partiyasının 1 noyabr parlament seçkilərində hansı namizədlərlə iştirak edəcəyi hələ də qeyri-müəyyən olaraq qalır. Hakim partiya öz namizədlərini açıqlamadıqca, seçkilərlə bağlı canlanma da müşahidə olunmur, ictimai fəallar, siyasi partiyalar və müstəqil şəxslər YAP-ın son qərarını gözləyir. Cəmiyyətdəki durğunluğun aradan qaldırılmasında açar rolunu oynaya biləcək siyahının isə artıq yekun variantının prezident yanında müzakirə olunduğu və son qərarın verildiyi barədə xəbər almışıq.**

Musavat.com-un əldə etdiyi məlumata görə, sentyabrın 10-da hakim partiya deputatlığa namizədlərinin siyahısını elan edəcək. Siyahıdan çox məhdud çevrənin məlumatlı olduğu bəlli olsa da, bəzi konturlardan görünür ki, YAP budəfəki seçkiyə daha yeni heyətlə qatılacaq. Elə köhnə YAP-çıların etirazlarının mənbəyi də siyahıdakı köklü dəyişikliklərdir. 125 dairədən elan olunan namizədlər sırasında hakimiyyətin vazkeçilməz fiqurları kifayət qədərdir. Lakin hakim partiyanın bəzi ziyalılara və partiya təmsilçilərinə güzəşt etməsi də tam gözlənilməndir.

Xatırladaq ki, YAP-ın icra katibinin müavini Siyavuş Novruzov imzaların təqdim olunması prosedurunun 12 sentyabrda başlanacağını demişdi. Eyni zamanda bildirmişdi ki, YAP-çı namizədlərə imza toplamaq üçün 1 gün kifayətdir, ona görə də tələsmirlər. S.Novruzov digər açıqlamasında isə "sentyabrın 10-da siyahıdan məlumatınız olacaq" demişdi. Artıq vaxt yetişib və cəmiyyəti bundan artıq intizarda saxlamağın yeri yoxdur.



Məlahət İbrahimqızı

**YAP-ın Nəsimi rayon təşkilatının sədri, deputat Məlahət İbrahimqızı musavat.com-a deyib ki, partiya seçki hazırlığını hələ ötən ildən başlayıb və hazırda davam etdirir:** "DeməК olar ki, bütün komanda hazırdır. Artıq bizdə illərin təcrübəsi var. İmza vərəqələri toplayacaq şəxslər, müşahidəçilərimiz dəfələrlə treninqlər keçiblər. Ancaq namizədlər dairələrə müraciət etsələr də, onların imzaları toplayıb imza vərəqələrini təhvil verməsi məsələsi 12-sindən tez mümkün olmayacaq. Ona görə də YAP-ın öz siyahısını tələsik elan etməsinə ehtiyac yoxdur. Hələ vaxta var. Yəqin yaxın vaxtlarda bu barədə qərar veriləcək. Mən dəqiq deyə bilmərəm. Bununla bağlı qərarı partiyanın ali orqanı verir. Partiyamızın sədri, sədr müavinləri və İdarə Heyəti var. Bu gün hələ ayın 9-udur. 12 sentyabra zaman var. Ondan sonrakı müddətdə də namizədlərin irəli sürülməsi mümkündür. Ona görə də YAP tələsmir, özünün hazırlıqlarını davam etdirir. Siyahının açıqlanmasından da vacib işlər var. Yekunda siyahı da açıqlanacaq. Başa düşürük, çoxları siyahını səbirsizliklə gözləyir, amma inşallah, açıqlanacaq, bir az da səbirli olsunlar".

Modern.az isə xəbər verib ki, hakim partiyanın seçki siyahısını açıqlamağı gecikdirməsinin səbəblərindən biri idarəetmədə rəhbər olan şəxslərin, o cümlədən rektorların deputat olmaları ilə bağlıdır. YAP-dan sayta daxil olan məlumata görə, qarşıdakı seçkilərdə dövlət ali təhsil müəssisələrinin rektorları ilə bağlı konkret qərar verilib. Hazırda dövlət universitetlərinin rektorlarından kiminsə adı YAP-ın seçki siyahısında olacaqsa, həmin şəxs rektorluqdan gedəcək. Və əksinə, adı YAP-ın seçki siyahısında olmayan rektor öz vəzifəsində qalacaq.

Qeyd edək ki, IV çağırış Milli Məclisdə təmsil olunan 125 deputat arasında müxtəlif dövlət və özəl ali təhsil ocaqlarının rektorları var: Azərbaycan Dillər Universitetinin rektoru Səməd Seyidov, Memarlıq və İnşaat Universitetinin rektoru Gülçöhrə Məmmədova, Tibb Universitetinin rektoru Əhliman Əmiraslanov, Bakı Dövlət Universitetinin rektoru Abel Məhərrəmov, Azərbaycan Müəllimlər İnstitutunun rektoru Aqiyə Naxçıvanlı, Bədən Tərbiyəsi və İdman Akademiyasının rektoru Ağacan Abiyev, Odlar Yurdu Universitetinin rektoru Əhməd Vəliyev. Eyni zamanda ayrı-ayrı dövlət qurumlarına rəhbərlik edən və hazırda deputat olan vəzifəli şəxslər də iki yoldan birini seçməli olacaqlar: ya deputat mandatı daşıyacaqlar, ya da vəzifədə çalışacaqlar. YAP-dan modern.az-a daxil olan məlumata görə, yalnız Dövlət Neft Şirkətinin (ARDNŞ) prezidenti Rövnəq Abdullayev öz vəzifəsini saxlamaqla yanaşı, həm də deputat kimi fəaliyyətini davam etdirəcək. Məlumata görə, Dillər Universitetinin rektoru Səməd Seyidov və Azərbaycan Müəllimlər İnstitutunun rektoru Aqiyə Naxçıvanlı rektor postundan gedəcəklər. Onların deputat mandatı uğrunda mübarizə aparacaqları bildirilir.

❑ **E.PAŞASOY**

# "Əli Kərimlini iqtidar içərisində gözəgörünməz bir əl qoruyur"

## Parlament seçkilərini qurultaya qurban verən partiya ciddi böhranla üz-üzədir; Razi Nurullayev: "Kərimlini indi yalnız "Azadlıq" qəzeti müdafiə edir"

**Əli Kərimlinin rəhbərlik etdiyi AXCP sentyabrın 27-nə qurultay təyin edib. Son aylarda ciddi böhran yaşayan, yüzlərlə üzvün istefa verdiyi qurumun qurultayının səssiz keçəcəyi inandırıcı görünmür.**

Artıq indidən bəzi iddialar meydana çıxıb. Belə ki, həmin tarixdə hazırkı partiya sədri Ə.Kərimlinin növbəti dəfə namizədliyini irəli sürəcəyi təqdirdə, funksionerlərin bir çoxunun istefa verəcəyi deyilir. Qurultay günü ilə bağlı da ciddi iddialar var. Məhz həmin tarixin Razi Nurullayevin rəhbərlik etdiyi yeni AXCP-nin sentyabrın sonu oktyabrın əvvəllərindəki qurultayını qabaqlamaq məqsədilə təyin olunduğu bildirilir. Bu versiya daha çox inandırıcı görünür. Çünki R.Nurullayev bir ay öncədən bildirib ki, AXCP adına və möhürünə iddialıdır. Bu baxımdan hazırkı AXCP rəhbərliyi qarşıdan gələn təhlükəni qabaqlamaq məqsədilə noyabrın 1-dəki parlament seçkilərini qurban verərək, sədr seçkilərinə gedib.

**Etimad Qurultayı üzrə Təşkilat Komitəsinin sədri Razi Nurullayev də bu qənaətdədir. O hesab edir ki, AXCP parçalanandan sonra Ə.Kərimli tələsik qurultay qərarı verib:** "Onların qurultaylarını bizdən əvvəl və sonra keçirmələrinin heç bir önəmi yoxdur. Tələsmədən, keyfiyyətlə rayon konfranslarını keçirəcəyik. Yəqin ki, sentyabrın sonuna qədər bu işləri başa çatdıracağıq. Ondan sonra qurultayın keçirilməsinə qərar verəcəyik. Bunun Əli Kərimlinin 27 sentyabr qərarı ilə heç bir bağlılığı olmayacaq. Seçkidən öncə Əli Kərimli cəbhəçilərin gözündə legitimlik qazanmaq istəyir. Belə görünür ki, o və ətrafının seçkilərə qatılmaq niyyətləri yoxdur. Yaxşı bilir ki, seçkilərdən sonra sədr qalması ilə bağlı bir söz deməyə sözü olmayacaq. Bu baxımdan seçkidən öncə kreslosunu möhkəmləndirmək istəyir. Özünü beynəlxalq aləmə, iqtidara yaxud da kimlərəsə göstərmək istəyir. Bütün bunların fəaliyyətimizə heç bir əngəli olmayacaq".



Razi Nurullayev

**R.Nurullayev bildirdi ki, Ə.Kərimli sədrliyə namizədliyini verməməlidir:** "Əgər Əli Kərimli növbəti dəfə namizədliyini verib seçilsə, onun və tərəfdarlarının demokratiyadan danışmağa mənəvi haqları olmayacaq. Çünki hər zaman uduzub. Uğursuz siyasətçinin təzədən partiya sədri olması mümkün deyil. Amma onu qeyd edim ki, belə olarsa, bizim əlimizdə bir çox əsaslar olacaq. Bu gün bizimlə olmayan cəbhədaşlarımızı ətrafımıza toplamaq üçün. Bu səbəbdən narahatçılığımız yoxdur. Əli Kərimlinin demokratlıq iddiası artıq hər kəsdə gülüş doğurur. İnanmıram ki, o, itmiş nüfuzunu bərpa etsin. Qurultayda sədr hesabat verir. O, nə deyəcək? Deyəcək ki, sədr olandan partiya çöküb, insanlar istefaya gediblər, ətrafımda azsaylı şəxslər qalıb. Bir də onu bildirəcək ki, uğursuz siyasət apardığıma görə yenidən sədr olmaq istəyirəm, hörmətli cəbhəçilər mənə səs verin".

**R.Nurullayev AXCP-də qurultay və qurultaydan sonra baş verə biləcək istefalara da toxundu:** "Medianın 90%-i bizim tərəfdədir. Əli Kərimlini yalnız "Azadlıq" qəzeti müdafiə edir. Bu onu göstərir ki, o, artıq ictimai rəyə də təsir edə bilmir. Bu baxımdan hesab edirəm ki, cəbhəçilərin gələcək addımlarında bu amil öz rolunu oynayacaq. Burada maraqlı, narahatedici bir tendensiya var. Sanki Əli Kərimlini iqtidar içərisində gözəgörünməz bir əl qoruyur. Onu siyasətdə saxlamaq istəyirlər. Biz bunu belə dəyərləndiririk. Belə çıxır ki, onun müxalifət kimi təqdim olunması iqtidara sərf edir. Çünki onunla daha yaxşı uzlaşa bilirlər. Nəticəsiz siyasətçi ilə öz nəticələrini artıra bilirlər. Bu cür müxalifətlə yol getmək daha asandır. Ən çox bizi narahat edən budur. Siyasətdə qəbul olunmayan qeyri-səmimi Əli Kərimlini artıq cəmiyyət də belə görür".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 200 (6228) 10 sentyabr 2015

**Türkiyə çox çətin dönəmdən keçir. 7 iyun parlament seçkisində xalqdan "get" mesajı alsa da hakimiyyəti əldən vermək istəməyən 13 illik AKP iqtidarı ölkəni son dərəcə gərgin bir nöqtəyə sürükləyib. PKK tarixində ilk dəfə Türkiyə Silahlı Qüvvələrinə genişmiqyaslı savaş açıb. Türkiyə təhlükəsizlik qüvvələri Türkiyənin güney, güney-doğu bölgələrində hər gün əməliyyatlar keçirir. Şəhid, yaralı sayı hər keçən gün çoxalır. Rəqəmlər ürküdücüdür - 2 ayda 100-dən çox əsgər və polis şəhid olub. Ciddi qaynaqlara əli çatanlar deyir, şəhid sayı daha çoxdur, panika yaratmamaq üçün xalqdan gizlədilir.**

# Yanlış PKK siyasətinin acı nəticəsi

## 2 ayda 100-dən çox türk əsgəri və polis şəhid olub





Gərginlik son dönəmlərə qədər sabit olan bölgələrə də sıçrayıb. Ölkənin hər tərəfindən iğtişaş xəbərləri gəlir. Paytaxt Ankara, ölkənin ən böyük şəhəri İstanbul, solçuların şəhəri İzmirdən başlayaraq quzey-doğudakı Trabzona, Orduya, güney-batıdakı Antalyaya, Bodruma qədər hər tərəfdə xalq ayağa qalxıb. Sosial şəbəkələr PKK-ya, HDP-yə, terroru dəstəkləyən kürdlərə etiraz mitinqlərindən fotovideogörüntülərlə dolub-daşır. Türklər artıq ölkədən kənarda da ölkələrinə dəstək mitinqləri keçirməyə başlayıblar.

Kürd xalqı Türkiyənin başına bəla açdığını, ölkəni parçalayaraq özünə dövlət quracağını düşünə bilər. Ancaq əslində durum tam fərqlidir - kürdlər sürətlə çıxmaza gedirlər.

Terrorçu PKK AKP-nin "açılım" siyasəti, "çözüm süreci" ilə dağdan enib Türkiyə Böyük Millət Məclisinin Rəyasət Heyətinə qədər gələ bildi. 7 iyun seçkisində 80 millət vəkili qazanan PKK-nın siyasi qanadı HDP parlamentin ilk yığıncağında lideri Abdulla Öcalanın qardaşı qızı Dilek Öcalanı parlamentin rəyasət heyətində təmsilçisi təyin etdi. Qosqoca Türkiyə dövləti parlamentin tribunasında bu ölkəni parçalamağı vəzifə sayan terror qruplaşmasının təmsilçisi oturdu. Bu acı tablo Türkiyədə də, türk dünyasında da çox danışıldı. Ancaq HDP prosesi kürd xalqının xeyrinə davam etdirə bilmədi. HDP 7 iyun seçkisindən öncə xeyli barış mesajları vermişdi. Partiya liderləri, millət vəkili namizədləri illərdir davam edən qovğanın dayanması üçün çalışacaqlarını deyirdilər. Deyirdilər... Seçkidən sonrakı 2 ayda PKK-nın Türkiyəni qana boyaması siyasətə dağda türk əsgərinə silah tuşlamaqla gələnlərin islah olmasının mümkünsüzlüyünü göstərdi.

1 noyabr seçkisində mənzərə tam dəyişə bilər. AKP-ni "taxtdan salmaq" üçün solçu görüşlü yüz minlərlə insanın 7 iyunda HDP-yə səs verdiyi bəllidir. CHP-nin elektoratı bu dəfə fərqli yolu sınaqdan çıxarmaq istəmişdi. Ölkənin bir çox ünlü söz-sənət adamları da daxil olmaqla, xeyli şəxs HDP-yə səsini borc vermişdi. Türkiyədə buna "ödünc səs" deyirlər. PKK-nın, HDP-nin Türkiyəyə savaş açmasından sonra onların hamısı borcunu geri istəyib. Bu durumda HDP-nin 10 faizlik həddi keçəcəyi ciddi sual altındadır.

Türk ordusu PKK-ya qarşı havadan və qurudan əməliyyatlar keçirir, türklər müxtəlif şəhərlərdə kürdlərə aid nə varsa yaxıb-yandırır, iş yerlərini, təşkilatlarını, HDP ofislərini dağıdır. Türkləri dayandırmaq mümkün olmayacaq. Bıçaq sümüyə dirənib. HDP bunu istəyirdimi? Kürdlərin məqsədi qosqoca Türkiyə dövlətini özünə qarşı qaldırmaq, sayı sayından dəfələrlə çox olan xalqı özünə düşmən etmək idimi?

Durum 1988-90-cı illərdə Azərbaycandakı erməni-türk gərilmələrini yada salır. Hələ onda Qarabağ uğrunda savaş başlamamışdı, ermənilər Bakı, Sumqayıt, Gəncə, Naxçıvan kimi iri şəhərlərdə yaşayırdılar, işləyirdilər. Rusiyanın qızışdırması ilə Ermənistandakı tarixi torpaqlarımızda, Qarabağda, sərhəd bölgələrdə yerləşən türk kəndlərinə hücumlar genişlənən kimi Azərbaycanda yaşayan ermənilərin qara günü başladı. Xalq torpağını parçalamağa qalxan milləti məhəllələsindən, şəhərindən, ölkəsindən qovdu, erməni köçü başladı.

O günlərlə bağlı ziddiyyətli faktlar səslənir. Ancaq uzaq tarix olmadığı üçün şahidlər çoxdur. Hər birimiz gözümüzü açıb erməni qonşumuzun gecə ilə evindən köç etdiyini, şəhərdən qaçdığını, Ermənistandan qovulan türklərin ermənilərin boş qalmış evlərinə yerləşdiyini görmədikmi? Hər gün şəhid, yaralı, didərgin qarşılayan xalq bunu edən milləti öpüb gözünün üstünə qoymayacaqdı... Münaqişənin uzun sürəcəyini anlayan nə qədər erməni Bakıdan, Gəncədən, Sumqayıtdan Rusiyanın əyalətlərinə səpələndi. Doğmalarının yanına sığınmaq üçün Qarabağın, Ermənistanın yolunu tutan nə qədər erməni hərbi əməliyyatlar zamanı öldü, savaşın bütün acılarını yaşadı və yaşamaqdadır. Bu gün dünya üzünə səpələnən nə qədər erməni Bakının mərkəzində kef içərisində yaşadığı sakit günlərin özləmini çəkir. Yaşadığı dövlətə qarşı savaş açmaq, millətinə düşmənçilik etmək hansı xalqa rifah, yüksəliş, xoşbəxtlik gətirib ki?

Kürdlər də itirir. Özü də çox sürətlə. Türkiyəni tanıyanlar bilir. AKP hakimiyyətə gələndən sonra ölkənin orta və kiçik biznesini kürdlərə sözün əsl mənasında təslim etmişdi. Hansı şəhərə getsən, xidmət sektorunda kürdləri görürdün. Hətta solçuların alınmaz qalası kimi tanınan İzmirin mərkəzində belə bütün kafe-restoranlar, taksi şirkətləri, ticarət obyektləri kürdlərin əlində idi. Dünyanın ən qaynar turizm bölgələrindən olan Ağ dəniz, Egey dənizi sahillərindəki yüzlərlə turizm obyektlərini kürdlər çalışdırırdı. Hələ İstanbul. AKP-nin İstanbula vurduğu yara yəqin uzun illər sağalmaz - şəhər tarixin heç bir dönəmində bu qədər kürdləşdirilməmişdi.

Ən son günlərə qədər nəhəng bir dövlətin paraları illərdir gizlin-aşkar PKK-nı dəstəkləyən kürdlərə axırdı. Ancaq indi tam tərsi yaşanacaq. Qapısına PKK-nın şəhid etdiyi övladı, qardaşı, qohumu, qonşusu gələn türk kürdlərlə eyni ortamda yaşamaq istəməyəcək. Qurunun oduna yaş da yanacaq, türklər Türkiyənin hər bölgəsini kürdlərə dar edəcək. Başqa cür mümkün deyil. Biz bu tarixi yaşamışıq, Türkiyə də yaşayacaq.

Türkiyəni vətəndaş müharibəsinə sürükləmək planları çoxdan var və həmin qüvvələrin PKK-nı ciddi şəkildə dəstəklədiyi sirr deyil. Çətin olacaq. Gərginlik olacaq. Hətta ən pis variantı düşünək - Türkiyə bölünəcək. Ancaq kürdlər heç zaman dövlət quraraq sabitlik və rifah içərisində yaşaya bilməyəcək. Onlar uzağı Azərbaycanda ermənilərin "qazandığı" kimi sabitliyi daim təhlükə altında olan, inkişafı mümkünsüz bir bölgəni əldə edə biləcək. Böyük bir ölkəni, dövləti itirmək bahasına. Dəyərdimi?

❑ **Aygün MURADXANLI**

# İqdırda yaşayan azərbaycanlıların vəziyyəti çətinləşib



## **Fazil Mustafa:** "Azərbaycan da bu istiqamətdə Türkiyəyə dəstək verməlidir"

**Türkiyədə fəallaşan PKK terrorçuları son 3-4 gün ərzində 40-a yaxın polis və əsgəri şəhid edib. PKK terrorçuları Azərbaycan sərhədlərinə də yaxınlaşıb. Sentyabrın 8-də PKK-nın İqdırla Naxçıvan Muxtar Respublikası arasındakı Dilucu sərhəd məntəqəsi yaxınlığında törətdiyi hücum nəticəsində 13 türk polisi şəhid olub.**

Türkiyə mətbuatı terrorçuların Ermənistan ərazisindən İqdıra keçməsi haqda məlumat yayıblar. Türkiyədə baş verən hadisələr Azərbaycan gündəmində də ciddi şəkildə müzakirə olunur. Son hadisələrin isə Azərbaycan sərhədlərində baş verməsi PKK terror təşkilatının ölkəmiz üçün də təhlükə ola bilməsi məsələsini gündəmə gətirir.

Milli Məclisin **deputatı Fazil Mustafa** PKK-nın Türkiyə ilə yanaşı, Naxçıvan üçün də ciddi təhlükə olduğunu bildirir. O, PKK-nın hər iki ölkə üçün təhlükə olduğunu deyən deputat hökumətin bu istiqamətdə müəyyən addımlar atmasının vacib olduğunu deyir.

**F.Mustafa musavat.com-a açıqlamasında İqdırda PKK-nın fəallaşmasının son zamanlar bələdiyyə başqanlığına gətirilən şəxsin və millət vəkillərinin kürd olması ilə əlaqəli olduğunu dedi:** "İqdır Türkiyənin Azərbaycanla sərhəddə yerləşən bölgəsidir. Bu gün İqdırın sosial-iqtisadi inkişafı daha çox Azərbaycanla bağlıdır. Azərbaycanla sərhəd açılandan sonra Iqdır inkişaf etmiş illərdən, bölgələrdən birinə çevrildi. Dünən Naxçıvan-Iüdır yolu bağlanmışdı. Bu da ən azından iqtisadi münasibətlərə ciddi təsir edir. İüdırda Nurəddin Arasın və başqalarının vaxtında bələdiyyə başqanı azərbaycanlı idi. Millət vəkillərindən də ən azı ikisi azərbaycanlı olurdu. Son dövrlərdə bələdiyyə başqanı da, millət vəkilləri də PKK terrorçularının dəstəklədiyi kürdlər olur. Ola bilsin ki, bu bölgədə MHP və AKP-nin gücü böyükdür. Lakin namizəd seçimində müəyyən uğursuzluq da söhbət mövzusu ola bilər. Biz ən azından təklif etdik ki, orada azərbaycanlıların koordinasiya olunması vacibdir. Hətta biz də müəyyən dərəcədə azərbaycanlıların koordinasiya edilməsində kömək göstərməliyik. Azərbaycanlıların yaşadığı bölgəni təmsil edən AKP, MHP və CHP-dən bir millət vəkili ola bilər. Bunu da dövlət səviyyəsində uzlaşdırmaq olar. Partiyalar Iqdırda və strateji bölgələrdə bir-birilərinə güzəştə getməlidirlər. Azərbaycan da bu istiqamətdə Türkiyəyə dəstək verməlidir. Ötən parlamentdə təmsil olunan Sinan Oğan dəfələrlə Azərbaycanın problemini də səsləndirirdi. Onun Xocalı və digər məsələlərlə bağlı təklifləri ortaya qoyulurdu".

F.Mustafanın sözlərinə görə, Azərbaycanın maraqlarını təmsil edən millət vəkilinin olmaması Türkiyə ictimai rəyində Azərbaycan üçün narazılıq yaradan vəziyyətdən xəbər verir.

**Deputat son zamanlarda İqdırda yaşayan azərbaycanlıların vəziyyətinin çətinləşdiyini də qeyd etdi:** "Terror təşkilatının fəaliyyəti daha da genişlənməkdədir. Bələdiyyə strukturları əlindədir. Başqa qurumlar vasitəsilə də istədiklərini edirlər. Millət vəkillərinin PKK-ya tabe olması Naxçıvanla sərhəddə ciddi problemlər yaradacaq. Əhalinin gediş-gəlişi çətin olacaq. Bu, həmçinin erməni planının tərkib hissəsidir. Çünki bizim Türkiyə ilə bir ümid qapımız var. Ermənilər bu qapını özləri bağlamaq iqtidarında deyillər. Bunu PKK vasitəsilə etməyə çalışırlar. PKK həm də Ermənistandan idarə olunur.

Biz də İqdırda azərbaycanlı deputatın və ya digər partiyalardan olan şəxslərin seçilməsində maraqlı olmalıyıq. Türkiyəyə dəstək olmalıyıq. Bu, Türkiyənin daxili işlərinə qarışmaq deyil, ona yardım etməkdir. Çünki İqdır sərhəd bölgəsidir. Biz öz təhlükəsizliyimiz üçün də bunu etməliyik".

❑ **İlkin MURADOV**

**Ölkədə ilin əvvəlində baş verən devalvasiyanın və neftin ucuzlaşmasının fonunda ölkə iqtisadiyyatı ilə bağlı təkliflər verilməkdədir. Bunlardan biri kimi ölkənin borclanması şərti irəli sürülür. Bugünlərdə keçmiş maliyyə naziri Saleh Məmmədov bununla bağlı fikrini bildirib və deyib ki, hökumətin bütün resursları, o cümlədən ekstra valyuta ehtiyatları (BVF-nin normativlərinə görə bizə 3 milyard dollar valyuta rezervləri lazımdır, bizdə isə 45-50 milyard dollardır) məqsədli təyinatı müəyyən edilməklə, böyük və etibarlı Azərbaycan banklarında yerləşdiriləcək xəzinənin nəzarəti altında investisiyaların maliyyələşdirilməsinə yönəldilməlidir:**

# Dövlətin borclanması yaxşı haldırmı?

## Ekspertlərin fikirləri fərqlidir, əksəriyyət bunun sonda Neft Fondunun aktivlərinin, dövlətin əmlakının itirilməsinə gətirib çıxaracağını bildirir...

“Borclanma prosesinə dərhal başlamaq olar və böyük miqdarda vəsait cəlb etməklə, dünyanın inkişaf etmiş ölkələri səviyyəsinə çatmaq olar. Azərbaycana xarici kapital axınını daha da gücləndirmək olar”.

Ekspertlərin hökumətin borclanması barədə təklifləri fərqlidir.

**Ekspert Qubad İbadoğlu** məsələ ilə bağlı musavat.com-a bildirib ki, borclanma yaxşı hal deyil: “Ümumiyyətlə, başqasının pulu ilə nə dövlət, nə şirkət və nə də ailə səviyyəsində xoşbəxt olmaq mümkün deyil. Onsuz da xaricə borcumuz az deyil, 01 yanvar 2015-ci il tarixinə Azərbaycan Respublikasının birbaşa xarici dövlət borcu 6,5 milyard dollar, bankların borcları 6,2 milyard dollar, ARDNŞ də daxil olmaqla, iri dövlət şirkətlərinin, "Azərenerji", AZAL və digərlərinin borcları 8,5 milyard dollardır. Deməli, bütövlükdə xarici borclarımız 25 milyard dollara yaxınlaşır. Hələ bura banklar istisna olmaqla özəl bölmənin borcları daxil deyil. Dünyanın borclanmaya görə ilk onluğa daxil olan dövlətlərindən yalnız Yaponiya inkişaf etmiş dövlətləri təmsil edir. Digərlərinin aqibətini görürük, Yunanıstan, Livan, Camayka, hətta Portuqaliya, İtaliya və İrlandıya kimi ölkələr bu problemdən ciddi əziyyət çəkir. Yaponiya istehsalı və ixracatı Azərbaycanda da olsa, onda borclanmaya getmək olardı. İndiki halda neft gəlirlərinin azaldığı, əlavə maliyyə qaynaqlarının tükəndiyi, ölkənin investisiya reytinqinin pisləşdiyi, dövlətin cari xərclərinin artdığı şəraitdə borclanmaya getməyin əleyhinəyəm. Çünki aldığımız borclar da daha çox istehlaka yönələcək və onun qaytarılması məsuliyyəti gənc və gələcək nəsillərin üzərinə düşəcək. Borc almaq asandır, onu idarə eləmək isə çox çətindir. Azərbaycana Asiyanın və Ərəbistanın fondları məmnuniyyətlə borc xətti aça bilər. Amma bu, sonda Neft Fondunun aktivlərinin, dövlətin əmlakının itirilməsinə gətirib çıxara bilər. Ölkəyə 100 milyard dollarlıq borc almaq avantüradan başqa bir şey deyil. Ona görə də dövlət borclanmaya deyil, xarici investisiyaların, innovasiyaların təvfiqinə üstünlük verməlidir ki, Azərbaycan iqtisadiyyatını modernləşdirə və ölkəyə valyuta gətirə biləcək əlavə maliyyə qaynaqları yarada bilsin”.



**Ekspert Vüqar Bayramov isə qeyd edib ki, Azərbaycanda xarici borcun ÜDM-də payı az olduğu üçün ölkənin borclanma imkanları genişdir:** “Belə ki, hazırda xarici borcumuzun ÜDM-də payı cəmi 12 faizdir ki, bu baxımdan da Azərbaycan nəinki MDB-də, hətta Mərkəzi və Şərqi Avropada ən yaxşı göstəriciyə malikdir. Ona görə düşünürəm ki, indiki məqamda Azərbaycanın borclanma imkanları var və xarici borclanma ölkə üçün problem yaratmayacaq”.

**Ekspert Natiq Cəfərli isə deyib ki, vəziyyətdən çıxmaq üçün borclanmaya gedilməsini də doğru saymır:** “Belə fikirlərin səsləndirilməsi çox təəccüb doğurur. Azərbaycanda manata yaranan basqının əsas səbəbi iqtisadiyyatın çoxşaxəli modelə keçə bilməməsidir. Hökumət bunu edə bilmədi. Səbəb Azərbaycanın ixracatında olan problemlərdir. İxracatın 95 faizini enerjidaşıyıcıları təşkil edir. Bu, manata basqı yaradır, bunu maliyyə naziri də dəfələrlə deyib, Mərkəzi Bankın rəhbərliyi də. Bugünkü dünyada gedən situasiya onu göstərir ki, Azərbaycan manatına ciddi basqı var. Yəni bunun üçün makroiqtisadi göstəricilərə baxmaq kifayətdir. İkinci məsələ ölkənin bu gün düşdüyü vəziyyətdən borclanma yolu ilə çıxması təklifidir. Əslində Azərbaycanın gələcəyi üçün çox ciddi təhdid təşkil edir. Yəni Azərbaycanda böyük neft pulları dövründə ölkəmizə investisiya şəklində daxil olan milyardlar necə qeyri-effektiv istifadə olundusa, çox böyük fundamental effekt vermədisə, borclanmalar da heç bir effekt verməyə bilər. Çünki sistemli problemlər həll olunmalıdır. Digər məsələ isə ondan ibarətdir ki, Azərbaycanın külli miqdarda borclanması o demək deyil ki, sonradan həmin borcları siləcəklər və yaxud bağışlayacaqlar. Bizdən sonrakı nəsillər çox böyük əmək, güc sərf edərək o borcları qaytarmalıdır. Azərbaycanda elə bir potensial varmı ki, milyardlarla dollarla bu gün biz borclanaq? Bugünkü problemlərin həllini bizim gələcək nəsillərin üzərinə ataq? Belə bir ixtiyarımız yoxdur ki, ölkədəki problemlərin həllini borclanma yolu ilə həll edək, borclanaq və gələcək nəsillərin üzərinə ciddi problem yükləyək. Yəni bu, məsuliyyətsizlikdir və orta nəslin nümayəndəsi olaraq mənim üçün qəbul olunmaz bir yoldur ki, biz borclanaq, bugünkü problemlərdən çıxaq. Amma bizim övladlarımız, gələcək nəsillərimiz sonradan o borcları qaytarmaq üçün çoxlu əziyyət çəksinlər. Yəni bu məsələdə razı deyiləm”.

❑ **Röya RƏFİYEVA**

# “Azərbaycanın bank sektoru 40 faizlik devalvasiyaya tab gətirə bilər”

## Yerli ekspertlər bildirirlər ki, bu baş verərsə, maliyyə sektorunun dayanıqlığı pozulacaq...

**Azərbaycan iqtisadiyyatının növbəti devalvasiyaya tab gətirəcəyi barədə proqnozlar yayılıb. “Fitch Ratings” beynəlxalq reytinq agentliyi Azərbaycan bank sektorunun milli valyutanın əlavə 40 faizlik devalvasiyaya tab gətirə biləcəyi kapitala sahib olduğunu bəyan edib. Xəbərə görə, “Fitch”in analitikləri qeyd edirlər ki, Azərbaycan bank sistemi neftin ucuzlaşması və devalvasiyanın təsiri amillərinin təzyiqi altındadır. Bu risklər nəticəsində banklar zərərlərin örtülməsi üçün məhdud maliyyə vəsaitlərinə malikdir. Agentlik hesab edir ki, neft ixracına əsaslanan Azərbaycan iqtisadiyyatında bu il 1,5 faizlik artım gözlənilir. Buna səbəb isə ölkənin bank sistemindəki aktivlərin keyfiyyətinin aşağı düşməsidir.**



Pozitiv məqam kimi isə “Fitch” Azərbaycan tədiyyə balansının güclü olmasının hökumətə bank sisteminə likvidlik və kapital dəstəyi vermək imkanını göstərib. Yerli ekspertlərin bu xəbərə münasibəti fərqlidir.

**Ekspert Samir Əliyev** məsələ ilə bağlı musavat.com-a bildirib ki, Azərbaycanda 40 faizlik devalvasiya arzuolunmaz nəticələrə gətirib çıxara bilər: “Bunu dəfələrlə demişik. Ölkə iqtisadiyyatı hələ də fevral devalvasiyasının təsirlərinə adaptasiya olunub qurtarmayıb. Bank sektoru ağır durumdadır. Kapital qoyuluşu zəifləyib, əmanət cəlbi azalıb, problemli kreditlər artıb, kapitala dair Mərkəzi Bankın normativləri pozulub. Bank sektoru hazırda ixtisarlara hazırlaşır. İki bank bağlanıb, bir neçəsi namizəddir. Bank olmayan kredit təşkilatlarının fəaliyyəti sanki iflic olub. Bütün bunlar birinci devalvasiyanın fəsadlarıdır və bu, hələ bir müddət davam edəcək. Belə vəziyyətdə ikinci devalvasiyanın baş verməsi maliyyə sektorunun dayanıqlığını poza bilər. Düşünürəm ki, hökumət də bütün bu təhlükələri görür və buna görə də manatı dəstəkləmək siyasəti yürüdür. ”Fitch" reytinq agentliyinin açıqlaması isə mətbuatda qeyri-dəqiq şəkildə təqdim edilib. Çünki söhbət ümumilikdə bank sisteminin yox, “Fitch”in reytinq verdiyi bankların devalvasiyaya dözümündən gedir. Hazırda agentlikdən reytinq alan bankların sayı təxminən 10-dur. Bu banklar ölkədə kifayət qədər güclü banklardır və bazar payı 60-70 faiz təşkil edir. Eyni zamanda agentlik heç də bütün 10 bank haqqında bunu demir. Təsadüfi deyil ki, reytinq alan bəzi banklar hələ də devalvasiyanın zərərlərindən qurtula bilməyiblər. Onlar arasında hətta filialları bağlanan banklar da var, taleyi Mərkəzi Bankın qərarından asılı olan bank da. Ən böyük problemi olan Beynəlxalq Bank isə dövlət tərəfindən sağlamlaşdırılır. Fərz edək ki, bankların 25-30 faizini təşkil edən bu banklar 40 faizlik devalvasiyaya tab gətirdi. Bəs yerdə qalan 70-75 faiz bankın taleyi necə olacaq? Onların sayı 30-dan çoxdur. Azərbaycanda 10 bankın bağlanmasının sektora və ümumilikdə iqtisadiyyata zərərini təsəvvür edirsinizmi? Bank sektorunda mövcud olan narahatçılığı “Fitch” də vurğulayır. Agentlik vurğulayır ki, bankların kapitalı ortamüddətli dövrdə təzyiq altında qalacaq. Səbəb kapital qoyuluşunun zəifləməsi olacaq. Agentlik hesab edir ki, aktivlərin keyfiyyəti getdikcə pisləşməkdə davam edəcək. Agentlik valyuta mövqeyi ilə bağlı problemi qabardır və bu göstəricinin hazırda kapitalın 30 faizi həddində olduğunu qeyd edir. Məlumat üçün bildirim ki, bu norma əvvəl 10 faiz olsa da Mərkəzi Bank devalvasiyadan sonra 2016-cı ilə kimi normanı dondurmuşdu. Hər bir halda ölkə iqtisadiyyatının həcmi kiçildikcə bankların qazancı da azalacaq. Bu isə bankların sayının azalmasını şərtləndirəcək".

**Ekspert Əkrəm Həsənov isə qeyd edib ki, bütövlükdə bank sistemi yəqin ki, 40 faiz, bəlkə də 60 faizlik devalvasiyaya tab gətirə bilər:** “Amma bu, heç də o demək deyil ki, hər bir bank tab gətirə bilər. Ən azı bankların yarısı buna tab gətirməz yəqin ki. Yəni nəticədə güclü banklar üzdə qalacaq. Bank sisteminin tab gətirməsi də məhz bu deməkdir. Yəni bank sistemi yaşayacaq. Lakin hansı vəziyyətdə yaşayacağı başqa məsələdir. Təbii ki, bu, artıq indi gördüyümüz bank sistemi olmayacaq. Müştəriləri, əməliyyatları və gəlirləri azalacaq. Digər tərəfdən, unutmayaq ki, beynəlxalq reytinq agentliklərin proqnozlarının bizim bank sisteminin rəsmi rəqəmləri üzərində qurur. Bu isə ehtiyatlı olmağı tələb edir. Bizim Mərkəzi Bank rəsmi statistikanı 2 aydan çoxdur gizlədir. Bankların əksəriyyəti maliyyə göstəricilərini açıqlamır. Belə vəziyyətdə proqnoz vermək ümumən çətindir”.

❑ **Röya RƏFİYEVA**

YENİ MÜSAVAT
N 200 (6228) 10 sentyabr 2015

**Prezident İlham Əliyevin iqtisadi məsələlərə və 2016-cı ilin dövlət büdcəsinin hazırlığı işlərinə həsr edilmiş müşavirədəki çıxışı islahatlar anonsu kimi dəyərləndirilir. Hesab olunur ki, çox yaxın dönəmdə ölkədə idarəçilik sahəsində ciddi yeniliklər baş verəcək və dövlət qurumlarının səlahiyyətlərinin "ASAN xidmət"ə keçidi sahəsində yeniliklərin şahidi olacağıq.**

# Prezidentdən yeni hökumət anonsu-kimlər yola salınır...

**Zahid Oruc:** "Məmurlarla yeni formatda müzakirə prezidentin parlament seçkilərindən sonra həyata keçirəcəyi daha böyük struktur dəyişikliklərinin anonsu kimi qəbul olundu"

**Qadir İbrahimli:** "Pul xərcləyən hökuməti pul qazanan hökumət əvəzləməlidir"



Xüsusilə də prezidentin MİS-dəki özbaşınalıqlardan danışması, nəqliyyat sektorundan bəhs edərkən "nə qədər qanunsuz tələblər irəli sürülür, nə qədər insanları incidirlər" deməsi, ardınca "gələcəkdə də hər sahədə "ASAN xidmət"in standartları olmalıdır" söyləməsi böyük ümidlər yaradıb.

**İqtisadi Tədqiqatlar Mərkəzinin rəhbəri Qubad İbadoğlu "Yeni Müsavat"a bildirdi ki, əslində 8 sentyabr toplantısı prezidentin iqtisadi siyasətə məsul olan rəhbər şəxslərlə görüşü idi:** "Bu görüşü heç də 2016-cı ilin dövlət büdcəsinin hazırlığı işlərinə həsr edilmiş müşavirə kimi təqdim etmək düzgün deyil. Əvvəla, görüş kiçik bir qrupun iştirakı ilə keçirilirdi. Doğrusu, bu formatda görüşün son dəfə nə zaman olduğunu xatırlamıram. İkincisi, görüşdə 2016-cı ilin büdcəsinin konturları yenə də açıqlanmadı. Bu isə o deməkdir ki, büdcə hələ də müzakirəyə hazır deyil. Amma görüşdə səslənən bəzi mesajları önəmli hesab etmək olar. Xüsusilə də növbəti ilin büdcəsində sosial xərclərin, sosial infrastruktur layihələrinin ixtisar olunmayacağı və lazımsız xərclərə yol verilməyəcəyi barədə deyilənlər nəzərə alınarsa, gələn il üçün bəzi problemlərdən qaçmaq mümkün ğı da verdi. Bu istiqamətdə nəqliyyat və mənzil-kommunal sahəsində dövlət siyasətini həyata keçirən sahə orqanlarının xüsusi qeyd olunması idarəetmə xərclərində ixtisarların yerini də bəlli elədi".

İqtisadçı alim bu müzakirələrdə razılaşmadığı məqamların da çox olduğunu vurğuladı: "İlk növbədə "dünyada dərin iqtisadi və maliyyə böhranı var" fikri ilə razılaşmıram. Çünki belə bir böhran yalnız iqtisadiyyatı neftdən asılı olan - Norveç istisna olmaqla - ölkələrdə müşahidə olunur. ABŞ-da iqtisadi artım, işsizlik səviyyəsi və inflyasiya ilə bağlı göstəricilər əvvəlki illərlə müqayisədə daha pozitivdir. Avropa İttifaqı ölkələrinin böyük əksəriyyətində durğunluqdan sonra canlanma müşahidə olunmaqdadır. Bu isə artıq dünya iqtisadiyyatının yarısından çoxu deməkdir. Hesab edirəm ki, dünya iqtisadiyyatının 15 faizinə malik olan Çində də böhrandan danışmaq tezdir. Ona görə də Azərbaycandakı vəziyyəti dünya böhranı ilə əlaqələndirmək düzgün deyil. İkincisi, Azərbaycanın hazırkı makroiqtisadi durumu o qədər də yaxşı deyil ki, ölkəmizin bugünkü vəziyyətini tərifləyək. Bu ilin 6 ayının yekunları üzrə xarici ticarət və büdcə saldosu gerçək vəziyyəti əks etdirməklə heç də yaxşı perspektiv təqdim et- **idarəetmə sahəsində islahatlar olmadan yaşamaq mümkün deyil, ona görə də islahatları real sayır:** "Həm komandaya etimadsızlıq, həm də böyük məbləğli dövlət xərclərinin optimallaşdırılması zərurəti komandanın yeniləşməsi, oliqarxların texnokratlarla, menecerlərlə əvəzlənməsi zərurətini yaradır. İndiki komandanın əsas prioriteti neft pullarını xərcləmək idisə, yeniləşmiş komandanın mandatı dövlətin maliyyə-iqtisadi resurslarından maksimum səmərəli istifadə etmək və büdcəni doldurmaqdan ibarət olmalıdır. Obrazlı desək, pul xərcləyən hökuməti pul qazanan hökumət əvəzləməlidir". **İqtisadçı ekspert islahatlarla bağlı xeyli vaxtdır dolaşan məlumatları da xatırlatdı:** "Bu yaxınlarda prezidentin kursunun qatı müdafiəçisi kimi tanınan deputat Zahid Oruc da seçkidən sonra 6-8 nazirlik və dövlət komitəsinin birləşdirilərək yenidən təşkil olunacağının anonsunu verib. Xərclərin optimallaşdırılması, paralel strukturların ləğv edilməsi, idarəetmənin sadələşdirməsi hazırda hökumətin əsas prioritetlərindən biridir. Neft dövrünün nəhəng idarəetmə aparatı artıq ölkənin inkişafında problemə çevrilib. Postneft dövründə sadələşmiş, ancaq çevik, qlobal və yerli tendensiyalara adekvat olar". **Q.İbadoğlu hesab edir ki, bəzi nazirliklərin funksiyalarının da «ASAN»a verilməsi təqdir olunmalıdır:** "Amma bu halda da haqlı suallar çıxır, əgər bir çox funksiyaları və xidmətləri «ASAN» yerinə yetirəcəksə, onda həmin nazirliklər nəyə lazımdır? Düşünürəm ki, prezident "idarəetmə sahəsində islahatlar dərinləşməlidir" deməklə həm də iqtisadi orqanlara növbəti ilin büdcəsində idarəetmə xərclərini rasionallaşdırmaq tapşırımir. Odur ki, ilk növbədə vəziyyəti düzgün dəyərləndirməliyik ki, problemləri görə bilək və onun həlli yollarını tapaq. Çünki sonradan daha da böyüyən problemlərin gətirdiyi iqtisadi böhranın dəf edilməsi çətin ola və bu gün "təhlükəsizlik yastığı" hesab etdiyimiz valyuta ehtiyatları sabah əriyib tükənə bilər".

**"Güzəran" Sosial Araşdırmalar İctimai Birliyinin rəhbəri Qadir İbrahimli bildirdi ki, postneft dövrünü iqtisadi və** cavab verən hökumətə ehtiyac var".

**Deputat Zahid Oruc isə "Yeni Müsavat"a açıqlamasında qeyd etdi ki, ölkə başçısının keçirdiyi son müşavirədə hökumət fərqli bir formatda iştirak edirdi:** "Ənənəvi olaraq, belə tədbirlərdə Nazirlər Kabinetini tam tərkibdə görməyə öyrənmiş hər kəs üçün bu yenilik təkcə müzakirə olunan məsələlərin xarakteri ilə əlaqələndirilmədi, eyni zamanda prezidentin parlament seçkilərindən sonra həyata keçirəcəyi daha böyük struktur dəyişikliklərinin anonsu kimi qəbul olundu". **Z.Oruc onu da vurğuladı ki, bu haqda dəqiq bir fikir söyləmək çətindir. Lakin onun sözlərinə görə, hökumətin çevik bir struktur kimi fəaliyyət göstərməsi ideyasının qabardılması, həmçinin «ASAN xidmət» standartlarının hər bir nazirliyə gətirilməsi çağırışı göstərir ki, qarşıda bizi köklü keyfiyyət dəyişiklikləri gözləyir:** "Hətta dünyadakı qanlı savaşlardan danışarkən də İlham Əliyev daxildə hər hansı milli problemin üstündən sükutla keçmək, yaxud ölkəmizdə inqilabi ssenarilərə böyük investisiya qoyanlara görə islahatlardan imtina etmək mövqeyi tutulmadı. Əksinə, vətəndaşların incidilməsinin yolverilməzliyinin dilə gətirilməsi, ucuz neft erasında şəffaf və qənaətli rejimdə çalışılması, büdcə gəlirlərinin azalmasının sosial proqramların dayandırılmasına səbəb olmayacağı və sair məsələlər istənilən ictimai zəlzələlərin qarşısının alınmasında mühüm bir yol kimi ortaya qoyuldu. Ona görə də parlament seçkiləri qarşısında hökumətdə xüsusi silkələnmələrə getmədən daha fərqli bir kursun seçildiyini görə bilərik. Xalqın etibarını tam itirmiş hər hansı komanda üzvünə qarşı sərt cəza sanksiyalarını tətbiq etmək, yaxud onları istefaya göndərməkdənsə, struktur dəyişiklikləri və yeni tələblər əsasında işləməyin standartlarını müəyyənləşdirmək daha effektlidir. Bir də nəzərə alın ki, İlham Əliyev müasir Azərbaycan tarixində ilk dəfədir ki, seçkilərin xarici müdaxilələrin neytrallaşdırıldığı şəraitdə keçiriləcəyini yaxşı bilir, bunu çox böyük ustalıqla təmin edib və hər hansı kəskin qərarla daxildə böyük siyasi cəbhələrin, mərkəzdənqaçma tendensiyalarının getməsinə yol verməyəcək. Onun liderlik qabiliyyəti də bundadır. Unutmayın ki, hakimiyyətin siyasi rəqibləri maddi olaraq tam iflasa uğrayıblar və onlar yalnız "vurulmuş məmur"ların kriminal pulları ilə dirçələ bilərlər. Çünki xalq müxalifətin siyasi hakimiyyət planına investisiya qoymur. Ona görə dövlət başçısı zaman seçimini hamıdan yaxşı bilir".

**E.PAŞASOY**

# İndi Rusiyanı tanıdınızmı?



**Hüseynbala SƏLİMOV**

**Bəli, biz Rusiyanın xarici işlər naziri S.Lavrovun qəfil səfərini saf-çürük etməkdə ikən bu ölkədən təzə xəbər gəldi. Məlum oldu ki, Rusiya Ermənistana 200 milyon dollarlıq kredit verib. Və deyilənlərə görə, erməni tərəfi bu məbləğdən müdafiə məqsədi ilə istifadə edəcək...**

Əslində Ermənistan prezidentinin Rusiyaya bu günlərdəki səfəri bizim də diqqətimizdə idi. Səfərin böyük bir hissəsi Rusiyanı bir məsələdə razı salmağa yönəlmişdi. Məsələ bundadır ki, Avropa Birliyi Ermənistanla assosiasiya sazişindən fərqli bir saziş bağlamağa, bu ölkənin "spesifika"sını nəzərə almağa çalışır. S.Sarkisyan da bu məqsədlə Rusiyaya səfər etmişdi ki, bu ölkə ona belə bir sazişi imzalamağa imkan versin...

Doğrusu, bilmirik, Rusiyanın buna reaksiyası necə olub? Ruslar özləri də, məsələn, viza ilə bağlı sazişlər kimi razılaşmaların olmasının əleyhinə deyildi.

Amma bu, bir qədər əvvəl olmuşdu. İndi Rusiyanın Avropa ilə münasibətləri elə bir səviyyədədir ki, düşünmürük onlar izafi ürək genişliyi nümayiş etdirmək fikrinə düşsünlər. Həm də bu, Avrasiya İttifaqının elan edilməsindən bir az əvvəl olmuşdu. İndi isə ortalıqda Rusiyanın öz layihəsi - Avrasiya İttifaqı var. Ona görə də Ermənistan da çalışıb bu layihə çərçivəsində özünün "gələcəy"ini qurmalıdır...

Qərəz, vəziyyət belədir. Yazılanlara görə həmin görüşdə Qarabağ məsələsinə də toxunulmuşdu. S.Sərkisyan orada atəşkəsin pozulması ilə bağlı da ağlamağı və Rusiyadan silah-sursat dilənməyi unutmamışdı. Budur, Rusiya da onu ovundurmağa çalışdı - 200 milyon dollar verdilər ki, erməni tüfəngləri boş qalmasın və həmin gülləri hələ də Rusiyanın Qarabağı qaytaracağına ümid edən azərbaycanlıların başına yağdırsın...

Nə başınızı ağrıdım, S.Sərkisyanın səfəri ilə bağlı bildiklərim bu qədərdir. Gəl, mən hələ də yəqinləşdirə bilmirəm ki, Rusiya ilə bağlı ümidlər haradan qaynaqlanır?..

Bəli, Azərbaycan Rusiyanın diplomatik tabularını pozmur-budur, Gürcüstanın ardınca NATO Kiyevdə mənzil-qərargah açmağa tələsir. Amma biz NATO adı gələndə az qala diksinirik - ölkə özünün NATO, AB və AŞ ilə əlaqələrini minimuma endirib...

Təbii ki, bu, Rusiyanın birinci, minimal tələbidir. Bundan başqa maksimal tələb də var ki, o da budur ki, Azərbaycan Avrasiya İttifaqı ilə bağlı da özünün münasibətinə açıqlıq gətirməlidir...

Bu xüsusda da bir söz deməyə çətinlik çəkirik. Rusiyanın vektorial vurnuxmaları, Azərbaycanı Avrasiya İttifaqına qoşmağa cəhd etməsi aydındır. Bu gün Avrasiya İttifaqının Ermənistanla sərhədi yoxdur, yalnız Azərbaycan bu boşluğu doldura bilər...

O ki qaldı bizim hakimiyyətin necə istəməsinə, müstəqillik bizimkilərin xoşuna gəlir. Həqiqətən də müstəqillikdən gözəl şey var? Necə deyərlər, öz əlindir, öz başın...

Amma rəsmi Bakı gözəl başa düşür ki, ideal müstəqillik yoxdur, ən müstəqil kiçik dövlət belə harasa söykənməlidir. Söykənəcək kimi də Rusiyanı seçiblər və həm də Rusiyanın sayəsində bir siyasi qüvvə kimi hakimiyyətdə qala biliblər. Bizimkilərin bir siyasi qüvvə kimi əsas keyfiyyəti odur ki, onlar heç də idealist deyillər, bir daha deyirəm ki, onlar gözəl bilirlər ki, ideal müstəqil dövlət və hətta hakimiyyət olmur...

Bunlar bir siyasi qüvvə kimi müstəqilliyi daha çox öz cəmiyyətlərindən asılı olmamaqda görürlər. Nəyə də olmasa, buna yetincə nail olublar-bizim hakim siyasi qüvvə demək olar ki, ictimai rəydən asılı deyil...

Qərəz, reallıq budur. O ki qaldı Rusiyaya və bu ölkə ilə bağlı ümidlərə, ən qəliz vəziyyətdə belə məşhur bir deyimi yaddan çıxarmayın. O deyim də budur ki, atan yenə də kazaklardır... Yox, mən bununla ermənilər tamamilə təmizə çıxarmaq fikrində deyiləm. Hətta həmişə bu fikirdə olmuşam ki, biz nahaq yerə bütün bu oyunlarda, siyasi teatrda Ermənistana passiv komponent kimi baxırıq - ermənilər bu siyasi oyunlarda yetərincə "bişiblər", özü də heç də pis oynamırlar...

Amma dirijor təbii ki, Rusiyadır. Elə bu səbədən də xam xəyallara lüzum yox.

Hərçənd, onu da bilirəm ki, bizim insanlar çox da ümummilli problemlərlə öz beyinlərini məşğul etməyi sevməzlər...

Amma olur da. Hərdən görürsən ki, kiminsə yadına düşür ki, axı bizim Qarabağımız da vardı, görən o, nə oldu? Qərəz, özünüzü çox "naqruzka"ya salmayın, necə yatmısınız, elə də yatın. Allah sizə rəhmət eləsin, dirilər!..

YENİ MÜSAVAT
N 200 (6228) 10 sentyabr 2015



# Düşmən geri çəkilir

Zamin HACI
zaminhaci@gmail.com

"Boz atın boz torbasın boş as başınnan, apar, islat gətir, yaş as başınnan"

**(Yanıltmac)**

**Bir nəfər tanış var, siyasətə qarışmır, ancaq respublikamızın ümummilli problemləri ilə, örnək üçün, səbətin dalından tökülən gilasın yerə neçə saniyəyə çatması, Rəqsanənin əri kimdir, Hindistanda bir yoqa suyun üstündə nə cür dayanır, xiyar niyə əyri bitir və sairə bu kimi məsələlərlə dərindən maraqlanır. Hərdən mənim qabağımı kəsib belə maraqlı suallardan verir, o üzdən bilirəm.**

Dünən də vacib bir iş dalıyca getdiyim yerdə saxlayıb - hərbi komissarlıq çağırmışdı, istəyirlər məni paraşütlə İrəvana atsınlar - görün nə soruşur: "A bəy, deyirlər ermənilər sərhəd zonasından qoşunları çəkir, bu nə qədər düzdür, sən bilərsən?"

Sözgəlişi, bu "sən bilərsən" ifadəsi bizim camaatın böyük bicliklərindən biridir, yəqin dünyanın heç bir xalqında yoxdur. Qabaqcadan sənin boynuna qoyurlar, sən də məcbursan bildin-bilmədin nəsə uydurub deyəsən. Yoxsa bu boyda minnətin, xətir-hörmətin qabağında *(bəs necə, adam özünü Harvardın professoru-zad sayır beş dəqiqənin içində)* kəsədən "bilmirəm" demək olmaz. Bir növ, sual verən zəhmətkeşə qarşı hörmətsizlik olar. Mən indi yadıma salıram, qısa həyatım ərzində "sən bilərsən" kateqoriyasından bilik və bacarıqlarımın uzun siyahısına bunlar daxildir: kompüterin sökülüb, yığılması, Fortran, Beyzik, yapon, ingilis, fars dilləri, karikatura və peyzaj çəkmək qabiliyyəti, astronomiya, kvant fizikası, politologiya, kibernetika, Vitqenşteynin fəlsəfəsi, 19-cu əsr dekadent şotland ədəbiyyatı, Braziliya futbol yığmasının 1971-ci il heyətinin tərkibi, Füzuli rayonunun Cinqobulu yaşayış məntəqəsinin işğal tarixi və sairə. Uca millətimiz bütün bunlar haqda məndən "sən bilərsən" deyərək soruşub, müvafiq də cavablar alıbdır. Mən hələ kimsəni naümid qaytarmamışam, əmin olasınız. Hətta elə adam olub əlinin altında eşşək boyda Google saytı olsa da axtarış verməyə ərinib, sualını bəndənizə veribdir. Sizin də sualınız olsa yazın göndərin.

Uzun sözün qısası, tanışdan soruşdum, belə bir gopu hardan eşidibdir, dedi televizorda danışırdılar. Dedim, hələ indiyə qədər televizordan bir düz söz eşitmisənmi, indi də buna inanırsan? Bir az başını qaşıdı, dedi hə, yadıma gəlir, 1990-cı ilin yanvarında ruslar televiziyanın enerji blokunu partlatmışdılar, bir neçə saat ekran ağ qaldı. Düzü, bilmədim bunun nə əlaqəsi var.

Sonra fikirləşdim həqiqəti demək lazımdır. Xalq həqiqəti bilmək istəyir - köhnə, bambılı şüarda deyilən kimi. O üzdən tanışa dedim ki, sərhəd zonasından geri çəkilən bizim əsgərlərdir, Ermənistanın içərilərinə doğru geri çəkilirlər.

Gördüm bir az tərs-tərs baxır, izah elədim: "Qardaş, elə həmin telekanalizasiyalar neçə ildir Ermənistanın boşaldığını, orda adam qalmadığını demirmi? Düz də deyirlər, ermənilər hamısı qaçıb gedib. İndi cəbhə xəttinin hər iki üzündə duranlar da bizim ordudur. Komanda-qərargah təlimləri deyilən şey elə budur - bir dəstə burdan yalandan hücuma keçir, o biri dəstə o tərəfdən yalandan geri çəkilir. Bir növ, yekə-yekə bığlı-saqqallı kişilər dava-dava oynayırlar. "Cart, səni vurdum, çıx qırağa! Part, ayə, uzan yerə, ölmüsən. Zart, qumbara atdım, dördünüz də ölün!" Təxminən bu qaydada təlimlər gedir. Televizorda xəbər verilən geri çəkilmə də bu oyunun növbəti mərhələsidir".

Tanışım izahatdan çox məmnun qaldı, dedi hələ gepolitik vəziyyəti bu cür anlaşıqlı çatdıran olmamışdı. Mən də dedim o nə söhbətdir, həmişə xalqımıza xidmətdən məmnunuq.

# İki erməni nazirdən bir şok etiraf

**Ermənistan işğal etdiyi Dağlıq Qarabağda və ətrafında demoqrafik situasiyanı qəti olaraq öz xeyrinə dəyişmək uçun bir gün də dayanmır, süni məskunlaşma siyasətini davam etdirir. Bu barədə zaman-zaman yazmışıq.**



# Qarabağda 11 min suriyalı erməni yerləşdirilib - böyük təhlükə

## Azərbaycan ərazilərində etnik təmizləmə aparmış işğalçı Ermənistan bölgədə demoqrafik situasiyanı öz xeyrinə dəyişməkdə davam edir; Bakı və həmsədr ölkələr hərəkətə keçəcəkmi?..

Son dövrlər Suriya və İraqda vəziyyətin kəskinləşməsi səbəbindən Yaxın Şərq ermənilərinin müəyyən qisminin Ermənistan vasitəsilə Azərbaycan torpaqlarına - etnik təmizlənmə aparılmış ərazilərimizə "köçməsi" ilə bağlı məlumatlar gəlməkdədir. Gəlmə ermənilərin sayı haqda bu günədək dəqiq informasiya yoxdur. Lakin dünən erməni saytlarına istinadən və iki erməni nazirin bu mövzuda bir-birindən xəbərsiz verdikləri rəsmi açıqlamaları tutuşdurduqda ortaya şok mənzərə çıxdı.

Ondan başlayaq ki, sentyabrın 8-də Ermənistanın xarici işlər naziri Edvard Nalbəndyan Fransanın xarici işlər naziri Loran Fobiusun dəvəti ilə Parisdə Yaxın Şərqdəki milli-dini azlıqlara qarşı zorakılılara həsr olunan beynəlxalq konfransda iştirak və çıxış edib *(1 in.am)*. Tədbirdə 60-a yaxın ölkənin nümayəndə heyəti, beynəlxalq təşkilatların rəhbərləri, ruhaniyyət təmsilçiləri, Avropa Birliyinin xarici işlər naziri Federika Moqerini iştirak ediblər.

Konfransda Nalbəndyan da çıxış edib. Saytın yazdığına görə, Nalbəndyan konfrans iştirakçılarının diqqətinə ölkəsinin Yaxın Şərq bölgəsində baş verənlərlə bağlı dərin narahatlıq keçirdiyini, İŞİD terror qruplaşmasının əməllərini pislədiyini çatdırıb.

**Ardınca isə o, ənənəvi erməni pafosu ilə deyib:** "Erməni xalqı əsrlər boyu Yaxın Şərqdəki mədəni müxtəlifliyin xüsusi tərkib hissəsi olub. Biz bu bölgənin xalqlarına minnətdarıq ki, bir əsr əvvəl "genosid"dən qorunmağa çalışan bizim yüz minlərlə həmvətənimizə sığınacaq verib. Bu gün həm bu xalqların, həm də oradakı etnik-dini icmaların mövcudluğuna ciddi təhlükə yaranıb".

**Və ən önəmli məqam - nazir sonra bildirib:** "Zorakılıqlar bizim həmvətənlərimizi də haqlayıb, onların bir çoxu terror hücumlarına məruz qalıb, erməni yaşayış məntəqələri, kilsələr, mədəni və tədris müəssisələri məhv edilib. 100 il önceki kimi, on minlərlə erməni Yaxın Şərqin digər xalqları kimi bu gün məcburi emiqrasiya yolu tutub. Təkcə Suriyadan 15 min erməni Ermənistana gəlib".

***

"Ermənistana axın edən suriyalı ermənilərin sayı artıb". Bunu isə Iragir.am saytına açıqlamasında Ermənistanın diaspor naziri Firdus Zakaryan söyləyib (axar.az). Onun sözlərinə görə, hazırda Ermənistana gələn suriyalı ermənilərin sayı 4000 nəfərə çatıb.

**Sitat:** "Son iki ayda bu axın artib. Biz artıq bununla bacarmaq gücündə deyilik. Ermənistana adətən evini itirmiş insanlar gəlir. Əgər suriyalı ermənilər təkcə İrəvanda yox, başqa yerlərdə də yaşamağı qəbul etsəydilər, o zaman hər şey yaxşı olardı. Lakin onları da başa düşmək olar. Çünki onlar İrəvandan başqa Ermənistanın heç bir yerində iş tapa bilməzlər".

***

İki erməni nazirin, iki rəsmi şəxsin suriyalı erməni qaçqınlarla bağlı söylədiyi iki müxtəlif rəqəm dərhal diqqət çəkir. Belə ki, Nalbəndyan Ermənistana 15 min Suriya ermənisinin gəldiyini bəyan edirsə, diaspor naziri 4 min (!!) rəqəmini səsləndirir. Aradakı fərq isə - 11 min edir. Bəs bu qədər qaçqın erməni hara yox oldu?

Məntiq deyir ki, diaspora nazirinin rəqəmi daha mötəbərdir, çünki bu, sırf onun sahəsidir. Deməli, yerdə qalan 11 min qaçqın erməni Ermənistandan sonra yollarını başqa səmtə davam etdiriblər. Hara?

Hər halda, Gürcüstana (Cavaxetiya), Türkiyəyə, İrana suriyalı qaçqınların gəldiyi haqda heç bir informasiya yoxdur. Qalır - işğal altındakı Dağlıq Qarabağ və onun ətrafındakı rayonlar. İndiyədək Qarabağda əcnəbi ermənilərin yerləşdirilməsi barədə çoxsaylı məlumatların olduğu ciddiyə alınarsa, böyük ehtimalla, həmin 11 min suriyalı erməni də İrəvandan məhz elə Azərbaycan torpaqlarına yönləndirilib.

Şübhə yox ki, təcavüzkar ölkə bununla "1 güllə ilə üç dovşan" vurmaq istəyib:

**1. "Suriya kartı"nı bəhanə edib Azərbaycan torpaqlarında demoqrafik vəziyyəti gələcək üçün köklü şəkildə öz xeyrinə dəyişmək və işğala haqq qazandırmaq.**

**2. Ermənistandan və Dağlıq Qarabağdan xaricə (Rusiya) davam edən böyük köçü müəyyən qədər kompensasiya eləmək.**

**3. Onsuz da çoxdan iqtisadiyyatı ağır vəziyyətdə olan Ermənistanın durumunun əlavə qaçqın ordusu ilə bir az da ağırlaşmasından yayınmaq. Axı diaspor nazirinin etiraf elədiyi kimi, insanlar İrəvandan başqa Ermənistanın heç bir yerində iş tapa bilməzlər. Amma Dağlıq Qarabağda indi artıq German Sterliqov kimi avantürist milyonçular hesabına yeni iş yerləri açmaq mümkündür, üstəlik, diaspora ora xüsusi qayğı ayırır.**

***

Bir şeyi yaddan çıxarmaq olmaz ki, düşmən ölkə üçün Azərbaycan ərazilərinin erməniləşdirilməsi *(söhbət təkcə süni məskunlaşmadan getmir, həm də mədəni-tarixi irsi errməniləşdirməkdən gedir)* çoxdan 1 nömrəli prioritet elan edilib. Bu üzdən düşünmək ki, iki nazirdən biri səhvə yol verib, yanılıb - ciddi yanlışlıq olar. İki nazir, sadəcə, bir şok etirafda bulunub - bir-birindən xəbərsiz...

Bütün bunlardan sonra qalır məsləyə rəsmi Bakının və əlbəttə ki, vasitəçilərin reaksiyası.

❑ Siyasət şöbəsi

# "Türkiyədə antiterror əməliyyatında iştiraka hazırıq"

## Bakıdan Türkiyəyə dəstək mesajları verilir

**Qarabağ Azadlıq Təşkilatı Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğana müraciət edərək antiterror əməliyyatlarında iştirak etməyə hazır olduğunu bildirib. Məktubda deyilir: "Sizin terrora qarşı başladığınız mücadiləni birmənalı şəkildə dəstəkləyirik. Siz bu mücadiləni Türkiyənin ərazi bütövlüyü və təhlükəsizliyi naminə aparırsınız. Biz bu həssas anda bütün Türkiyəni birliyə çağırırıq, belə anda iqtidar-müxalifət məsələsi, fərqli yanaşma ola bilməz, hamı zərbəni bir hədəfə vurmalıdır. Siz həm də bütün türk və İslam dünyasının birliyinə çalışır, ümumi maraqlarına xidmət edirsiniz. Biz bütün İslam və türk dünyasını Türkiyənin apardığı haqq işinə dəstək verməyə çağırırıq".**

QAT bəyan edib ki, təşkilatın Qarabağ müharibəsində iştirak etmiş bütün üzvləri bir əsgər kimi Türkiyənin terrora qarşı əməliyyatlarına qoşulmağa hazırdır: "Digər üzvlərimiz də istənilən şəkildə sizlərin yanında olmağa hazırdır. Biz günü bu gün Türkiyəyə gəlməyə hazırıq. Biz Türkiyədən işarə, əmr, tapşırıq gözləyirik. Bizim bir-birimizdən başqa dostumuz yoxdur! Allah Türk və İslam dünyasını qorusun!"

9 sentyabrda Beynəlxalq Diaspor Mərkəzinin (BDM) təşkilatçılığı ilə Türkiyə Cümhuriyyətinin Azərbaycandakı səfirliyi qarşısında aksiya keçirilib. Aksiyada məqsəd Türkiyəyə dəstək nümayiş etdirmək olub. Aksiya iştirakçılarının niyyəti son zamanlar Türkiyədə PKK terror təşkilatının həyata keçirdiyi terror aktlarını qınama olub. Mustafa Kamal Atatürkün abidəsinin önündən başlayaraq səfirliyin qarşısına doğru yürüş keçirilib. Səfirliyin önündə aksiyanın qətnaməsi oxunaraq qurumun nümayəndəsinə təqdim olunub.

❑ Cavid TURAN

YENİ MÜSAVAT
N 200 (6228) 10 sentyabr 2015

**PKK terror təşkilatı hazırda Türkiyədə ordu və polisə qarşı hər gün hücumlar təşkil edir. Terror təşkilatının yenidən fəallaşması və faktiki olaraq Türkiyə dövlətinə qarşı müharibəyə başlaması kürd problemi və PKK-nın özünə diqqəti artırıb.**



# Türkiyəyə qarşı savaşan PKK-nı kimlər yaradıb?

## Kürd dövləti iddiası ilə ortaya atılan terror təşkilatının yaranması və fəaliyyəti barədə qeydlər

Qeyd edək ki, PKK son 100 ildə Yaxın Şərqdə bir-birini əvəzləyən kürd təşkilatlarının sırasında da nisbətən yenisi hesab olunur. PKK solçu təşkilatdır, bu təşkilatın adı Kürdüstan Fəhlə Partiyası (kürdcəsi Partiya Karkeren Kurdistane) kimi qeyd olunur. Orta Şərqin 4 ölkəsinə - Türkiyə, İran, İraq və Suriyaya yayılmış kürdlərin müstəqil dövlətinin yaradılması şüarları ilə ortaya çıxan növbəti qruplaşmalardan fərqli olaraq PKK çox tezliklə əsas metod kimi silahlı terrora baş vurdu.

1974-cü ildə Abdulla Öcalan tərəfindən qurulan Pkk marksist-leninçi ideyalara əsaslanır. Təşkilatın elan etdiyi hədəfi Türkiyənin cənub-şərqi, İraqın şimalı, Suriyanın şimal-şərqi və İranın şimal-qərbində kürdlərin yaşadığı *(bəzi bölgələrdə isə sadəcə ərazi olaraq iddia edərək - K.R.)* ərazilərdə dövlət qurmaqdır. Ancaq bu hədəfi elan edən PKK mübarizə metodu olaraq terroru, dinc vətəndaşları, o cümlədən əsasən də Türkiyədə dövlət məmurları, polis, ordu nümayəndələri, eləcə də yerlərdə kənd qoruqçuları, hökumətlə əməkdaşlıq edən kürdlərə qarşı terror hücumlarını seçdi. PKK müəyyən müddətdə KADEK *(türkcə Kürdüstan Azadlıq və Demokratiya Konqresi)* və Konqra-Gel *(Xalq Konqresi)* adlarından istifadə edib.

Təşkilatın ilk adı isə Ankara Demokratik Ali Təhsil Dərnəyi olub. 1978-ci ilin noyabrında Diyarbəkr Licə rayonunda keçirilən birinci konqresdə qruplaşma adını Kürdüstan Fəhlə Partiyası olaraq dəyişir və fəaliyyət sahəsinin genişləndiyini elan edir. Həmin vaxt PKK-nın rəhbəri Abdulla Öcalan, Cəmil Bayık isə onun müavini təyin olunub. İlk PKK heyəti isə 16 nəfərdən ibarət olub.

1980-ci illərin əvvəllərində Türkiyədə baş verən daxili münaqişələrə qatılıb, şəhərlərdə baş verən toqquşmalarda iştirak edib. Ancaq hərbi çevrilişdən az əvvəl Öcalan ölkəni tərk edib. Digər PKK-çılar isə hərbi çevriliş zamanı yaxalanaraq həbsə atılıb. Türkiyədən qaçan Öcalan bir müddət Livanda, ardınca isə Suriyaya köçərək orda yenidən təşkilatlanmağa başlayıb.

1984-cü ildə PKK yenidən Türkiyədə terror aksiyalarına başlayıb. Həmin il avqustun 15-də PKK-çılar Türkiyənin Eruh və Şəmdinli rayonlarında ilk silahlı terror hücumlarını həyata keçiriblər. 1986-cı il oktyabrın 25-də Livanda keçirilən 3-cü qurultayında PKK "Kürdüstan Xalq Ordusu" yaratdığını elan edir.

Bundan sonra PKK-nın silahlı terror hücumlarının sayı və miqyası artır. 1993-cü ildə Bingöl-Elazığ yolunu kəsən PKK-çılar 33 silahsız hərbçini öldürür. 1990-cı illərin ortaları və sonları Türkiyədə PKK terroru ilə ağır mübarizə dönəmi hesab olunur. Türkiyə ordusu və təhlükəsizlik qüvvələri terror təşkilatına ağır zərbələr vurub. Ancaq eyni zamanda PKK-ya qarşı mübarizədə yaranmış silahlı qrupların apardığı gizli mübarizə terrorla mübarizəyə böyük miqdarda vəsaitin xərclənməsinə səbəb olub. 1996-cı ildə ilk dəfə PKK Türkiyə ərazisində canlı bombalardan istifadə edir. Kamikadze-terrorçular özlərini əhalinin gur yerində partlatmaqla əsgər və zabitlərin ölümünə səbəb olub.

1990-cı illərin sonlarında Türkiyə hökumət qüvvələri PKK-nın ləğv edilməsi üçün qruplaşmaya qarşı geniş miqyaslı kəşfiyyat və ordu müharibəsi başladıb. Xüsusi hazırlanmış hökumət qüvvələri PKK liderlərini ələ keçirib. 1998-ci il aprelin 13-də PKK-nın bir zamanlar ikinci adamı olmuş Şemdin Sakık və qardaşı Arif Şimali İraqda ələ keçirilərək Türkiyəyə gətirilir.

Uzun illər Suriyaya sığınmış Öcalan sonradan münasibətlərin pisləşməsi və Türkiyənin təzyiqi ilə Hafiz Əsədin dəstəyi kəsməsindən sonra ölkəni tərk edir. 1999-cu il fevralın 2-də Abdulla Öcalan Cənubi Kipr vətəndaşı pasportu daşıyaraq Lazarus Mavros adı altında Keniyada Yunanıstan səfirliyinə yerləşir. Türkiyə ordusu xüsusi təyinatlıları və kəşfiyyatın həyata keçirdiyi əməliyyatla Öcalan Keniyada ələ keçirilərək Türkiyəyə gətirilir.

Türkiyədə İmralı adasında keçirilən məhkəmə prosesində 1999-cu il iyunun 29-da məhkəmə heyəti Öcalan barədə edam hökmü verdi. Bu cəza Ankara 2 saylı Dövlət Təhlükəsizlik Məhkəməsi tərəfindən təsdiqlənsə də, icra olunmadı. Hesab olunur ki, beynəlxalq təşkilatlar və Qərb dövlətləri Türkiyə hökumətini edamdan çəkindirib. Ancaq eyni zamanda hökumətin Öcalanı əlində kart olaraq diri saxlamaq istədiyi üçün edam hökmünün icra olunmadığı ehtimal olunur.

PKK 2002-ci ildə formal olaraq özünü buraxdığını və Kürdüstan Demokratik və Azadlıq Konqresini qurduğunu elan etsə də, qruplaşma PKK olaraq tanınır.

Qeyd edək ki, bir sıra tədqiqatçılara görə, PKK-nın yaranması "soyuq müharibə" dönəmində SSRİ-ABŞ qarşıdurmasından qaynaqlanır. Daha dəqiqi NATO-nun cənub gücü olan Türkiyədə kürdlərin solçu terror təşkilatının yaranması SSRİ-nin planı idi. Bu mənada PKK liderlərinin SSRİ və KQB ilə əlaqələrinə dair çoxlu sayda iddialar ortadadır. Öcalanın Türkiyədəki çevrilişdən az əvvəl ölkədən çıxarılması və Livana, daha sonra SSRİ-nin Yaxın Şərqdəki əsas müttəfiqi olan Suriyaya yerləşməsi bu ehtimalı böyük ölçüdə doğrulayır. PKK-nın zəifləməsi, daha sonra liderinin ələ keçməsi məhz SSRİ-nin ləğvi, Rusiyanın isə başının daxili müharibələrə qarışdığı dönəmə təsadüf edir.

Ancaq PKK-nın yalnız Rusiya deyil, eyni zamanda müəyyən dövrdə ABŞ, eləcə də Almaniya, Fransa və o cümlədən İsraillə bağlarının olması ilə bağlı faktlar var. Bu ölkələrin PKK daxilindəki təsir qruplarının olduğu, belə demək olarsa, öz maraqları üçün bu təşkilatdan faydalanmağa çalışıblar. Bu mənada hazırda PKK-nın simpatizanları və önəmli kadrları məhz Avropa ölkələrində yaşayır. Bundan başqa, terror qruplaşmasının əsas bazası İraqın şimalında Qəndil dağlarında yerləşir. Ancaq eyni zamanda Suriyada PKK-nın tərəfdarları, eləcə də eyni ideologiyanı paylaşan PYD təşkilatı var. İranda isə PEJAK adlı terror təşkilatı PKK ilə yaxın kürd terror təşkilatı hesab olunur. Hazırda yeganə tanınan kürd muxtariyyəti olan Şimali İraq administrasiyası isə daha çox qərbyönlü bir quruluş olaraq PKK ilə isti münasibətlərə malik deyil. Əksinə, muxtariyyətin rəhbəri Məsud Bərzani Türkiyə ilə qonşuluq münasibətlərinin qurulmasında maraqlıdır. Bu isə zaman-zaman Bərzani ilə PKK liderləri arasında gərginliyə səbəb olur.

2013-cü il martın 20-də Novruz bayramında Öcalanın çağırışı ilə PKK atəşkəs elan etsə də, bu il iyulun sonlarında yenidən PKK Türkiyədə yeni terror ocaqları alovlandırıb. Qanlı hörgütün yenidən ayaqlanmasının konkret səbəbləri, məqsədləri bilinməsə də, əsas ehtimal kimi Türkiyənin Yaxın Şərq siyasətinə görə Qərb tərəfindən cəzalandırılması, həmçinin siyasi qruplar arasında mübarizənin təzahürü kimi yozumlar var.

❑ **KƏNAN**

# Azərbaycan kürdlərinin lideri PKK əvəzinə Ərdoğanı suçladı

## **Tahir Süleymanov:** "Niyə Ərdoğanın, Davudoğlunun övladları bu müharibədə ölmür? Bu, terror savaşı deyil, qardaş qırğınıdır..."

**Türkiyə son günlərdə yaşadığı faciələrdən sarsıldı. Bir-birinin ardınca gələn şəhid xəbərləri qardaş ölkəni matəmə qərq etdi. PKK terrorçularının isə təxribatları səngimək bilmir. Qardaş ölkədə baş verənlər Azərbaycanda da narahatlıqla izlənir. Bəs ölkəmizdəki kürd kəsim kimin yanındadır - Türkiyənin, yoxsa PKK-nın?**



**Azərbaycan Kürdləri İctimai Birliyinin sədri, "Diplomat" qəzetinin baş redaktoru Tahir Süleymanov** baş verənlərin qardaş qırğını olduğu düşüncəsindədir. O hesab edir ki, qardaş qırğını qısa müddətdə dayandırılmalıdır: "Faciə ilə bağlı Ərdoğan deyir ki, 400 deputat olsaydı, bu hadisələr baş verməzdi. Sizin qəzetiniz vasitəsilə MHP, CHP, HDP-yə səslənirəm: hərəniz 40-50 deputat verin, qoyun AKP-nin 400 deputatı düzəlsin, bu vətəndaş müharibəsi dayandırılsın. Qardaş qırğınına son qoyulmalıdır".

**T.Süleymanov jurnalistlərlə birlikdə Türkiyəyə səfər planlaşdırdığını söylədi:** "Baş verənlərlə bağlı xüsusi planım var. Sizin mətbuat da daxil olmaqla, 5-6 jurnalistlə birlikdə qardaş Türkiyəyə getmək niyyətindəyəm. Hadisələrin qaynar nöqtələrində olmalıyıq. Mediamız xalqı, hökuməti danışdırsın. Görək, bu hadisələrin axırı necə olacaq. Əgər maddi imkan əldə etsəm, planımı gerçəkləşdirəcəm. Çalışacağam ki, qorxmayan jurnalistlər olsun. Biz də qardaş ölkə olaraq dəstəyimizi, mövqeyimizi bildirməliyik. İmkan edə bilməsəm, imkanı çatan jurnalistlərə müraciət edəcəyəm. Qırğınların qarşısını almaq üçün əlimizdən gələni etməliyik".

**Azərbaycan kürdlərinin lideri proseslərdə prezident Ərdoğanı qınadı:** "2002-ci ildən atəşkəs elan olundu. Ərdoğan da Türkiyədə yaşayan bütün xalqlara söz verdi ki, onların haqları tanınacaq. Bundan sonrakı illərdə o, baş nazir, prezident seçildi. Lakin son seçkidə təkbaşına hökumət formalaşdıra bilməyəcəyini, bir sıra nazirliklərin əlindən çıxacağını görən Ərdoğan birdən-birə terror məsələsini gündəmə gətirdi. Camaatı qırmaq olmaz. Niyə Ərdoğanın, Davudoğlunun övladları kreslo davası gedən bu müharibədə ölmür? Niyə kasıbın övladı ölməlidir? Bir çox dövlət adamları Ərdoğana qarşı çıxaraq, savaşın dayandırılmasını tələb etdilər. Bu gün Yaxın Şərq, İraq, Suriya, Liviyada baş verənləri Ərdoğan görmür? Xristian dövlətləri türk dünyasına qarşı birləşiblər. Avropa dövlətləri, ABŞ heç vaxt razı olmaz ki, Avropanın astanasında Türkiyə kimi güclü dövlət olsun. Onlar çalışırlar ki, bu qardaş xalqlar arasında daim müharibə olsun. Əgər Türkiyədə federativ quruluş yaradılarsa, nəyi pis olar? Rusiya, Almaniya və digər güclü dövlətlərdə bu quruluşdur. Ərdoğan bu xalqların demokratik haqlarını tanısaydı, istəsəydilər belə, bugünkü vəziyyəti yarada bilməzdilər. Necə olur ki, lazım olanda Abdulla Öcalanın adı ilə PKK-ya əmrlər verilir. Halbuki bu şəxs 16 ildir həbsdədir".

**Müsahibimiz yenə çağırış elədi:** "Barmaqlar tətikdən çəkilməlidir. Hələ də gec deyil. Nə qədər şəhid verilib, yaralı, itkin düşənlər var. Görün bunların içərisində bir məmur, nazir övladı varmı? Nə vaxta qədər kasıb övladları öləcək? Bu, terror savaşı deyil, qardaş savaşıdır. Türkün də, kürdün də analarının övlad yanğısı eynidir. Lənət olsun bu müharibəyə. Hər şeyi bir kənara qoyub bir insan kimi bildirirəm ki, barmaqlar tətikdən çəkilsin. Danışıq masası üzərində bu problemləri həll etmək lazımdır. Bunun türkü, kürdü, çərkəzi və digərləri yazıqdır. Yeri gələndə onlardan çox acı yaşayıram. Bu xalqdan bunlar nə istəyirlər?"

**Göründüyü kimi, Tahir Süleymanov PKK-nın xain hücumlarını terror kimi qiymətləndirmir.**

❑ **Cavanşir ABBASLI**



# Toplanış oyunları

**Samir SARI**

**Neçə gündür rayonlarda yaşayan sosial şəbəkə istifadəçiləri qısa-qısa, təfərrüata varmadan yazırdılar ki, ehtiyata buraxılmış əsgərləri yenidən orduya çağırırlar.**

Amma media bu barədə yazmırdı. Çünki keçən il bu vaxt hökumət mediaya təpinib ki, orduyla bağlı məsələləri açıb-ağartmayın, bu, "hərbi sirr" söhbətinin altına girir, başınız ağrıyar.

Ona görə də həm başağrısı olmasın, həm də düşmən oyaqdır deyə, bəzi şeyləri yazmırıq, deyirik, saytlarda oxuyub bilərlər ki, buralarda nə necədir, yaxşı düşməz.

Bununla belə, Komanda Qərargah Hərbi Oyunları ilə bağlı informasiyanı hökumət özü yayandan sonra anlaşıldı ki, bu, ya hərbi sirr deyil, ya da yayılması məqsədəuyğun olan hərbi sirdir. Yəni qoy düşmən oxusun, narahat olsun.

Bəli, böylə xəbərlər var: yaşı 35-dək olan keçmiş hərbçiləri hərbi oyunlara cəlb edirlər ki, döyüş hazırlıqlarını artırsınlar, passivləşməsinlər, idman formasında qalsınlar. Nə olar, nə olmaz, 27 ildir müharibə vəziyyətindəyik.

Hərçənd ortada bir "ana ürəyi-dağ çiçəyi" amili də var, hazırkı və keçmiş hərbçilərin anaları (eləcə də ataları) narahatlıq keçirirlər, qorxurlar ki, birdən müharibə başlayar, övladlarına sədəmə toxunar.

Analitik təfəkkürə malik ekspert-müşahidəçi-politoloq qardaşlar isə deyirlər ki, qorxulu bir şey yoxdur. Onlar məsələyə qlobal prizmadan yanaşırlar, Rusiya, ABŞ, İngiltərə, Fransa amillərini qatıb-qarışdırır, yoğurur, üstünə "qlobal iqtisadi böhran", "neftin qiymətinin enməsi", "Yaxın Şərqdəki gərginlik", "Türkiyədə PKK ilə müharibə" və sair ədvalardan vuraraq ortaya belə bir məhsul qoyurlar: "İndiki halda Qarabağda müharibənin başlanması mümkün deyil".

Allah tərəfi, böyük dövlətlər də düz 22 ildir "Qarabağda sülh danışıqlarının alternativi yoxdur" deyirlər, biz də bilirik ki, elədir. İntəhası, arada ermənilər qaşınırlar. Cıdır düzündə qoduq ötüşdürmək nəydi, ay yaramazlar? Vallahi, belə hərəkətlərin üstündə bir gün başımız çönəcək, baxmayacağıq ki, qlobal iqtisadi böhran var, bölgədə hərbi vəziyyət onsuz da partlayış həddindədir, heç lazım gəlməsə də, nəsə bir haqq-hesab edəcəyik, ondan sonra eşşəyiniz öləcək.

Xüləs, onsuz da erməni separatçılarını hədələyənlərimiz çoxdur, biz də bir tərəfdən başlamayaq. Əsas odur ki, oxumuş adamlar demişkən, bəs elədirsə, bu hərbi toplanışın məqsədi nədir?

Məncə, bu xüsusda dərin ağıl işlətmək lazım deyil. Hər şeyə həmişə hazır olmaq lazımdır. Bu saat 47 dövlət bir-birilə vuruşur, ya da "vur-vurum" mərhələsindədir.

Ona qalsa, hələ xeyli dərəcədə dinc dövr hesab olunan sovet dönəmində də tez-tez hərbi toplanışlar təşkil olunardı. Həmin toplanışların bir neçəsində iştirak etmiş adam kimi deyə bilərəm ki, biri istisna olmaqla qalanı formal xarakter daşımışdı, pul tələsi idi. Bir də görürdün, çağırış vərəqəsi gəldi: filan vaxtı filan yerdə ol. Yığışıb gedirdik. Bizə işarə edirdilər ki, əgər hərbi toplanışda iştirak etmək istəmirsinizsə, filan qədər xərci var. Əlində qazanclı işi-gücü olan adamlar 200-300, bəzən 500 manat verir, canlarını toplanışdan xilas edirdilər. İşsizlər isə həm verməyə pulları yox idi, həm də başlarını qatmağa onsuz da bir iş axtarırdılar, deyirdilər, xeyr, biz hərbi toplanışa qatılırıq, gedək heç olmasa, bir az "Kalaşnikov"dan güllə-zad ataq. Belə olanda "könüllü hərbi toplanışçıları" yığıb aparırdılar mədəniyyət evinin konsert salonuna, iki-üç saat hərbi elmlərdən rusca danışırdılar, sonra götürüb rayonun ayaq dəyməyən dərəsinə daşıyırdılar, orda növbə ilə hədəfə güllə atırdıq, axşam buraxırdılar ki, bu günlük bəsdir, sabah bir də gələrsiniz. Ertəsi gün gedirdik, deyirdilər, hərbi toplanış bitdi, azadsınız. Ara yerdə 200-300 manat verib hərbi toplanışdan yayınanların pulu batırdı.

Bir ara rayonun hərbi komissarları sırf hərbi toplanışa adam çağırmaqla dolanırdılar. Ehtiyada olan zabitləri keçəl eləmişdilər. Yalandan deyirdilər, orduya zabit lazımdır, vətən sizi çağırır. Bunlar da ali təhsilli adamlar idi, artıq müəyyən vəzifə, iş-güc yiyəsiydilər, puldan basıb, hərbi toplanışdan yayınırdılar.

Sonra o komissarların özlərini toplanışa cəlb etdilər, topladıqlarını tutub əllərindən aldılar, bəzilərini də orduya basdılar. Çünki orduya "kadrovik" zabitlər lazım idi.

İndiki hərbi toplanış isə hələlik nəsə başqa cürdür, gözləyək, görək, nə olur. Toplananlar tez qayıtsa, demək, köhnə dəyirman yenə pul üyütməyə başlayıb.

**1993-cü il martın 27-si idi. Həmin illər Azərbaycanda bir çox ailələrdə yaşanan faciələrdən Rzayevlərin də payına düşmüşdü. Ailənin böyük oğlu Barat Rzayev şəhid olmuşdu. O, Ukraynada ali hərbi akademiyada təhsil almışdı. Atası Zahid kişi oğlu məktəbi bitirər-bitirməz məktub yazıb Vətənə qayıtmağını istəmişdi: "Mən səni Vətən üçün böyüdüb oxutmuşam, indi Vətən dardadır, sənə ehtiyacı var".**

# Şəhid oğlunun faciəli ölümü - sözün bitdiyi yer...

## Tovuzda bədbəxt hadisə nəticəsində həlak olan 23 yaşlı Əmrah Barat oğlunun əziz xatirəsinə

Heç zaman böyük sözündən çıxmayan Barat atasının məktubunu alan kimi işdən ayrılmış, ailəsini də götürüb Azərbaycana gəlmişdi. Cəmisi 4 ay sonra isə işdən evə qara xəbəri gəlmişdi. Onda balaca Əmrah cəmi 39 gün idi ki, anadan olmuşdu...

***



2015-ci il sentyabrın 1-də Tovuz rayonunda daha bir dəhşətli xəbərin şoku yaşandı. Bu dəfə qara xəbərin ünvanı Əmrah idi. Onu elektrik cərəyanı vurmuşdu. Xəbəri eşidən hər kəsin ağlına gələn ilk şey anası Elmira xanımın hansı durumda olması idi. O, həyat yoldaşının xatirəsini əziz tutub ondan sonra ailə qurmamış, "Heç kəs mənə Baratı əvəz edə bilməz" - deyib təkcə balasını böyütmüşdü.

Hüzr yeri Əmrahın ana babasının evindəydi. Hadisə Tovuz rayonunun Vahidli kəndində baş verdiyindən dəfn mərasimini də orda təşkil etmişdilər.

Biz kəndə çatanda gecə saat 03:00 idi. Bütün yol boyu Elmira ilə necə qarşılaşacağımı düşünmüşdüm. O, mənim bir xalamın qızı, digərininsə gəlini idi. Balasını böyütmək üçün hansı məhrumiyyətlərə dözdüyünü, onun hər arzusunu yerinə yetirmək üçün necə çırpındığını bilirdim. Ona bu yolda ailəsi, xüsusilə də qardaşları yaxından dəstək olmuşdu, amma yenə də bütün ağırlıq Elmiranın öz üzərində idi.

Həyətdə yas çadırı qurulmuşdu artıq. Evə daxil olduqda Elmiranın naləsini eşidirik: "Yox, mənim balam ölməyib. O, məni çox istəyirdi, heç vaxt qıymaz anasını tək qoymağa. Səhər oyanacaq gül üzlü igidim". Bizi görəndə isə "nəyə gəlmisiniz, hələ Əmraha toy eləmirəm ki... Sizə dəvətnaməmi göndərmişəm" deyib boynumuza sarıldı. Nə deyəcəyimi bilmirdim, sanki sözüm bitmişdi...

### Qənirə Paşayeva vertolyot və həkim briqadası ayırtdırıb

Hər kəs hadisənin şokunda idi, heç kim nə baş verdiyini anlamır, bəlkə də nəticəni qəbul etmək istəmirdi.

**Əmrahın yaxın dostu və Baratın xalası oğlu Elbrus Abdullayev danışır ki, o, çay balığını çox sevirmiş. Hər dəfə kəndə gələndə** *(Əmrah anası ilə birlikdə Tovuz rayonunun mərkəzində bina evində yaşayırdı. 3 il idi ki, universitetdə oxuduğuna görə Rusiyanın Kemerov şəhərində dayılarının yanında qalırdı)* Vahidlinin mərkəzindən keçən Axıncı çayından dostları ilə birlikdə balıq tuturdu: "Bu həm də onun hobbisi idi. Həmişəkindən fərqli olaraq bu dəfə balığı elektriklə tutmaq istəyib. Təsəvvür edin ki, 100-200 metrlik naqildə kiçik bir yerdə açıq hissə olub. Onlar balığı tutub qurtarıblar, naqili yığmaq istəyəndə Əmrahın ayağı sürüşüb. Yıxılmamaq üçün əlini atanda həmin açıq yerə dəyib. Biz onu bir neçə saat torpağa basdırdıq ki, bəlkə ayıla. Təcili yardımın həkimləri dedilər ki, artıq gecdir. Heyf oldu uşaq gözümüzün qarşısında".

**Elbrus Əmrahın zarafatcıl, hər kəslə öz dilində danışmağı bacaran bir insan olduğunu deyir:** "O, hər dəfə kəndə gəlib gedəndən sonra burda etdiyi zarafatları anekdot kimi uzun müddət danışıb gülürdük. Özü də son vaxtlar elə qəşəngləşmişdi ki. Demə, torpağa pay gedəcəkmiş..."

Burada bir məqamı da qeyd etmək istərdik ki, 105 saylı Tovuz seçki dairəsindən millət vəkili seçilən Qənirə Paşayeva hadisədən xəbər tutan kimi, dərhal Səhiyyə Nazirliyi ilə əlaqə saxlayıb, Əmrahı Bakıya gətirmək üçün vertolyot və həkim briqadası ayırtdırıb. Lakin Tovuz Rayon Mərkəzi Xəstəxanasından ona artıq gec olduğunu deyiblər. Qənirə Paşayeva hər dəfə rayona gedəndə Elmira xanımla görüşüb, bir probleminin olub-olmaması ilə maraqlanırmış, şəhid ailəsi olduğuna görə onlara xüsusi diqqət ayırırmış.

### Əmrah öləcəyini bilirdi...

**Xalası Elza danışır ki, həmin gün Əmrah nahar vaxtı nənəsigilə gəlib, "ay nənə, acmışam, yeməyə nə var" deyib. Sonra isə qazandan çörəyin arasına yemək qoyub evdən çıxıb:** "Arxasınca qışqırdım ki, xala qurban, hara gedirsən, belə yeməkmi yeyərlər. Gəl otur, süfrə açıram, normal naharını elə. Əlini yellədib dedi ki, küçənin ayağına düşüb gəlirəm. Aradan yarım saat keçməmiş xəbəri gəldi".

**Elzanın sözlərinə görə, Əmrah öləcəyini bilirmiş, elə hey deyirmiş ki, onsuz da mən 24 yaşdan çox yaşamayacam:** "Bir ay əvvəl böyük qardaşımın oğlunun nişanı idi. Hamımız orda idik. Əmrah da nişanda həvəslə iştirak edirdi. Dedim ki, xalan sənə qurban, sənin toyunda elə xonçalar bəzəyəcəm ki, bütün rayon tamaşasına duracaq. Mənə qayıdıb dedi ki, anamın yanında demə, amma mənə toy qismət olmayacaq. Ağlayıb dedim ki, qurban olum, niyə belə deyirsən? Dedi, bilirəm, mən cavan öləcəm. Hardan biləydim ki, doğru deyir. Əgər desələr ki, həyatını ver, Əmrah oyanacaq, bir an belə düşünmədən verərəm".

### "Ürəyimə dammışdı ki, bu gediş son gediş olacaq"

**Dayısı Cəmaləddin Mehralıyev hadisədən xəbər tutan kimi Kemerov şəhərindən gəlib. Əmrah orda onun yanında qalırdı. Dərddən beli bükülmüş dayı deyir ki, bu il Əmrahın Azərbaycana gəlməsini istəmirmiş:** "Elə bil ürəyimə dammışdı ki, bu gediş son gediş olacaq. Tətil başlayanda israrımı görüb mənə söz verdi ki, getməyəcək. Amma avqustun əvvəlində çox xahiş etdi ki, gedim anamı görüm. Bacım bu il iki dəfə avtomobil qəzası keçirmişdi. Həm buna görə, həm də səhhətində yaranmış digər problemlərə görə Yessentukidə müalicə götürürdü. Dedi ki, dayı, anama sürpriz edəcəm, evin qapısından onunla birlikdə daxil olacam. Əlacsız qalıb razılıq verdim. Mən özüm də gəldim kəndə. Avqustun 22-nə qayıtmaq üçün ikimizə də bilet almışdım. Sürücülük vəsiqəsini gizlədib məni aldatdı ki, itirmişəm. Biletinin vaxtını sentyabrın 3-nə dəyişmişdim. Ayın 1-də də bu hadisə baş verdi. O mənim üçün oğul kimi idi. İndi nə edim, necə yaşayım, Elmiranın sual dolu baxışlarına hansı cavabı verim, bilmirəm".

### "Əmi, mən atama çoxmu bənzəyirəm?"

Budəfəki gəlişində Əmrah əmisigilə tez-tez gedirmiş. Hər dəfə də əmisi Muraddan atasını xəbər alırmış, ona çoxmu bənzədiyini, daha çox hansı cəhətlərinə görə onu xatırlatdığını soruşurmuş. Bir də tez-tez baş çəkdiyi bir ünvan da varmış: Tovuzun mərkəzində yerləşən Şəhidlər Xiyabanı. Axı atası Barat Rzayev orda uyuyurdu...

Əmrah atasının valideynlərinin yanında dəfn edildi, anasının istəyi ilə. Elmira "mən onu qoruya bilmədim. Qoy nənəsi ilə babası bundan sonra qayğısına qalsın" deyib ciyərparasını qayınatası ilə qayınanasına etibar etdi.

***

**Bakıya dönürəm, daxilimdə dünyalar boyda bir ağırlıq. Sanki hər şey bir yuxudur, ayılmaq istəyirəm, amma hansı tərəfə gedirəmsə, yenə də o dəhşətli yuxunun təsirindəyəm. Qulaqlarıma Elmiranın səsi gəlir: "Bundan sonra kim üçün, nə üçün yaşayım? Axı mən kimsəyə pislik edən deyildim, hər zaman ehtiyacı olanlara yardım edirdim, sadəcə, bir sözü desinlər deyə: oğlun sağ olsun... Bəs onda niyə belə oldu?.."**

**Bura sözün bitdiyi yer idi...**

❑ **Fəxrìyyə ABDULLAYEVA**



YENİ MÜSAVAT
N 200 (6228) 10 sentyabr 2015





# Son bir ayda ərzaq 30 faizədək bahalaşıb

## Marketlərdəki qiymətlərin artımı rəsmi şəkildə təsdiqlənib, alıcılar narazıdır

**Azərbaycanda son bir ay ərzində ərzaq mallarının qiymətinin 25-30 faizədək artması müşahidə olunur. Artıq ölkə ərazisində fəaliyyət göstərən mağazaların hamısında məhsullar yeni qiymətlərlə satıcılara təqdim olunur.**

Bir neçə gün əvvəl marketlərdə qiymətlərin qaldırılması haqda xəbər vermişdik. Bundan sonra mağazalarda İqtisadi İnkişaf Nazirliyi tərəfindən süni qiymət artımının qarşısının alınması üçün yoxlamalar aparılıb. Bəzi supermarketlər qiymət artımının olmadığını bildirirdilər. Sonradan məlum oldu ki, həmin supermarketlərdə bu müddət ərzində satılan mallar qiymət artımından əvvəl alınmış məhsullar olub. Marketlər yeni aldıqları məhsulları yeni - yeni artırılmış qiymətlərlə alıcı qarşısına çıxarıblar. Artıq bütün marketlərdə məhsullar 25-30 faiz baha satılır.

Xatırladaq ki, bu il Bakıda keçirilən I Avropa Oyunları ərəfəsində bəzi malların qiymətləri anidən 25-30 faizədək qaldırılmışdı. Lakin bunun süni qiymət artımı olduğunu bəyan edən hökumət qiymət artımına qarşı mübarizəyə başladı. İqtisadi İnkişaf Nazirliyi xeyli sayda marketi və firmanı qiymət artımına görə cərimələdi. Bununla da qiymət artımının qarşısı alındı. Avropa Oyunlarından sonra qiymət artımına rəsmən icazə veriləcəyi gözlənilən idi. Belə də oldu.

Bu gün də mağazalarda müşahidə apararkən qiymətlərin artmasının rəsmi şəkildə icazə əsasında həyata keçirildiyini öyrəndik. Mağazaların məsul şəxsləri də qiymət artımının olduğunu və artıq firmaların bunu rəsmi şəkildə elan etdiyini bildirdilər.

Məsələn, "Azərbaycan Coca-Cola Bottlers" MMC sentyabrın 7-dən sərinləşdirici içkilərin qiymətini artırdığını elan etdi. Məsələn, 20 qəpiklik 500 ml adi qazsız su əvvəlcə 25 qəpik, daha sonra isə 30 qəpiyə qaldırıldı. 1 litirlik "Coca-Cola" içkisi 60 qəpikdən 70 qəpiyə qaldırıldı.

Azərbaycanda fəaliyyət göstərən ən böyük marketlər şəbəkəsinin rəsmisi ilə söhbətimizdə məlum oldu ki, hazırda qiymət artımı etməyən sərinləşdirici içkilərdən "Pepsi" və "Hell"dir.

"Prokter & Gembl Azərbaycan Servisləri" MMC məhsulları 30 faiz qalxıb. MMC bazara "Oral-B Pro-flex" diş fırçası, "Duracell" batareyası, "Ariel" yuyucu tozu, "Blend-a-med Pro-expert" diş məcunu, "Pampers" və bir çox məhsullar buraxır.

"Milla" süd məhsulları da bazarda yeni qiymətlərlə satıcılara təqdim olunur. Ət və süd məhsulları istehsal edən "Səba" firması da qiymətləri 25 faizədək artırıb.

Ölkədə fəaliyyət göstərən ən böyük firmalar arasında yer alan "Avrora"a da qiymətləri 30 faizədək qaldırıb. Bu firma Azərbaycanda makaron, biskvit, peçenye kimi şirniyyat məhsullarının istehsalı, pərakəndə və topdansatışı ilə məşğul olur. Bazarda kifayət qədər tanınmış "Tanelli", "Doymak", "Laferella" markalı makaronlar bu firmanın məhsullarıdır.

Ölkə bazarında yerli məhsul istehsalına görə ön sırada yer tutan "Azərsun Holdinq" də qiymətləri artırıb. Lakin "Azərsun Holdinq"in qiymət artımı digərlərindən 4-5 faiz azdır. Holdinq özü qiymətlərin 4-5 faiz civarında qaldırıldığını təsdiqləyib. Səbəb olaraq isə Çində yuanın devalvasiyası göstərilib.

Hazırda mağazalarda satılan kənd məhsullarının qiymətlərində artım yoxdur. Yumurtanın qiyməti isə 0,5-1 qəpik arasında qaldırılıb. Böyük marketlər şəbəkəsinin özünün istehsal etdiyi şirniyyat mallarının da qiymətində hələ ki artım yoxdur. Mağaza əməkdaşları bunu unun qiymətinin bahalaşmaması ilə əlaqələndirirlər. Əgər unun qiyməti artarsa, bu da birbaşa şirniyyat məhsullarının qiymətinə təsir edəcək.

Qiymət artımı spirtli içkilərdə də müşahidə olunmur.

Siqaretin qiymətləri isə məlum olduğu kimi, bir neçə ay əvvəl 25 faizədək qaldırılıb.

Marketlərdə olarkən aldığımız cavablar bir-birinin oxşarı idi. Market əməkdaşları artımın firmalar tərəfindən aparıldığını, məsuliyyəti də onların daşıdıqlarını deyərək bizi əmin etməyə çalışdılar ki, qiymət artımı rəsmi şəkildə təsdiq olunub. Və bunun da məntiqi nəticəsidir ki, qiymətləri qaldıran heç bir firma cərimələnməyib.

**Marketlərdə olduğumuz zaman alıcılarla da söhbətləşdik. Hər kəs qiymət artımından şikayət edirdi. Bakı sakini Vidadi Ağakişiyev hər zaman aldığı ərzaq məhsullarının birdən-birə bahalaşdığını deyir:** "Mən hər həftə eyni marketə gedib, demək olar ki, eyni məhsulları alıram. Normalda kassada 25-30 manat civarında pul ödəyirdim. Amma ötən həftə 40 manat xərcim çıxıb. Hər alış-verişimdə ödəniş qəbzlərini saxladığım üçün evdə müqayisə etdim. Gördüm ki, bütün məhsullar 5-10 qəpik, bəziləri isə 20-30 qəpik bahalaşıb. Bu mənim ailə büdcəmə böyük ziyan vurur. Market sahibini, şirkətləri qınamıram. Manat "ölür". Onların nə günahı var ki?"

**Solmaz Zeynalova isə insanlardan qiymət artımını gizlətdiklərini deyir:** "Qiymətlər yavaş-yavaş artır. Artmayan məhsul ancaq çörək və yumurtadır. Nə sirdirsə, bizim camaat da qiymət artımını ancaq çörəklə ölçür. O da qalxmır. Elə düşünürlər ki, hər şey qaydasındadır. Mən müəlliməyəm. Hər şeyi çox yaxşı anlayıram. Marketlərdə qiymətlər qəpik-qəpik artır. Və bu indi başlamayıb. Sadəcə, səs salmadan, insanlar hiss etməsin deyə yavaş-yavaş qiymətləri qaldırırlar. Hər şey xaricdən gəlir. Yerli istehsal olsaydı, 5 dəfə də devalvasiya olsa bizə təsir etməzdi. İndi biz nə edək? Maaşlarımız onsuz da azdır. Azdan da azdır... Qiymətlər 20-30 faiz qalxırsa, bəs maaşlar nə olacaq? Onlar da artmalıdır. Qəribə ölkədə yaşayırıq. Maaşlar, gəlirlər stabil qalır, qiymətlər qalxır".

Fevral ayında baş verən ilk devalvasiya zamanı şirkət, firma və marketlərə qeyri-rəsmi qadağa qoyuldu. Bu qadağa qiymət artımı ilə bağlı idi. Hər kəsə "Qiymətləri qəti şəkildə artırmaq olmaz" qadağası tətbiq edildi. Buna görə də bir çox məqa şirkət və firmalar ipləri "sıxmağa" başladı.

Biznesmenlər qorxudan və məcburiyyətdən qiymətləri stabil saxladılar. Amma indiki zamanda artıq bu da mümkün görünmür. Və bunu anlayan hökumət artıq onlara qiymət artımına icazə verib. Əks halda isə ölkədə məhsul qıtlığı yaşana bilər. Bütün bunları gözə alan hökumət firmaların təbii qiymət artımına mane olmur.

❑ **İlkin MURADOV, Məhəmməd TÜRKMƏN**



# Gürcüstan ermənilərindən Azərbaycana həqarət

## QAT Gürcüstan səfirliyinə etiraz məktubu ünvanladı

**Qarabağ Azadlıq Təşkilatı (QAT) Gürcüstan vətəndaşı olan ermənilərin Dağlıq Qarabağa qanunsuz səfərləri və Azərbaycan bayrağını təhqir etmələrinə etiraz edib. Təşkilatın bununla bağlı Gürcüstanın Azərbaycandakı səfirinə göndərilən məktubda deyilir: "Erməni əsilli Gürcüstan vətəndaşlarının Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsinə qanunsuz səfərləri, orada Azərbaycanın dövlət atributlarını, o cümlədən bayrağını təhqir etmələri ilə bağlı faktları, şəkilləri sizə göndəririk. Hesab edirik ki, Gürcüstan rəhbərliyi bu məsələdə prinsipial mövqe tutmalı, ölkələrimizin dost münasibətlərinə xələl gəlməsinə imkan verməməlidir. Bu səfərlər Gürcüstandakı erməni təşkilatları və erməni kilsəsi tərəfindən təşkil olunur. Ermənilərin bu hərəkətləri işğalçılıq, separatizm və terrorizmin təbliğinə yönəlib. Bütün dünyada bu cür hərəkətlər qanunla qadağandır".**

**QAT ardınca bildirib:** "İnanırıq ki, Gürcüstan rəhbərliyi ermənilərin bu məkrli niyyətlərinin qarşısının alınması, bütün günahkarların, o cümlədən ictimai təşkilatların, erməni kilsəsinin məsuliyyətə cəlb olunması üçün dərhal və təsirli tədbirlər görəcək. Biz Azərbaycanla Gürcüstan arasında dost münasibətlərin olmasını istəyir və buna çalışırıq. Çox təəssüf ki, vaxtaşırı müəyyən problemlər ortaya çıxır və həmin problemlərin dost Gürcüstan rəhbərliyi tərəfindən vaxtında həll olunmaması ciddi narahatlıq yaradır. Azərbaycan əsilli Gürcüstan vətəndaşı Turqay Mikayılovun hələ də erməni əsirliyində qalması, azərbaycanlıların kompakt yaşadıqları Gürcüstan ərazilərinə Ermənistanın "sürünən" işğal hərəkətləri, Azərbaycanın bir sıra ictimai-siyasi xadimlərinin Gürcüstana buraxılmaması bu cür həll olunmayan və bizi narahat edən məsələlərdəndir. Vacib problemlərin həll olunmaması yenilərinin ortaya çıxmasına səbəb olur. Bu isə müəyyən məqamda hadisələrin arzuolunmaz istiqamətə yönəlməsinə gətirib çıxara bilər. Biz bunu istəmirik, inanırıq ki, Siz və Gürcüstan rəhbərliyi də istəmir".

QAT eyni zamanda bu məsələyə dair xarici işlər naziri Elmar Məmmədyarova müraciət göndərib, araşdırmalar aparılmasını xahiş edib.

❑ **Cavid TURAN**

# "Parabank"ın sahibinə oğlundan şikayət olundu

## Şirvanlı fermer İqbal Mikayılov Eldar Quliyevi görüşə dəvət etdi: "Sizə anladacaqlarım var..."

**Şirvan şəhər sakini İqbal Mikayılov "Parabank"ın sahibi Eldar Quliyevə müraciət edib. O, müraciətinin bir nüsxəsini musavat.com-a yollayıb. İ.Mikayılov Eldar Quliyevə xitabən yazır ki, sahib olduğu "İlham" MMC kəndli fermer təsərrüfatının işləri iflic olub:**

""Parabank" ASC-nin İdarə Heyətinin sədri olan oğlunuz Vəli Quliyev tərəfindən 5 aydır süründürməçiliyə məruz qalmışam. Bütün işlərim onun üzündən iflic olub. Mən oğlunuz Vəli Quliyevin sayəsində artıq "İlham" MMC kəndli fermer təsərrüfatını bağlamaq qərarına gəlmişəm. Sahibkar kimi fermer qurduğum təsərrüfatı oğlunuz Vəli Quliyev yarımçıq qoymağıma nail olmaq istəyir. 2015-ci ili ölkə prezidenti İlham Əliyev kənd təsərrüfatı ili elan edib. Mən də bir vətəndaş olaraq dövlət başçısının bu qərarından ruhlanıb özümə fermer təsərrüfatı yaratmışam. Amma gerçəklik budur ki, oğlunuz bu işlərə pəl vurmağa çalışır".




**Məktub müəllifi yazir:** ""Parabank"da oğlunuz Vəli Quliyev başda olmaqla, kimsə ilə görüşmək mümkün deyil. Kamil adlı departament rəhbərindən savayı. Mən Kamil adlı gənc departament müdiri ilə ilk dəfə görüşəndə öz-özümə nifrət elədim ki, gör bizim taleyimizi kimlər həll edir.

Hörmətli Eldar müəllim. Mən sizə məcburiyyət qarşısında qalıb mətbuat vasitəsi müraciət etdim və 5 ayda "Parabank"da gördüklərimi hələ ki ictimailəşdirmək istəmədim. Bilirəm, sizin "Parabank"da baş verənlərdən məlumatınız yoxdur. Ona görə mən Azərbaycan Respublikasının vətəndaşı kimi, sahibkar kimi xahiş edirəm, vaxt, məkan müəyyənləşdirin, görüşüb dərdimi sizə deyim. Sizə mətbuat vasitəsilə deyil, üz-üzə deyiləsi çox sözüm və suallarım var. Səbirsizliklə Eldar Quliyevin şəxsən özündən cavab gözləyirəm".

YENİ MÜSAVAT
N 200 (6228) 10 sentyabr 2015

# XİN-də qalmaqal səngimək bilmir

## Fəzail Ağamalı: "Xaricdəki diplomatlarımıza da qarmaq atılıb"



Fəzail Ağamalı

**Azərbaycan Xarici İşlər Nazirliyi daxilində baş verən məlum diplomatik qalmaqallar səngimək bilmir. Mayın 19-da Binəqədidə baş verən yanğın hadisəsi ilə bağlı İslam Əməkdaşlıq Təşkilatının Avropa İttifaqındakı sabiq səfiri Arif Məmmədovun statusu ilə başlayan qalmaqala daha biri əlavə olunub.**

Belə ki, Avstraliyadakı səfirimizin əməkdaşı Anar Həsənov XİN sistemindəki qanunsuzluqlar və korrupsiya faktları ilə bağlı açıqlama verib. Məsələyə münasibət bildirən nazirlik onun işdən qovulduğunu açıqlayıb. Göründüyü kimi, XİN problemin həll yolunu narazıların işdən qovulmasında axtarır.

Son aylarda XİN-də baş verənlərdən sonra bir nüans diqqəti çəkdi. Qurumdakı narazılıq əsasən daxildən kənarda baş verir. Heç şübhəsiz ki, bütün bunlar Azərbaycanın xarici siyasətinə ciddi zərbə vurur. Xüsusilə Dağlıq Qarabağ probleminin həll yollarına da təsirsiz ötüşmür.

**İqtidaryönlü deputat Fəzail Ağamalı** da bu düşüncədədir. O, XİN-in atdığı addımları dəstəklədiyini bildirdi: "Binəqədidə baş verən yanğın hadisəsi ilə bağlı sabiq diplomatın, diplomatik qaydalara sığmayan açıqlamalar verməsi təbii ki, bu sahədə xoşagəlməyən məqamlar yaratdı. Bir vətəndaş kimi, öz təəssüfünü bildirə bilərdi. Başadüşülən olardı. Bütün bunlardan dolayı o, diplomatik siyasətçi kimi öz mövqeyini ortaya qoyanda təbii ki, Xarici İşlər Nazirliyi addımını atmalı idi. Nazirliyin addımını müdafiə edirəm. Çünki bu cür hallar yaramaz. Diplomat, siyasətçi öz işi ilə məşğul olmalıdır. Jurnalist də peşəsinə uyğun fəaliyyət göstərməlidir. Hər şey yerində olanda problem ortaya çıxmır. Peşələr və onların daşıyıcıları yerlərini dəyişəndə, hər zaman problem yaranır. Yaranan problemin kökündə bunlar dayanırdı. KİV-lərin məlumatına görə, Avstraliyada yoxlamalar zamanı həmin şəxsin günahı üzə çıxmışdı. Bunlar ciddi araşdırmalar tələb edir. Bununla bağlı nazirlik açıqlamasını verib. Çox yaxşı olardı ki, nazirlik onun günahları ilə bağlı mətbuata geniş açıqlama versin. O zaman hansı tərəfin günahının çox olduğu üzə çıxacaq".

**Deputat indiki vəziyyətdə bu məsələlərin ortaya çıxmasının Qarabağ probleminin həllinə ciddi əngəl törətdiyini də qeyd etdi:** "Anti-Azərbaycan qüvvələrin ciddi fəaliyyətə keçdiyi bir vaxtda belə məsələlərin ortaya çıxması və bununla bağlı irəli sürülən bəzi fikirlər yanlış yanaşmadır. İstefaya göndərən də ölkə prezidentidir, vəziyə qoyan da. Ümidlərlə, ekspertlərin fikirləri ilə indiyə qədər heç kəs vəzifədən çıxarılmayıb, heç kim də vəzifəyə təyin olunmayıb. Dağlıq Qarabağ məsələsinin həllinin aktiv fazaya keçdiyi ərəfədə bu məsələləri Xarici İşlər Nazirliyinin və onun rəhbəri Elmar Məmmədyarovun üzərində cəmləşdirmək indiki durumda yol verilən deyil. Hər addım atanda, dövlətimizin maraqlarını düşünməliyik. Çünki bu nazirlik ölkəmizin imicinə müsbət və mənfi amillər gətirəcək ciddi qurumdur. Dünya ölkələrində də belədir. Ona görə də qələm əhlindən xahiş edərdim ki, bu məsələlərə diqqətli yanaşsınlar. İndiki durumda Elmar Məmmədyarovun üzərinə getmək nazirliyin üzərinə getmək anlamına gəlməlidir".

**F.Ağamalı baş verənlərin Azərbaycanın xarici siyasətinə ciddi zərbə olduğu qənaətindədir:** "Arif Məmmədov məsələsi ortaya çıxanda dedim ki, o, artıq təsir altına alınmış şəxsdir. Çünki vətənini, ölkəsini sevən diplomat xaricdə o cür bəyanatlar verməməli, Azərbaycanın üzərinə getməməlidir. O, artıq koordinator rolunu oynayır. Elə zənn edir ki, kim Xarici İşlər Nazirliyindən narazı olsa, ona müraciət edə bilər. Kim bu səlahiyyəti sənə verib? Bunun arxasında kimlər dayanır? Sən özünün ətrafında yuva qurursan, ora anti-Azərbaycan qüvvələri cəm edirsən. Xaricdə olan, vəzifə gözləyən, yaxud vəzifəsinin artmasını gözləyən, həyata keçmədiyinə görə narazı qalan şəxsləri də ətrafına cəm edirsənsə, hər şey ortadadır. Görün hansı cəsarəti daşıyır, ultimatum göndərir ki, xaricdə nazirliyin alternativ qurumu yaradıla bilər. Mənə elə gəlir ki, bu danışdırılan, Azərbaycana qarşı axtarılıb tapılan bir şəxsdir. Bunlar açıq şəkildə hiss olunur. Onun açıqlamaları bu fikirləri səsləndirməyə əsas verir. Ona görə də xarici diplomatlar bu məsələlərə diqqət yetirməlidirlər. Diplomatlar xüsusi olaraq seçilməlidir. Xahişlə, kiminsə qohumu olması ilə xaricdə diplomatik korpus formalaşdırmaq olmaz. Şəxsi keyfiyyətlərə ciddi önəm vermək lazımdır. Azərbaycana qarşı aparılan kampaniya çərçivəsində indi məlum olur ki, qarmaqlar xaricdəki diplomatlarımıza da atılıb və atılmaqdadır. Bir daha hesab edirəm ki, bütün günahları Elmar Məmmədyarovun üzərinə atmaq ədaləti, həqiqəti özündə əks etdirmir".

❑ **Cavanşir ABBASLI**

# Prezident cangüdənləri və onların qəbrə gedən sirləri

## Abdulla Gülün şəhid olan cangüdəni hansı həqiqəti üzə çıxardı?



**Rusiya saytları bugünlərdə dünya prezidentlərinin cangüdənləri ilə bağlı maraqlı dosye hazırlayıb. Dosyeyə görə, cangüdənlik yolu keçənlərin həyatı çox parlaq, qayğısız görünsə də, əslində mənzərə tamam fərqlidir.**

### Ölən, öldürülən cangüdənlər...

8 sentyabrda Türkiyənin baş naziri Abdulla Gül şəhid olan əsgərlərdən birinin onun keçmiş cangüdəni olduğunu deyəndən sonra isə sözügedən institut barədə xeyli maraqlı faktlar ortaya çıxıb... Sən demə...

Birincisi, bu vəzifənin daşıyıcıları heç də dəbdəbəli həyat tərzi keçirmirlər. Onların həyatı olduqca ciddi sirlərlə doludur. Qatı açılmayan cinayətlərin baş qəhrəmanı çox vaxt onlar olur. Ya qurban, ya da qatil kimi.

Məsələn, 6 may 2014-cü ildə Venesuelanın paytaxtı Karakasda ölkə prezidenti Nikolas Maduronun cangüdənlərindən biri öldürülüb. Cangüdən leytenant Marko Kortes mayın 4-də paytaxt rayonlarından birində qətlə yetirilib. Şəxsi avtomobili ilə hərəkət edən Kortesə onun yanından ötüb keçən avtomaşından atəş açılıb. Cinayətkarların məqsədi M.Kortesin avtomobilini ələ keçirmək olub. Qəzetin məlumatında deyilir ki, M.Kortes son altı ildir, prezidentin şəxsi mühafizəsində çalışır. Bunadək o, həmçinin N.Maduronun sələfi Uqo Çavesin də mühafizəçisi olub.

2014-cü il avqustun 20-də isə Özbəkistan prezidenti İslam Kərimovun mühafizə xidmətində çalışan snayper-cangüdən başına güllə sıxmaqla həyatına son qoyub. Bu, özbək xüsusi xidmət orqanları əməkdaşının özünə qəsd etməsinə dair ilk belə fakt deyil. Fərqanə vilayətində çalışan çekistlərin biri də bir neçə il qabaq xidməti "Makarov" tapançasından özünə atəş açmaqla intihar edib. Daha əvvəl isə Özbəkistan Daxili İşlər Nazirliyinin yüksək rütbəli əməkdaşı özünü güllələyib.

### Prezident cangüdəni öncə düşünməyi bacarmalıdır

Prezidentin şəxsi mühafizəsində işləmək asan məsələ deyil. Orada bir sıra keyfiyyətlər tələb olunur ki, onlara sahib olmalı, eyni zamanda isə psixofiziki hazırlığa yiyələnməlisən. Fiziki parametrlər də öz yerində. Cangüdən 35 yaşından yaşlı olmamalı, boyu ən azı 175, çəkisi isə 75-90 kilo olmalıdır. "Cangüdən olmaq istəyən şəxs daha öncə harada işləməlidir" sualına cavabda isə müəyyənləşib ki, bu iş üçün hərbi təcrübə vacibdir. Keçmiş əməliyyatçılar da prezident mühafizəsinə yaramır. Ekspertlər söyləyir ki, onlarda çoxlu zərərli, lazımsız vərdişlər formalaşdığı üçün bunu yeni işində istifadə edəcəyi ehtimalı da yüksəkdir.

Prezident cangüdəni ilk növbədə nəyi bacarmalıdır? Bu suala cavabda mütəxəssislər bildirib ki, o, ilk növbədə düşünməyi bacarmalıdır. Operativ psixologiya, təhlükəni öncədən duyma qabiliyyətinə malik olmalıdır. Karate, cüdo kimi idman növlərini bilməsi arzuolunandır, amma idmançı səviyyəsində yox. Şəxsi mühafizədə əl davaları vacib rol oynayır. Cangüdən mütləq 30-a yaxın hərbi fənd bilməlidir. Maşını ekstremal şəraitdə idarə etməyi bacarmaq, zəhərlərdən baş çıxarmaq da prezident cangüdəni üçün tələb edilən cəhətdir.

### Cangüdən güclüdür, amma öz hesabına yox...

Prezident cangüdəni mükəmməl səviyyədə olmasa da, ingilis dilini bilməli, prezidentlə bərabər hərəkət edəcəyi üçün etiket qaydalarına bələd olmalıdır.

Prezidenti qoruyursansa, öncə öz bədənini, ağlını, sağlamlığını qorumalısan. Bayırda şaxta varsa, cangüdən qat-qat, qalın paltar geyə bilməz. Çünki bu, onun aktiv hərəkət etməsinə maneçilik törədə bilər. Bundan başqa, yayın cırhacırında da tərləməmək, istidən təngnəfəs olmamaq cangüdənin ümdə vəzifəsidir.

Məlumatlara görə, onların güclü olmasına bəzi preparatlar kömək edir. Onların yardımı ilə cangüdənin bədənindəki bəzi fizioloji proseslər daha da güclənir. Eşitmə, görmə qabiliyyəti daha da həssaslaşır, intuisiyası möhkəmlənir. Yeri gəlmişkən, prezident cangüdəninə siqaret çəkməyə icazə var. Çünki siqaret stressi aradan götürür. Amma bu, təbii ki, orqanizmi gücdən salır və son nəticədə cangüdən 35 yaşında təqaüdə göndərilir.

Amma bir məqamı da qeyd etmək yerinə düşər ki, prezident mühafizəsində çalışmaq risk tələb edir. Məsələn, 1999-cu ildə təkcə Amerika prezidentinin məxfi xidmətində 31 əməkdaş qətlə yetirilib. 2003-cü ildə isə məxfi xidmət ölən və yaralananlarla bərabər 34 xəfiyyə itirib. Təbii ki, bu itkilərin detalları açıqlanmır.

Amerikanın keçmiş prezidenti Reyqanın şəxsi mühafizəsində çalışmış Con Barletta isə deyir ki, 21-ci əsr cangüdənlərinin işi çox çətindir. Belə ki, indi texnikanın imkanları kosmik sürətlə inkişaf etdiyindən zərbənin haradan gələcəyini proqnozlaşdırmaq da mümkün deyil: **"İndi təkcə tapança, avtomat və ya snayperdən gələn təhlükə ilə iş bitmir. Təyyarə, raketdən açılacaq zərbə, jurnalist, narazı vətəndaş qiyafəsində prezidentə yaxınlaşa biləcək şikayətçi... Bunların hamısını düşünəndə cangüdən dinc həyatı ancaq yuxusunda görə bilər".**

### Yumurta, mayonez, pomidor hücumları - cangüdənlər ondan qorxur...

Yumurta, mayonez, pomidor hücumları cangüdənlərin qorxulu röyası olub. İlk baxışda gülməli görünə biləcək bu "silahlar" nadir halda da olsa xarici səfərə gedən prezidentlərin başına bəla açır. Rusiya mətbuatına inansaq, Putin bir, Medvedyev isə iki dəfə belə hücuma məruz qalıb. Amma cangüdənlər nə özlərini, nə də müdafiə etdikləri şəxsləri bu "silahdan" qoruya bilmir. Son vaxtlar bu sayaq hücumları zərərsizləşdirmək, məsələn, onların ləkəsini saxlamayacaq geyimlər tapmaq prezident mühafizələrində ən aktual mövzudur. Artıq bununla bağlı lazımi addımlar da atılır.

Yaltada bir neçə il öncə keçirilən cangüdənlərin 4-cü çempionatında isə onlar mediaya birinci şəxslər və oliqarxların mühafizəsindəki fərqlərdən danışıb. Onlar bildiriblər ki, siyasətçilərin, ölkə rəhbərlərinin cangüdənliyini etmək oliqarxlarla işləməkdən daha asandır. Çünki siyasətçilər oliqarxlardan daha intizamlıdılar və məsləhətə də qulaq asırlar. Bu mənada biznesmenlərin də maraqlı iş ortağı olduğu deyilir. Onlar da öz çeviklikləri ilə fərqləndikləri üçün cangüdənlərin sevimlisidir.

Oliqarxlar qeyri-təvazökarlıqları və tez-tez əhval dəyişkənlikləri ilə fərqlənsələr də, siyasətçilərdən fərqli olaraq pul məsələsində daha səxavətlidilər.

Cangüdənlərin 12 saatlıq iş rejimi olmalıdır. Əks halda, onlar ayıq-sayıqlıqlarını saxlaya bilmək üçün psixoloji güc toplaya bilmirlər. Birinci şəxslərin, eləcə də VİP-in hər belə səfəri ciddi hazırlıq tələb edir. Öncə səfər olunacaq məkanda axtarış əməliyyatı aparılır, sonra həmin bölgə analiz edilir, ardınca səfər edəcək heyət ora yola düşür.

Bu arada o da müəyyənləşib ki, birinci şəxslərin cangüdənləri çox tez bir zamanda hərbi rütbədə "yüksəklikləri fəth edir". Gizir mərtəbəsinə yüksələ biləcək cangüdən çox tez bir zamanda general olur. Onlar eyni zamanda sədaqətli qulluq faktına görə hökumətdən ev də alırlar. Bununla yanaşı, çox qəribə səbəblərdən töhmət alan cangüdənlər də az deyil. Məsələn, Ukraynanın sabiq prezidenti Leonid Kuçma Xarkova səfərlərindən birində yaşadığı kuryoza görə cangüdəninə töhmət verdirib. Belə ki, Kuçmanın qalacağı hoteldə cangüdən heyəti yoxlama aparıb, yeyəcəyi yeməkdən, geyinəcəyi paltara qədər hər şeyi nəzarətdən keçirib. Amma gecə prezidentin yatdığı yataq qırılıb. Buna görə də bütün heyət şiddətli töhmət alıb.

❑ **SEVİNC**

Yeni MÜSAVAT
N 200 (6228) 10 sentyabr 2015

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



# Moskvadan Qarabağla bağlı çoxgedişli kombinasıya

## Rusiya bir tərəfdən Ermənistanı qızışdırır, ardınca da Bakıya ağır alovsaçan qurğular satır...

**Rusiya XİN başçısı Sergey Lavrovun Bakıya bir gecəlik səfərindən və cəbhədə itkilərlə müşayiət olunan gərginliklərin ardınca Ermənistan prezidenti Serj Sərkisyanın Moskvaya çağırılması gündəmin əsas müzakirə mövzularından biri olaraq qalır.**

Azərbaycanın genişmiqyaslı hərbi təlimlərə başladığı bir ərəfədə erməniləri təşvişə salan situasiya yaranıb. Bu arada erməni mediası Kremlin təzyiqləri nəticəsində Dağlıq Qarabağ ətrafındakı rayonların Azərbaycana qaytarıla biləcəyi barədə hay-küy salmağa başlayıb. Üstəlik, Rusiya və Qərb KİV-lərində Moskvanın ATƏT-in Minsk Qrupundan kənarda Qarabağ məsələsinin tənzimlənməsi üzrə “gizli plan”ının olmasına dair yazılarla çıxış edirlər. Lragir.am saytının baş redaktoru Aykazn Qaqiryanın fikrincə, Lavrovun Bakı səfəri cəbhədə gərginliyin kəskinləşməsi fonunda baş verib ki, bu da Rusiyanın “strateji tərəfdaşı” olan Ermənistana bir mesajıdır (azvision).

**“Əgər Moskva istəməsəydi, onda Azərbaycan Ermənistanı atəşə tutmazdı. Bu, hamıya aydındır” - müəllif vurğulayıb. Məqalədə iddia olunur ki, Rusiya öz planının həyata keçirilməsi üçün hətta Ermənistanın maraqlarını qurban verməyə də hazırdır:** “Azərbaycan Ermənistandan fərqli olaraq Avrasiya ölkəsidir və Rusiyadan iqtisadi və siyasi imtiyazlar alır. Lakin indi Rusiya elə vəziyyətdədir ki, Bakı ondan artığını tələb edə bilər”.

**Rusiyanın politrus saytı isə yazıb ki, Lavrovun Bakı səfərinin detalları yayılmasa da, fərz etmək mümkündür ki, Rusiya Qarabağ münaqişəsinin həlli üçün yeni plan təklif edir:** “Həm də bu təklif indi yox, Vladimir Putinin I Avropa Oyunlarının açılış mərasimində iştirakı zamanı Bakıya təqdim olunub”.

Bütün bu mətbuat yazıları şübhəsiz ki, fərqli maraqlara xidmət edir. İstənilən halda Rusiyanın Qarabağ kartından imtina etmək niyyətinin olmadığı çoxlarına məlumdur. Moskva münaqişə faktorundan istifadə edərək bölgədə daha da möhkəmlənmək istəyir. Əks təqdirdə, BMT-nin toplantısı çərçivəsində Azərbaycan və Ermənistan prezidentlərinin ABŞ-da nəzərdə tutulan görüşünün belə baş tutmaması üçün Kreml bu qədər çeşidli planlar qurmazdı. Moskva gah bu, gah da digər dövlətə “stavka” etməklə sadəcə status-kvonu saxlamağa çalışır, eyni zamanda tərəfləri özündən asılı saxlamağa səy göstərir.

Ermənistana 200 milyonluq kredit vəd edən, qazın qiymətini endirən və bununla da erməni ictimaiyyətinin antirus ovqatını dəyişməyə çalışan Rusiya paralel olaraq bundan narahatlıq keçirən Azərbaycana növbəti silah partiyasını satmağa qərar verib. Düzdür, Rusiyadan silahı pulsuz alan Ermənistan Azərbaycanın böyük pullar hesabına Moskvadan silah almasını da sinirə bilmir. Lakin Moskva bu məsələdə də ikibaşlı qazanc əldə edir. Onun satdığı və pulsuz verdiyi silah-sursat Qarabağ cəbhəsində və ya Azərbaycan-Ermənistan sərhədində istifadə olunur. Yəni hər iki tərəfdə rus silahı işə yarayır ki, Moskva da bu münaqişə ocağından qazanc götürməkdə davam edir.

Yayılan məlumata görə, Rusiya ikitərəfli müqavilələr çərçivəsində Azərbaycana T-90C tankları, BMP-3, özüyeriyən artilleriya qurğuları, ağır alov saçan sistem göndərir. TASS-ın yaydığı xəbərə görə, bu barədə Rusiya Strateji Təhlil və Texnologiyalar Mərkəzi bildirib. “Rosoboroneksport” şirkətinin baş direktorunun müavini İqor Sevastyanov isə Rusiya texnikası və silah-sursatına olan xarici sifariş portfelinin 12 milyard dolları keçdiyini bildirib. Görünən budur ki, Moskva Sərkisyanı çağırıb onu instruktaj edəndən sonra Azərbaycana növbəti silah partiyasını göndərməyə qərar verib. Bütün bu gərgin situasiya ekspertlərin də diqqətindədir.

**Politoloq Arzu Nağıyev “Yeni Müsavat”a dedi ki, Sərkisyanın Putinlə görüşü əsasən hesabat və təlimat xarakterli idi:** “Əsas məqsəd də bu gün iqtisadi cəhətdən tənəzzülə uğramış bir ölkədə artan ictimai narazılıqların az da olsa, qarşısını almaq üçün kömək ummaq və bununla ictimai rəyi öz xeyrinə formalaşdırmaq idi. Məlumdur ki, Ermənistan iqtisadiyyatının yarıdan çoxu Rusiyanın inhisarındadır və bu istiqamətdə Sərkisyan enerjidaşıyıcılarının, o cümlədən qazın qiymətinin aşağı salınması məsələsini qaldırdı və bunun da əsas məqsədi öz hakimiyyətini saxlamaq üçün geniş kütləyə bir mesaj verdi. Rusiya da bir tərəfdaş olduğunu göstərdi və qazın qiymətini 189 dollardan 165-ə salmağa razılıq verdi. Eyni zamanda Moskva Ermənistandakı Atom Elektrik Stansiyasının modernləşdirilməsi üçün sərmayə qoymağı planlaşdırır. Bizim üçün önəmli məsələ əlbəttə ki, Dağlıq Qarabağ münaqişəsi və onun həlli yollarıdır. Təbii ki, Sərkisyan Putinlə bu məsələni müzakirə edib və gözlənildiyi kimi, Rusiya bir daha birmənalı şəkildə Ermənistanla tərəfdaş olduğunu göstərdi. Sərkisyan əvvəlcədən düşünülmüş və bu məqsədlə son zamanlar tez-tez istifadə edilən iri çaplı silahlardan guya Azərbaycan tərəfinin istifadə etdiyini iddia etdi və bunun qarşısının alınması üçün yeni silah əldə etmək arzuları olduğunu bildirdi”.

**A.Nağıyev qeyd etdi ki, bunun müqabilində Rusiya Ermənistana 200 milyon dollar həcmində güzəştli kredit ayırdı:** “Təbii ki, hazırda Rusiyanın bu krediti belə ödəməyə nə imkanı, nə də marağı yoxdur və onun əvəzində Ermənistana silah veriləcək və ya orada olan bazalarından ötürüləcək. Yəni əsas məqsəd Sərkisyanı iqtidarda saxlamaq və İrəvanı silahlandırmaq idi . Bu isə Dağlıq Qarabağ münaqişəsində status-kvonu bir müddət də uzatmaq deməkdir. Təbii ki, Rusiya bir daha Ermənistanın Avrasiya İttifaqına üzv olduğunu qabardır və KTMT-dəki üzvlüyünün mühümlüyünü ön plana çəkir. Bununla yanaşı, son görüşün əsas məqsədlərindən biri ABŞ-ın Dağlıq Qarabağ münaqişəsinin həllində təşəbbüsünün qarşısını almaq və Rusiyanın nüfuzunun artırılması üçün təzyiqlər göstərməkdir. Təəssüf hissi ilə qeyd edilməlidir ki, münaqişənin tezliklə həll ediləcəyi bu görüşdən sonra real görünmür. Deməli, problemin həlli öz üzərimizə düşür və bu məqsədlə ordumuzun taktiki təlimləri davam etdirilməli, düşmən güc yolu ilə danışıqlar masasına əyləşdirilməlidir. Çünki istər ATƏT-in, istərsə də digər beynəlxalq qurumların bəyanatlarının öz həllini tapmaması çox məntiqlərdən xəbər verir”.



**Arzu Nağıyev:**
“Putin-Sərkisyan görüşünün əsas məqsədlərindən biri ABŞ-ın münaqişənin həllində təşəbbüsünün qarşısını almaqdır”



**Elxan Şahinoğlu:**
“Sabah Putin Sərkisyana Dağlıq Qarabağ ətrafındakı rayonları boşaltmağı tapşırsa, Ermənistan prezidenti buna müqavimət göstərə bilməyəcək”

**“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu da baş verənlərin arasında ciddi əlaqə olduğu qənaətindədir:** “Rusiya prezidenti Vladimir Putin xarici işlər naziri Sergey Lavrovu əvvəlcə Bakıya göndərdi, 3-4 gün sonra isə erməni həmkarı Serj Sərkisyanı Moskvaya çağırdı. Kremlin bu kombinasiyaları bölgədə sülhü yaxınlaşdırmır, əksinə, cəbhə bögəsindəki gərginlik artmaqda davam edir. Əvvəlcədən bəlli idi ki, Sərkisyan Putinə şikayət edəcəkdi ki, Azərbaycan atəşkəsi pozur, Dağlıq Qarabağın ətrafına ağır texnika yığır, Türkiyə ilə birgə hərbi təlimlər keçirir və s. Belə də oldu. Ən maraqlısı Putinin ona verəcəyi cavab idi. Hər halda, əminliklə onu deyə bilərəm ki, Putin Sərkisyana ”Dağlıq Qarabağ ətrafındakı torpaqları boşalt, sülhə yaxınlaşaq" deməyib.

**E.Şahinoğlunun fikrincə, köləliyin də qiyməti var:** “Lavrov Bakıya gəlir və bizi xəbərdar edir ki, işğalçıya qarşı müharibəyə başlamayın, o biri tərəfdən də baş işğalçını Moskvaya çağırıb deyirlər ki, ”möhkəm ol, arxandayıq, bu da sənə silah üçün pul". Ermənistan prezidenti Moskvaya dilənməyə və yalvarmağa getmişdi. Ermənistan silah yarışında açıq-aşkar Azərbaycana uduzur. Silah almaq üçün pulu yoxdur. Bunun qarşılığında isə Azərbaycan silahlanmaya milyardlarla dollar xərcləyir. Buna görə də iki qarşıduran tərəf arasında güclü disbalans yaranıb. Ermənistan hakimiyyəti bundan çıxış yolları axtarır. Çünki bir tərəf silahlanmada qarşısındakını dəfələrlə üstələyirsə, bu, mümkün müharibənin nəticəsinə də təsir edəcək. Ermənistan özünü Rusiyanın bazaları hesabına qoruyur. Ancaq Azərbaycanla müharibə zamanı həmin hərbi bazalar Ermənistanın işinə yaramaya da bilər".

**Ekspert fikrini bununla əsaslandırır ki, Azərbaycan Ermənistana hücum etməyəcək, Dağlıq Qarabağ və ətraf rayonları azad etməyə çalışacaq. Demək, Rusiya hərbi bazalarının Azərbaycanı hədəf almaq üçün hüquqi əsasları yoxdur. Həmin bazalar və rus silahı Ermənistanı qorumalıdır, Dağlıq Qarabağı yox:** “Buna baxmayaraq, Ermənistan bir yolla özünə silah tapmalıdır. Həmişəki kimi də Ermənistanı bu durumdan Rusiya xilas edir. Sərkisyanın Putinlə göüşünün əsas nəticəsi odur ki, silah və sursat almaq üçün Rusiya Ermənistana 200 milyon dollar güzəştli kredit verəcək. Əslində bu kreditin adı ”güzəştlidir". Ermənistanın elə bir imkanı və əlavə gəlir mənbəyi yoxdur ki, bu krediti vaxtında qaytarsın. Sərkisyanın Putinlə görüşdən əldə etdiyi ikinci nəticə Rusiyadan aldığı qazın qiymətinin ucuzlaşması oldu. Bu, Ermənistan üçün çox vacibdir. Çünki xalq ayağa qalxıb, enerji və elektrik qiymətlərinin endirilməsini istəyir".

**E.Şahinoğlu xatırlatdı ki, Rusiya Ukraynaya qazı min kubmetrə görə 268 dollara satdığı halda, Ermənistana 165 dollara satacaq:** “Əslində Ermənistan heç bu pulu da vaxtında ödəmək istidarında deyil və bəlkə Rusiya yaranan borca görə İrəvana heç nə deməmdi. Halbuki Kreml Ukraynanı qaz borcuna görə sıxışdırır, beynəlxalq məhkəmələrlə hədələyir. Rusiyanın Ermənistana silah almaq üçün güzəştli kredit verməsi, ucuz qaz satması Kremlin Azərbaycana xoş olmayan mesajıdır. Rusiya hakimiyyəti vəd etdiyi kimi, Dağlıq Qarabağ münaqişəsinin həllini sürətləndirmək əvəzinə işğalçını işğalı davam etdirməyə həvəsləndirir. Ancaq o da məlumdur ki, Rusiyanın Ermənistana etdikləri əvəzsiz deyil. Bunun qarşılığında Ermənistan Rusiyanın bütün geosiyasi tapşırıqlarını vaxtı-vaxtında yerinə yetirməlidir. İrəvan Moskvanın bir sözünü iki edə bilməz. Məsələn, əgər sabah Putin Sərkisyandan Dağlıq Qarabağ ətrafındakı rayonları boşaltmağı tapşırsa, Ermənistan prezidenti buna müqavimət göstərə bilməyəcək. Əks halda, həm hakimiyyətini itirər, həm də ölkəsini sosial uçuruma yuvarlandırar”.

**Xatırladaq ki, Sərkisyan Putinlə görüşdə Azərbaycandan şikayət edib, atəşkəsin pozulmasına görə bizi ittiham edib, hətta bu məsələni Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) yaxınlarda Tacikistan paytaxtı Düşənbədə keçiriləcək zirvə toplantısında müzakirəyə çıxaracağını deyib. E.Şahinoğlu hesab edir ki, bu, sadəcə, tamaşadır:** “Çünki Kollektiv Təhlükəsizlik Müavilәsi Təşkilatında Rusiyadan başqa heç bir dövlət Ermənistanı Azərbaycan torpaqlarının işğalına həvəsləndirmir, əksinə, Belarus və Qazaxıstan prezidentləri Azərbaycanın mövqeyinin haqlı olduğuna işarə edirlər. Sadəcə, Ermənistan məsələni bu təşkilatda qaldırmaqla atəşkəsin pozulmasını bir daha Azərbaycanın üzərinə yükləmək istəyir. Müharibə başlasa Rusiyadan başqa KTMT-nin heç bir dövləti Ermənistana arxa durmayacaq. Sərkisyanın Putinlə görüşündə bir detal da diqqəti cəlb etdi. Sərkisyan rusiyalı əsgər Permyakovu Ermənistan məhkəməsinə təhvil verdiyinə görə ona minnətdarlığını bildirdi. Başqa nə olmalı idi ki? Permyakov iki azyaşlı uşaq da daxil olmaqla, Ermənistanın 5 mülkü vətəndaşını vəhşicəsinə qətlə yetirmişdi. Permyakov Ermənistanda mühakimə olunmasaydı, bu ölkədə aləm bir-birinə dəyəcəkdi. Yəqin Sərkisyan Putinə dolayısı ilə ona görə minnətdardır ki, onu xaosdan xilas edib”.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Cavid TURAN

## Bərdədə toyda qız evi ilə oğlan evi arasında dava düşdü - 6 yaralı



**Bərdə rayonunda qız və oğlan evi arasında dava düşüb. Report.az xəbər verir ki, hadisə şəhərin Heydər Əliyev prospektində yerləşən "Nəşricahan" şadlıq sarayında rayonun Gərənə kənd sakini Müşfiq Allahverdi oğlu Məmmədovun toy mərasimində qeydə alınıb.**

İlkin məlumatlara görə, hadisə toyda oynamaq üçün musiqi sifarişi üstündə baş verib. Qız və oğlan evi arasında baş verən davada gənclər bir-birinə xəsarət yetiriblər. Təxminən 20-yə yaxın gəncin iştirak etdiyi kütləvi davada 6 nəfər müxtəlif bədən xəsarətləri ilə xəstəxanaya yerləşdirilib. Qeyd edək ki, dava səbəbindən Müşviq və Arzunun toyu yarımçıq dayandırlaraq vaxtından əvvəl başa catıb.

## Voleybol Federasiyasının işçiləri 4 aydır maaş ala bilmir

**Voleybol Federasiyasının işçiləri artıq 4 aydır ki, maaş ala bilmirlər. Redaksiyamıza daxil olan məlumatlara görə, Avropa Oyunları zamanı heç bir yer tuta bilməyən Voleybol Federasiyasının işçilərinə o vaxtdan bu günə qədər əmək haqları verilmir. Əvvəllər Voleybol Federasiyasını Cavid Qurbanov maliyyələşdirirdi.**

Onu "Azərbaycan Dəmir Yolları" QSC-yə keçirdikdən sonra yerinə Taleh Behbudovu təyin etdilər. İşçilər haqları olan maaşlarını istəmək üçün C. Qurbanova müraciət etdikdə, C.Qurbanov onun artıq bu işdə heç bir məsuliyyət daşımadığını və işçilərin maaşlarını yeni təyin edilmiş Taleh Behbudovdan istəmələrini tələb edir. T. Behbudov federasiya işçilərinə onun hələ ki bu vəzifəyə təsdiqlənmədiyini və buna görə də işçilərin maaşını verə bilməyəcəyini bildirib. İçilər Azərbaycan Voleybol Federasiyasının prezidenti Ziya Məmmədovdan müsbət cavab ala bilməyiblər. 4 aydır ki, maaşlarını ala bilmədiklərini deyən işçilərə Z.Məmmədov hazırkı maliyyə durumunun işçilərin maaşlarını verməyə yetmədiyini bildirib. Bundan əlavə, legioner oyunçular artıq Voleybol Federasiyasını məhkəməyə verib. Artıq iki gündür ki, legioner qızların qaldığı kirayə evlərdən də xəbərdarlıq gəlib. Çünki 4 aydır ki, legioner qızların kirayə haqları da verilmir və ev sahiblərindən xəbər göndərilib ki, əgər üç gün ərzində kirayə pulları verilməsə, qızları əşyaları ilə birgə evdən çıxaracaqlar. Qeyd edək ki, legioner qızların kirayə haqqını Voleybol Federasiyası ödəyirdi. 300-400 nəfərə yaxın işçinin 4 ayda maaş ala bilməməsi bir ailənin sosial durumu üçün çox ağırdır. Orada işləyənlər arasında ailə başçıları da var ki, onlar artıq 4 aydır ki, evlərinə çörək pulu apara bilmirlər. İşçilər yuxarılara müraciət etməyə də çəkinirlər ki, birdən işdən çıxarılarlar.

❑ Günel MANAFLI


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

---

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra **Tel: (012) 437-88-05; (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**




## Bakıda vətəndaşlara qızıl "atan" qadın axtarılır

**Bakıda fırıldaqçı qadının aldatdığı vətəndaşların sayı hər gün artır. Musavat.com xəbər verir ki, Bakıda "Lombard" rəsmisi olan Sumqayıt sakini - 1963-cü il təvəllüdlü Tahirə Alazovadan şikayətçi olanların sayı artıq 14 nəfərə çatıb.**

Bakı sakinləri onlara ümumilikdə 30287 manat "atan" Tahirə Alazdan Nizami rayon 24-cü polis bölməsinə şikayət ediblər.

T.Alazova 2014-cü ilin aprel ayından 2015-ci ilin avqust ayına kimi Bakı sakinləri Ətrubə Salmanovanın 1750, Aqil Mütəllimovun 420, İlhamə Şəfəqətovanın 1395, Şəfa Göylərovanın 4700, Süsən Allahverdiyevanın 340, Alim Şıxəliyevin 300, Samir Ağayevin 185, Aytən Rüstəmovanın 1250, Teymur Həsənovun 640, Gülarə Əliyevanın 308, Xatirə Abbasovanın 6000, Gülşən Əhmədovanın 265, Elvin İsgəndərovun 3000, Aidə Rzayevanın 250, Aytən Xalıqovanın 300, Aynur Həsənovanın 445, Aynurə Quliyevanın 4500, Samirə Məmmədovanın 574, Lətifə Hüseynovanın 560, Fərəh Abbasovanın 1395 və Əminə Həsənovanın 1200 manat pulunu dələduzluq yolu ilə mənimsəyib.

Şikayətçilərin sayının artacağı da gözlənilir.

Bir neçə gün öncə də T.Alaz tərəfindən iki Bakı sakininin aldadılması haqda məlumat vermişdik. Məlumatda qeyd olunurdu ki, Bakı şəhər sakini Valeh Qurbanəli bu ilin iyul ayında "Lombard"da olarkən Tahirə Alaz ondan 3 min manat dəyərində qızıl-zinət əşyaları alıb, əvəzində 830 manat pul verib. Tahirə Alaz həmin qızıl əşyalarını mənimsəyərək, sahibinə qaytarmayıb.

Sumqayıt şəhər sakini 1965-ci il təvəllüdlü Gülnarə Bayramova da T.Alazın ondan 3 min manat dəyərində qızıl-zinət əşyaları aldığını, əvəzində isə 675 manat pul verməsi haqda şikayət etmişdi. Şikayətçi 675 manat borcunu qaytarsa da, qızılını geri ala bilməyib.

Hazırda Tahirə Alaz polis əməkdaşları tərəfindən axtarılır.

❑ İlkin Muradov

bakcell

## «Bakcell»dən ikiqat Gündəlik İnternet. Gündə 10 qəpik ödəməklə yüksək sürətli Mobil İnternetdən faydalanın

**Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi «Bakcell» şirkəti abunəçilərinə yüksək sürətli mobil interneti daha sərfəli şərtlərlə təqdim edir. Artıq CIN abunəçiləri gündə cəmi 10 qəpik ödəməklə Gündəlik İnternet paketini ikiqat həcmdə əldə edə bilərlər. Sentyabrın 1-dən etibarən aktivləşdirilən kampaniya sayəsində «Bakcell» abunəçiləri asanlıqla 25 MB əvəzinə 50 MB həcmində yüksək sürətli mobil internetdən yararlana bilərlər.**

**"«Bakcell» şirkəti ölkənin mobil internet bazarında lider mövqeyə sahibdir. 4G xidmətinin istifadəyə verilməsinin ardınca şəbəkəmizdə internetdən istifadə edən abunəçilərin sayında davamlı artım müşahidə edirik. Biz abunəçilərimizə yüksək keyfiyyətli internet üçün çox sərfəli qiymətlər təklif edirik. Bu kampaniya çərçivəsində abunəçilərimiz eyni qiyməti ödəməklə ikiqat artıq internet əldə edəcəklər ki, bu da bazarda ən yaxşı təklifdir",- deyə «Bakcell» şirkətinin baş marketinq direktoru Mariya Toyçeva bildirib.**

**Gündəlik İnternet paketinin aktivləşdirilməsi çox asandır, bunun üçün sadəcə olaraq telefonda *189*1#Yes kodunu yığmaq yetərlidir. Gündəlik İnternet paketinin aktivləşdirilməsindən sonra abunəçilər ilk 5 gün ərzində internetdən PULSUZ faydalana biləcəklər. Gündəlik İnternet paketinə qoşularkən xidmət haqqı olaraq abunəçinin balansından 0.50 AZN dəyərində birdəfəlik xidmət haqqı çıxılacaq. 5 günlük müddət bitdikdən sonra Gündəlik İnternet paketi hər gün yenilənəcək və abunəçinin balansına gündəlik qaydada 50 MB həcmində internet trafiki yükləniləcək. Hər bir gündəlik yenilənmədən sonra abunəçinin balansından 10 qəpik çıxılacaq.**

**Kampaniyanın şərtləri haqqında daha ətraflı məlumatı bu keçiddən əldə etmək olar: http://www.«Bakcell».com/az/2-times-more-daily-internet**


### Elan

**Buzovna dairəsində, Daxili Qoşunların yanında 7 sot torpaq satılır. Sotu 7500 AZN.**

**Əlaqə telefonu: (050) 343-59-72**




## «Bakcell» şirkətinin təşkil etdiyi "Smart Start" təcrübə proqramı başa çatıb

**Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi «Bakcell» şirkətində "Smart Start" təcrübə proqramı çərçivəsində təcrübə keçən gənclər proqramı uğurla başa vurublar.**

**«Bakcell» şirkətinin 18-25 yaş arası tələbə və məzunlar üçün təşkil etdiyi "Smart Start" təcrübə proqramı çərçivəsində 32 nəfər gənc insan resursları, informasiya texnologiyaları, hüquq, texniki, mühasibatlıq, marketinq, müştəri xidmətləri, təchizat və logistika, tənzimləmə və dövlət qurumları ilə iş, korporativ satış, biznes texnologiyaları, pərakəndə satış və distribusiya şöbələrində təcrübə keçərək, peşəkar iş karyerasına başlamaq üçün faydalı olan bilik və bacarıqlara yiyələniblər.**

**İki aylıq proqram ərzində gənclər qeyri-neft sektorunun ən böyük investorlarından olan «Bakcell» şirkətində çalışaraq ən müasir biznes mühiti ilə tanış olublar. Təcrübə proqramının başlanğıc mərhələsində iştirakçılar praktiki biliklərini və işə hazırlıq bacarıqlarını artırmaq üçün təşkil olunan biznes etikası, karyera inkişafının planlaşdırılması, sağlamlıq, əməyin təhlükəsizliyi və ətraf mühit, vaxtın səmərəli bölgüsü, effektiv kommunikasiya, özünü kəşfetmə və təcrübəçilərin gələcək peşəkar fəaliyyətlərində zəruri olan müxtəlif təynatlı təlimlərdə iştirak ediblər.**

**"İki il ərzində proqramda iştirak etmək istəyən gənclər tərəfindən 3000-ə yaxın müraciət qəbul etdik və onlara maksimum dərəcədə şans verməyə çalışdıq. Keçən il 22, bu il isə 32 nəfər təcrübəçimiz olub. Gənclərin peşəkar bacarıqlarını inkişaf etdirmək üçün «Bakcell»i seçməsi bizi çox sevindirir. Milli operator olaraq ölkə gəncliyinə dəstək verməyə davam edəcəyik",- deyə «Bakcell»in baş icraçı direktoru Riçard Şirer bildirib.**

**"Smart Start" proqramın məzunları isə «Bakcell» haqqında fikirlərini bölüşüblər:**

**Elvin Nurəddinli: "Smart Start" proqramı mənim gələcək peşəkar karyera planlarımda olduqca böyük rol oynadı. Mən gələcəkdə özümü inkişaf etdirəcəyim prioritet sahələri müəyyənləşdirdim və əla dostlar qazandım".**

**Simuzər Mahmudova: "Uzun müddət nəzəri olaraq əldə etdiyim bilik və bacarıqları real iş mühitində tətbiq etdiyimə görə olduqca şadam. Karyerada ilk addımlar üçün "Smart Start" proqramı gənclər üçün əla şansdır".**

**İbrahim Niftiyev: "Bu iki ay ərzində «Bakcell» ailəsinin bir hissəsi olduğuma görə çox şadam. Təcrübə proqramı ərzində olduqca dəyərli bilik və bacarıqlar əldə etdim".**

**Leyla İsayeva: "İxtisasca müəllimə olsam da, özümü iş həyatında sınamaqla dəyərli təcrübə əldə etmiş oldum. Əminəm ki, əldə etdiyim bilik və bacarıqlar uğur qazanmağımda müstəsna əhəmiyyət daşıyacaq".**

**"Smart Start" proqramında təcrübə müddəti 2 ay olmaqla həftədə 5 tam iş günüdür. Proqram iştirakçıları nəqliyyat və qida xərclərini qarşılamaq məqsədilə 2 ay müddətində «Bakcell»dən təqaüd alırlar. Proqramın sonunda gənclər proqramda iştirak haqqında sənədlə təmin olunurlar.**

**Qeyd edək ki, "Smart Start" proqramının bütün məzunları «Bakcell» şirkətində açılan iş yerlərinə potensial namizəd hesab olunurlar. Ötən il təcrübə proqramını müvəffəqiyyətlə başa vuran gənclərdən 5 nəfər artıq «Bakcell» şirkəti tərəfindən işlə təmin olunub. Proqramın builki məzunlarından da bir neçəsinin işlə təmin olunması gözlənilir.**


### Elan

**Qəbələ rayonu Vəndam kəndində parket fabriki bütün avadanlıqları ilə birlikdə, çox ucuz qiymətə (15000 AZN) təcili satılır.**

**Tel: 070 335 90 15**

## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34



# Mazutlu gölün sahilində yaşayan Sabunçu sakinləri...

## Yüzlərlə insanın həyatı hər an təhlükə altındadır

**Sabunçu rayonu, Sabunçu qəsəbəsi Qəmbər Vəzirov küçəsinin sakinləri təhlükəli şəraitdə yaşayırlar. Onlar hər an baş verə biləcək güclü partlayış və yanğından qorxurlar. Buna səbəb isə yaxınlıqdakı mazutlu ərazidir. Uzun müddət bu ərazidə neft çıxarılıb. İndi isə həmin ərazini neft tullantıları, mazutlu göl əhatə edir. Sakinlər buraya zibil tökürlər.**

Ərazinin zibilxana kimi istifadə edilməsi yüzlərlə ailəni təhlükə altında qoyur. Çünki zibillər çox zaman ərazidən daşınmır və buna görə də zibil təpələri əmələ gəlir. Bunu görən bəzi yerli sakinlər də alternativ yolla zibilləri təmizləməyə çalışırlar. Bu üsul isə yanlışdır. Çünki onlar zibilləri yandırırlar. Amma ərazinin mazutlu olduğunu düşünmürlər.

Bu səbəbdən ərazidə tez-tez yanğın hadisələri baş verir. Misal üçün, bir neçə gün öncə adıçəkilən ərazidə eyni səbəbdən yanğın baş vermişdi. Bu haqda musavat.com saytı olaraq məlumat da vermişdik. Yanğın nəticəsində heç kəs xəsarət almasa da, hadisə sakinləri möhkəm qorxutmuşdu.

Bu ərazidə mənzərə gerçəkdən də dəhşətlidir. Buranı "ölüm gölü" də adlandırmaq olar. Kiçik bir qığılcım bəs edər ki, geniş bir ərazini alov bürüsün. Üstəlik, gölün hər tərəfində yaşayış evləri var.

Aldığımız məlumata görə, bu gölün əhatəsi əvvəllər daha da böyük olub. Zaman keçdikcə gölü hissə-hissə qurudub, üzərində evlər tikiblər. Onların hər birində də hazırda yaşayış var.

Bu təhlükəli, zəhərli ərazidə oynayan balaca uşaqlara da rast gəldik. Onlar hələ ki hansı təhlükə ilə oynadıqlarının fərqində deyillər.

**Sakinlər deyirlər ki, gölün qurudulması üçün bir çox yerlərə müraciət ediblər:** "Dəfələrlə müraciət etdik ki, buranı qurutsunlar. Çünki bizim həyatımız üçün bu göl çox təhlükəlidir. Camaat bilmir, zibil yandırır və ya siqaret kötüyü atırlar. Bu zaman da dəhşətli yanğınlar baş verir. Biz istəyirik ki, buranı qurudub, park tiksinlər. Ağaclar əkilsin, yaşıllıq olsun. Bizim uşaqlarımız da bu mazutlu göldə yox, həmin təmiz və səliqəli parkda oynasınlar".

**Qəsəbə sakinləri ərazinin qəsdən yandırıldığını da iddia edirlər:** "Buralarda olan evlərin 90 faizi qanunsuz tikilib. Gölü qurudurlar, tikirlər. Yatırsan, səhər oyanırsan ki, sağ tərəfində ev tikilib, artıq bir təzə qonşun var. Buranı da qəsdən yandırırlar ki, gölü qurudub, ev tiksinlər".

**"Bu zəhərdir-zəhər" - sözlərini deyə-deyə bizə yaxınlaşan yaşlı qəsəbə sakini Firuzə nənə gölün sakinlər üçün ziyanlı olmasından şikayətlənir:** "Burada yaşayan hər bir adam artıq xəstədir. Mazutun zəhəri onlara bəs edir. Hər gün onun qoxusunu, istidən daha da güclənən pis iyini içimizə çəkirik. Burada sağlam uşaq böyüyər? Deyirlər ki, bu evlər qanunsuz tikilib. Hər necə tikilib. Axırı ki burada yaşayış var da, deməli, insanların qayğısına qalmaq lazımdır. Pul yığanda, vergi alanda, səs istəyəndə bizim evlər qanuni olur, iş görməyə gələndə qanunsuz. Bu gölü qurutmaq lazımdır".

**Ərazinin zibilxana kimi istifadəsindən danışan qəsəbə sakini Aqil Dadaşovun sözlərinə görə, burada başqa alternativ yer olmadığı üçün vəziyyət bu həddə çatıb:** "Məsələ burasındadır ki, camaatın zibil atacağı başqa yer yoxdur. Yüzlərlə ailə üçün iki ədəd zibilqabı qoyublar. O da tez dolur. Günlərlə dolu qalır, daşıyıb aparan olmur. Ona görə də camaat zibilini haraya gəldi, atır. Eləsi də var ki, ərinir uzaq yol gəlməyə. Eləcə qapıdan çıxıb, zibili atır mazutlu gölə. Buraya 10-a yaxın zibil qutusu qoysalar, vaxtı-vaxtında da daşısalar, ərazidə bir dənə də zibil olmaz".



Bu ərazidə yaşamaq hər cəhətdən təhlükəlidir. Amma görünən budur ki, hələ uzun zaman sakinlər bu problemi yaşayacaqlar. Üstəlik, mazutlu göldən əziyyət çəkənlərin sayı getdikcə də çoxalacaq. Çünki ərazidəki evlərin sayı günü-gündən artmaqdadır.

**İcra hakimiyyəti isə yalanlarla hər kəsin başını aldadır. Misal üçün, 2014-cü ildə Sabunçu rayonunun qəsəbələrində aparılmış abadlıq və yenidənqurma işləri barədə verilən hesabatda, bu ərazidə qurudulma işlərinin aparıldığı və zibil meydançası tikildiyi yazılıb. Amma belə bir şey yoxdur:** "Qəsəbənin T.Bünyadov küçəsində yerləşən təxminən 1.5 ha sahəsi olan göl tamamilə doldurulub, ətraf ərazilərin subasmaya məruz qalmaması üçün uzunluğu 110 m, D-300 mm olan 2 yeni kanalizasiya xətti çəkilib.

Doldurma işləri qəsəbənin Q.Vəzirov küçəsindəki göldə də aparılmaqdadır. Bu gölün doldurulmuş ərazilərində gölə tökülən məişət tullantılarının qarşısının alınması məqsədilə 2 ədəd zibil meydançası tikilib istifadəyə verilib".

Bu 2 zibil meydançası yəqin ki, sakinlərin bəhs etdiyi 2 ədəd zibil qutusudur. Görünən budur ki, icra başçısı həm sakinləri, həm də hesabat verdiyi hökuməti aldadır.

❑ **Məhəmməd TÜRKMƏN**
**Fotolar müəllifindir**

# Kağızla insanın ünsiyyəti minimuma düşüb

## Bəşəriyyətin kağız kəşfinin önəmi başqa bir kəşflə arxa plana keçməkdədir...



**Bu bir gerçəkdir ki, əvvəllər istər mediada, istərsə də digər qurumlarda bütün işlər, ünsiyyət kağız üzərindən aparılırdısa, artıq hazırkı dövr üçün bunu demək çətindir. Çünki insanlar indi kağız variantdan çox internet üzərindən işlərini aparırlar.**

Bu da kağızla insan arasındakı ünsiyyəti demək olar ki, minimuma endirib. Yalnız Azərbaycanda deyil, bütün dünyada vərəqləyib oxumağa vərdiş etdiyimiz qəzetlər artıq tarixin arxivinə doğru gedir. Qəzet alıcıları, yəni oxucular, xəbərləri daha sürətli vasitədən-internetdən əldə etməyə üstünlük verirlər. Oxucular populyar xəbər saytlarından oxuduqları məlumatların kağız variantına pul verib almağın əhəmiyyətsiz olduğunu düşünürlər.

Artıq dünyada bir sıra qəzetlər yalnız elektron versiyada yayına keçiblər. Elektron versiya reytinqi artırsa da qəzet variantından əldə edilən gəlirə ciddi təsir göstərir.

Maraqlıdır, bəs kağızla insanın ilk ünsiyyəti nə vaxtdan başlayıb?

Kağızın yaranma tarixi olduqca maraqlı olub. Salnamələrə əsasən kağız b.e.105-ci ilində Tsay Lun tərəfindən Çində icad olunub. O, bu eranın 105-ci ilində tut ağacı qabığını və parça qırıntılarını su ilə qarışdıraraq əzdi, presləyərək suyunu çıxardı və alınmış nazik təbəqəni qurumaq üçün Günəşin altında ipdən asdı. Kağız Çinin dörd möhtəşəm (barıt, kompas, kağız və kitab çapı) kəşfindən biri sayılır.

Əslində insanlar hələ eradan əvvəl 3500-cü illərdə yazı yazmaq mümkün olan müxtəlif əşyalardan (daş, ağac gövdəsi, gil lövhə və s.) istifadə edirdilər. Kağızın kəşfi sonrakı dövrlərdə çinliləri dünyada ən inkişaf etmiş mədəniyyətlərdən birinin sahibinə çevirdi. Çində ilk olaraq kağızdan bağlamalar və yazı yazmaq üçün istifadə edilirdi. Tan sülaləsi dövründə ilk tualet kağızı və kağız çay torba və qutucuqları meydana çıxır. Sun imperiyası dövründə ilk kağız pul əsginazı kəsilib.

Çox maraqlıdır ki, 751-ci ildə Asiyaya, 793-cü ildə isə Bağdada gələn kağız Avropaya min il sonra çatıb. Beləliklə, Avropada ilk kağız 1151-ci ildə istehsal olunmağa başladı. İlk kağız fabriki 794-cü ildə Bağdadda Harun ər-Rəşidin vəzirinin oğlu İbn Fəzl tərəfindən qurulub. Belə bir fabrik 800-cü ildə Misirdə, 950-ci ildə isə Əndəlüsdə (İspaniya) inşa edilibr. Avropada ilk dəfə 1100-cü ildə Bizansda, 1102-ci ildə Siciliyada, 1228-ci ildə Almaniyada, 1309-cu ildə isə İngiltərədə ilk kağız fabrikləri fəaliyyətə başlayıb. Mətbəənin meydana gəlməsindən sonra isə kağıza olan ehtiyac birə-beş artıb. XV-XVI əsrlərdə kitab çap edən avadanlığın icadı ilə elaqədar kağız istehsalına tələbat çoxalıb.

Kağızın inkişafında dönüş dövrü XVII əsrdə baş verib. O vaxtlar "Roll" adlı üyüdən aparat icad edilib. XVIII əsrin axırında bu aparatların sayəsində külli miqdarda kağız istehsal olunub. Lakin üyüdülmüş kağızın əl ilə boşaldılması bu prosesi ləngidirdi. Üstəlik, kifayət qədər xammal tapmaq çətin idi.

18-ci əsrin əvvəllərində fransız alimi Rene de Remo meşədə gəzərkən bir arı pətəyi görür. Arılar yuvalarında olmadığı üçün diqqətlə pətəyə tamaşa etməyə başlayıb. Qəribə də olsa, pətəyin kağızdan düzəldilməsi Remonu təəccübləndirib. Əslində isə hər şey çox sadə idi. Qısa bir müşahidədən sonra Remo gördü ki, arılar nazik budaqları və ya çürümüş kötükləri gəmirir və ağızlarında mədə şirələri və selikləri ilə qarışdırılaraq pətəkləri düzəltməkdə istifadə edirlər. Remo arıların həzm sistemini tətbiq edərək, öz kəşfini 1179-cu ildə Fransa Kral Akademiyasına təqdim etdi. İlk kağız dəzgah isə 1798-ci ildə kəşf edildi. Ancaq bu geniş bir qayışın fırlanaraq çəlləkdəki xəmiri nazik bir kağıza çevirdiyi sadə bir qurğu idi. İngiltərəli Furdrinye qardaşları Robberdən patent alıb 1806-cı ildə kağız istehsalı maşınını patentləşdirdilər.

Silindirli dəzgah isə çox keçmədən 1809-cu ildə Con Dikinson tərəfindən icad edildi. XIX əsrin ortaları üçün kağız istehsalı aparatı tam avtomatlaşdırma dərəcəsinə çatdırıldı.

Bu gün kağız istehsalı yüksək texnologiya ilə və tam avtomatik bir şəkildə həyata keçirilirsə də, ümumi prinsip eynidir. Kağızlar arasındakı keyfiyyət fərqi isə daha çox lifin növündən, xəmirin hazırlanma qaydasından, həmçinin kimyəvi və ya mexaniki üsullardan asılıdır. Liflərin əldə edilməsində əsas xammal ağaclar sayılsa da, kağız istehsalında bu gün sintetik liflərdən də istifadə olunur.

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT

Son səhifə

N 200 (6228) 10 sentyabr 2015



## Ən nazik “iPhone” satışa çıxır

ABŞ-da Apple şirkəti “iPhone 6s”in təqdimat mərasimini keçirib. Yeni modelin təqdimat mərasimi canlı yayımla dünyaya nümayiş etdirilib. Yeni “iPhone 6s”in digərlərindən fərqli olaraq daha çox texniki imkanlara sahib olduğu iddia edilir. “KGI Security” araşdırma şirkətinin iddiasına görə, yeni model telefon “Apple” şirkətinin istehsal etdiyi ən nazik “iPhone” olacaq. Onun qalınlığının 6 - 6.5 mm arasında olduğu deyilir. Hazırda satışda olan “iPhone”-6.9-7.1 mm qalınlığındadır. Yeni telefonun üstünlüklərindən biri isə səs komandalarına daha geniş yer verilməsidir.

“iPhone 6s”in daha keyfiyyətli videokamerası və möhkəm üz qabığı (alimenium) ilə özündən əvvəlkilərə meydan oxuyacağı iddia edilir. Yeni modeldə iOS 9-un təkmilləşdirilmiş funksiyalarından istifadə ediləcək. “iPhone 6s”ın əsas rəqibləri isə avqust ayında Cənubi Koreya “Samsung” şirkətinin təqdim etdiyi Galaxy Note 5 və Galaxy S6 edge Plusdur. “Apple” şirkəti ilk “iPhone”modelini 2007-ci ildə müştərilərinə təqdim edib. 8 il ərzində 6 milyondan çox “iPhone” satılıb. 2014-cü ilin sentyabrında satışa çıxarılan “iPhone 6” ttps://tr.wikipedia.org/wiki/%C4%B0Phone və ”iPhone 6 Plus" modelləri doqquz ay ərzində şirkətə 183 milyon dollar gəlir gətirib.

# 9 milyon dollarlıq pencək

Dünyanın hər yerini gəzən turistlərin işini asanlaşdırmaq üçün pencək hazırlamağı planlaşdıran amerikalı iş adamı internetdə yardım toplamağa başlayıb. Pencəyin hazırlanması üçün 20 min dollar toplanmasını hədəf seçən biznesmen bir anda 9 milyon dolların sahibi olub. 29 yaşlı Hiral Şanaviyə “Baubax Jacket” adını verdiyi çox funksiyalı pencəyi hazırlamaq üçün arvadı da kömək edib. Şanavi pencək üçün hər şeyi düşünüb. Qulaqlıq, günəş eynəyi, baş torba, telefon, planşet, hava ilə doldurula bilə yastıq, geniş bir pasport cibi, mikrofon və digər lazımı əşyaların qoyula bilməsi üçün 15 cibi olan pencək 4 formada hazırlanıb. Pencəyin soyuq havalarda əlləri isitmək üçün xüsusi hazırlanmış əlcəkləri də var. Yaxın zamanlarda satışa çıxarılacaq olan pencək 109 dollara satılacaq.



# İngiltərə taxtında rekord imza

**Sentyabrın 9-da taxta çıxmasının 64-cü ilini qeyd edən II Yelizaveta səltənəti uzun müddət davam edən ingilis hökmdarı olacaq. Dünyada isə son 400 ili nəzərə alsaq, rekordu XIV Louise qırıb.**

İngiltərə Kraliçası II Yelizavetanın taxta çıxması bütün ölkədə təntənəli şəkildə qeyd edilib. Kraliça taxta çıxdığı günü qeyd etməklə yanaşı, krallıq ailəsinin taxtda qalan ən uzun üzvü kimi də tarixə düşüb. II Yelizavetadan əvvəl bu rekordu 1837-1901-ci ildə İngiltərəyə hökmranlıq edən Kraliça Viktoriya qırmışdı. 64 illik kraliçalıq dövrü haqqında araşdırma aparan jurnalistlər bu müddət ərzində İngiltərədə 13 baş nazir, Amerikada 12 prezident, Rusiyada isə 12 prezident dəyişdiyini bildiriblər. AFR xəbər agentliyi kraliçanı ən uzun müddət taxtda qalan hökmdarlarla müqayisə edib. Məlumatlara görə, son 400 ildə ən uzun müddət qalan liderlərdən biri məhz II Yelizavetadır. Həmin siyahıdan birinci yeri 72 il Fransa taxtında qalan XIV Luis tutur. 1946-cı ildən bəri Tailandda hökmdarlıq edən Bhumibol Anduljayed ikinci sıradadır.






## Uşağını bəyənmədiyi üçün məhkəməyə verdi

Süni mayalanma yolu ilə uşaq dünyaya gətirən qadın dünyaya gətirdiyi uşağı bəyənmədiyi üçün məhkəməyə müraciət edib. Amerikada yaşayan Cenifer Kramblet adlı qadın süni mayalanma yolu ilə hamilə qalıb. Ağ dərili olan qadın özü kimi ağ dərili, mavi gözlü uşağa sahib olmaq üçün xəstəxanaya müraciət edib. Lakin xəstəxanada qarışıqlıq yarandığı üçün qadın uşağı dünyaya gətirdiyi zaman onun qara dərili olduğunu görüb. Anası hazırda 3 yaşı olan qızını çox sevsə də, qızı qara dərili olduğu üçün xəstəxananı məhkəməyə verib. Ana ağdərili insanların əhatəsində yaşadığı üçün qızının gələcəkdə özünü pis hiss etməsindən qorxur. Afro-amerikalı görünüşünə malik olan balaca qızın ailəsi onu ətrafdakı hər kəsdən qorumaq və onu gələcəkdə daha yaxşı yaşatmaq üçün xəstəxanadan təzminat alacağını deyir.




**QOÇ** - Biznes sövdələşmələri üçün çox uğurlu vaxtdır. Bu barədə zaman xeyrinizə işləyəcək. Amma saat 18-dən sonra başlıca vəzifəniz səhhətinizi qorumaqdan ibarət olmalıdır.

**BUĞA** - İşgüzar fəaliyyətə başlamaq üçün gözəl ərəfədir. Əlalxüsus da ikitərəfli əməkdaşlıq böyük səmərə verə bilər. Odur ki, əzmkarlığınızı artırmalı, öz gücünüzə inanmalısınız.

**ƏKİZLƏR** - Kifayət qədər düşərli gündür. İstər qarşılıqlı münasibətlərdə, istərsə də fəaliyyət zəminində uğurlarınız çox olacaq. Yegana bürcsünüz ki, ulduzlar sizə böyük qazanc vəd edir.

**XƏRÇƏNG** - Astroloji göstəricilərə görə, günün birinci yarısını müəyyən qədər yorğun tərzdə başa vuracaqsınız. Saat 14-dən sonra isə maraqlı hadisələrin iştirakçısı olacaqsınız.

**ŞİR** - Göy qübbəsi səhhətinizdə mənfi çaların olduğunu göstərir. Hər şeydən əvvəl canınızın qeydinə qalın. Nahardan sonra maraqlı sövdələşmələr və bir qədər də qazanc gözlənilir.

**QIZ** - Karyeranızda əsaslı dönüş etmək üçün bu təqvimin əhəmiyyəti böyükdür. Ona görə də, bütün mümkün potensialınızdan maksimum yararlanmağa çalışın. Öz daxili gücünüzə inanın.

**TƏRƏZİ** - Qarşılıqlı münasibətlərdə vəziyyət o qədər də ürəkaçan deyil. Amma etiraf edin ki, bunun səbəbkarı daha çox özünüzsünüz. Çalışın hər bir situasiyaya reallığın gözü ilə baxasınız.

**ƏQRƏB** - Günün ümumi mənzərəsi gərgin fonla müşayiət olunduğundan özünüzü ələ almağı bacarmalısınız. Özünüzü hamıdan üstün tutmaqla yalnız adınızı hörmətdən sala bilərsiniz.

**OXATAN** - Yaxşı olar ki, günün əsas vaxtını Tanrı ilə tək qalmağa həsr edəsiniz. Keçdiyiniz həyat yoluna, səhv və yanlışlıqlara nəzər salıb çatışmazlıqları aradan qaldırın.

**OĞLAQ** - Çox uğurlu gündür. Fəaliyyətlə bağlı qarşınıza qoyduğunuz vəzifələrin əksəriyyətini reallaşdıra biləcəksiniz. Ulduzlar gün ərzində əsəblərinizi qorumağı da tövsiyə edir.

**SUTÖKƏN** - Ümumən gərgin gündür. Unutmayın ki, ətrafınızda olanların əksəriyyəti xəbis və yalançı adamlardır. Belə mühitdə isə ədalət arzusuna düşmək asan deyil. Axşam gəzintiyə çıxın.

**BALIQLAR** - Yalnız iş yerində müsbət ovqat qazana bilərsiniz. Ailə və digər sahələrdə isə hər şey zövqünüzə zidd ola bilər. Riskli hərəkətlərə yol verməyin. Vaxt tapıb ziyarətgaha gedin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## İnsanları zombiləşdirən narkotik



Amerikada son zamanlarda istifadə edilməyə başlayan yeni narkotik növü insanları zombiləşdirir. “Şeytan nəfəsi” adı verilən yeni narkotik Amerikada yetişdirilən bitkilərdən hazırlanır. Narkotik maddəni qəbul edən şəxs 24 saat özünü idarə edə bilmir və şüuru itir. Narkotikin dozası çox olduğu zaman insanı öldürə bilir. Bu narkotik insanda şok təsiri yaradır və özünün olan hər şeyi başqalarına hədiyyə edə bilir. Məlumatlara görə, insanların üzünə toz şəklində ataraq və çiçək kimi qoxladaraq da narkotikin təsiri altına salmaq mümkün olur. Yeni narkotik növündən istifadə edənlərdən bəziləri bütün qızıllarını başqalarına veriblər. Hətta biri özü belə hiss etmədən evini başqasına satıb. “Şeytan nəfəsi”ni satdığı güman edilən iki qadın və bir kişi həbs edilib.

**Səhifəni hazırladı: ŞAHNAZ**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Azərbaycan” nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300